# 15 İyun Milli Qurtuluş Günüdür!


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 122 (30816) 15 iyun 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Azərbaycan və Türkiyə liderlərinin İran–İsrail böhranı ilə bağlı narahatlığı



**İyunun 14-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon söhbəti zamanı İran İslam Respublikası və İsrail Dövləti arasında vəziyyətin gərginləşməsi ilə bağlı narahatlıq ifadə olunub. Dövlət başçıları gərginliyin tezliklə aradan qaldırılmasının vacibliyini qeyd edərək, məsələlərin danışıqlar yolu ilə həllinin önəmini vurğulayıblar.

Azərbaycan və Türkiyə prezidentləri ölkələrimiz arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin gündəliyinə dair məsələlər barədə fikir mübadiləsi aparıblar.

Telefon danışığı əsnasında dövlət başçıları gələcək təmaslarla bağlı məsələlərə də toxunublar.

***Prezidentin Mətbuat Xidməti***

## Azərbaycan dövlətçiliyinin xilas günü



### *Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:*

**Müasir Azərbaycanın bütün uğurları Heydər Əliyevin adı ilə bağlıdır. Əgər Ulu öndər 1993-cü ildə xalqın tələbi və təkidi ilə hakimiyyətə gəlməsəydi, Azərbaycan çox böyük bəlalarla üzləşə bilərdi. Ölkə parçalanma ərəfəsində idi. Vətəndaş müharibəsi, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində torpaqlarımızın itirilməsi, digər təhlükəli amillər ölkəni dağıdırdı. Azərbaycan böhran içində idi.**

**Azərbaycana rəhbərliyə gəldikdən sonra Heydər Əliyev ölkəni inkişaf etdirməyə başladı. Müharibə dayandırıldı, vətəndaş qarşıdurmasına son qoyuldu, qeyri-qanuni silahlı dəstələr tərksilah olundu, qayda-qanun yaradıldı.**

**Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətiribdir. Bütün sahələrdə Azərbaycan inkişaf edir, uğurlar qazanır. Beynəlxalq aləmdə Azərbaycan yüksəlir, uğurlar qazanır. İndi Azərbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Regionda bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.**

## Qayıdış Qurtuluş çağırışı, Zamanın hökmü idi



Səhifə ⇨ 5

## Xankəndidə 37 ildən sonra ilk “Son zəng”



səhifə ⇨ 12

## Sən həmişə bizimləsən...



səhifə ⇨ 15

## Vəkil, yoxsa araqarışdıran?



səhifə ⇨ 3

## Qeyri-neft sektorunda 5 aylıq ixrac – 1 milyard dollar



səhifə ⇨ 11

## Paşinyan və kilsə, yaxud Napoleon və VII Piy



səhifə ⇨ 4

## Separatçılığa dəstək, sülhə təzyiq

səhifə ⇨ 4

## Böyük Britaniya və Şimali İrlandiyanın Kralı Əlahəzrət III Çarlza

**Əlahəzrət!**

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Biz Azərbaycan ilə Birləşmiş Krallıq arasında xoş ənənələrə əsaslanan əlaqələrin inkişafına xüsusi əhəmiyyət veririk. Ölkələrimiz arasında dostluq münasibətlərinin, müxtəlif sahələri əhatə edən qarşılıqlı faydalı əməkdaşlığın gündən-günə genişlənməsi bizi sevindirir. Mühüm iqtisadi tərəfdaşlarımızdan biri olan ölkənizin şirkətləri Azərbaycanın iqtisadi həyatında fəal iştirak edirlər.

Enerji sahəsində uzun illərdən bəri davam edən ənənəvi əməkdaşlığımız strateji xarakter daşıyır. Eyni zamanda bərpa olunan enerji mənbələrinin inkişaf etdirilməsi, yaşıl enerjiyə keçid və dekarbonizasiya məsələlərinin bu gün Azərbaycan–Birləşmiş Krallıq ikitərəfli gündəliyində aparıcı yer tutmasını məmnunluqla qeyd etmək istərdim.

Əminəm ki, qarşılıqlı fəaliyyətimizin böyük potensialından yararlanaraq ölkələrimiz arasında dostluq əlaqələrinin və əməkdaşlığın daha da dərinləşdirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Əlahəzrət, bu bayram günündə Sizi bir daha ürəkdən təbrik edir, möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, ali fəaliyyətinizdə uğurlar, Birləşmiş Krallığın dost xalqına daim rifah və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 12 iyun 2025-ci il***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**Bakı şəhəri, 13 iyun 2025-ci il** **№ 179**

"Laçın şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Laçın şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Bərpa olunan enerji mənbələrinin ümumi gücü artır

**"AzərEnerji" ASC-nin vitse-prezidentinin birinci müavini Yusif Qarayev mediaya müsahibəsində respublikada həyata keçirilən tədbirlər nəticəsində karbon emissiyasını azaltmaq məqsədilə bərpa olunan enerji mənbələri üzrə layihələrin istehsal gücünün artdığını qeyd edib. O, Azərbaycanın qlobal iqlim dəyişikliyinin təsirlərini azaltmaq məqsədilə "yaşıl" enerji transformasiyasının intensiv şəkildə davam etdirdiyini də bildirib.**



Y.Qarayevin sözlərinə görə, işğaldan azad olunmuş ərazilərdə ümumi gücü 270 MVt olan bir sıra kiçik su elektrik stansiyaları istismara verilib. Hazırda tikintisi davam edən və növbəti illərdə şəbəkəyə qoşulacaq bir sıra mühüm layihələr də mövcuddur. "ACWA Power" şirkətinin həyata keçirdiyi 240 MVt gücündə külək elektrik stansiyası cari ilin birinci yarısında istismara veriləcək. "Masdar" şirkəti tərəfindən həyata keçirilən meqa layihə çərçivəsində ümumi gücü 1 QVt olan 2 günəş və 1 külək elektrik stansiyaları 2026-cı ilin birinci yarısından etibarən şəbəkəyə qoşulacaq.

"AzərEnerji" rəsmisi daha sonra qeyd edib ki, "Enerso Cəbrayıl" MMC və "Clean Energy Cəbrayıl" MMC tərəfindən inşa ediləcək 50+50 MVt-lıq günəş elektrik stansiyalarının 2027-ci ildə şəbəkəyə qoşulması planlaşdırılır. Bərpa olunan enerji mənbələri üzrə hərrac layihəsi çərçivəsində 100 MVt gücündə günəş elektrik stansiyasının 2026-cı ildə şəbəkəyə qoşulması nəzərdə tutulur. Çin şirkəti "China Gezhouba" tərəfindən Füzuli rayonunda inşa ediləcək 160 MVt-lıq günəş elektrik stansiyasının 2030-cu ilə qədər istismara verilməsi planlaşdırılır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kiçik su elektrik stansiyalarının ümumi gücünün 471 MVt-a qədər artırılması gözlənilir.

***XQ***

## Büdcə gəlirləri proqnozu 3,9 faiz üstələyib

**Maliyyə Nazirliyinin yaydığı məlumata əsasən, cari ilin 5 ayında dövlət büdcəsinin gəlirləri 17 milyard 138 milyon manat (həmin dövr üçün nəzərdə tutulan proqnozdan 639,7 milyon manat və ya 3,9 faiz çox) olub, xərclərlə əlaqədar 550 mindən çox ödəniş tapşırığı yerinə yetirilib,**



Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar 7 milyard 843,3 milyon manat (proqnozdan 423 milyon manat və ya 5,7 faiz çox), Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar 2 milyard 589,5 milyon manat (proqnozdan 2,5 milyon manat və ya 0,1 faiz çox), Əmlak Məsələləri Dövlət Xidməti üzrə daxilolmalar 18 milyon manat (proqnozdan 3,7 milyon manat və ya 25,9 faiz), Dövlət Neft Fondundan transfert isə 6 milyard 33,8 milyon manat (proqnoza qarşı 100 faiz çox) və sair daxilolmalar isə 398,4 milyon manat (proqnozdan 297,2 milyon manat və ya 3,9 dəfə çox) qeydə alınıb.

Dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar 255 milyon manat təşkil edərək proqnoza qarşı 86,7 milyon manat və ya 25,4 faiz az icra edilib.

Bu ilin 5 ayı üzrə dövlət büdcəsinin xərcləri 14 milyard 195 milyon manat (proqnoza qarşı 13 milyard 691,8 milyon manat, yəni 96,5 faiz) icra edilib.

***XQ***

# Hikmət Hacıyev Praqada Orta Dəhliz müzakirəsində

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi GLOBSEC-lə birgə Praqada "Orta Dəhliz: Yeni Geosiyasi və İqtisadi Strateji Keçid?" ("The Middle Corridor: A New Geopolitical and Economic Lifeline?") adlı panel müzakirəsi təşkil edib.**



TV aparıcı və jurnalist Kris Börnsün moderatorluq etdiyi panelin iştirakçıları sırasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, İtaliyanın Beynəlxalq Siyasi Tədqiqatlar İnstitutunun Rusiya, Qafqaz və Mərkəzi Asiya Mərkəzinin baş elmi işçisi Eleonora Tafuro Ambrosetti, həmçinin Orta Doğu Texniki Universitetinin professoru Hüseyn Bağcı yer alıb.

Prezidentin köməkçisi çıxışında Orta Dəhlizlə bağlı Azərbaycanın baxışını təqdim edərək, bu marşrutun geosiyasi əhəmiyyətini və daha geniş regional inteqrasiyaya verdiyi imkanları vurğulayıb. O, Azərbaycanın quru, hava, dəniz və rəqəmsal infrastrukturunu təkmilləşdirərək dənizə çıxışı olmayan ölkə statusundan nəqliyyat baxımından əlaqələndirilmiş məkana çevrildiyini və bunun bütün Avrasiyaya fayda verdiyini qeyd edib.




Hikmət Hacıyev bildirib ki, Azərbaycan "Orta Dəhliz"ə sadəcə nəqliyyat marşrutu kimi deyil, daha geniş mənada mədəniyyətlərarası dialoqun bir forması kimi baxır. O qeyd edib ki, yollar Azərbaycanın qədimdən gələn mədəniyyət və sivilizasiya anlayışının bir hissəsidir və ölkəmiz tarixən İpək Yolunun üzərində yerləşərək bu dialoqun fəal iştirakçısı olub. O vurğulayıb ki, coğrafi mövqe olaraq şərq-qərb və şimal-cənub kəsişməsində yerləşməyimiz vacib olsa da, Azərbaycanın müstəqillik əldə etdikdən sonra bu potensialı reallaşdırmaq üçün praktiki addımlar atması əsas məsələ olub: "Biz quru ilə əhatələnmiş ölkə olaraq bu məhdudiyyəti üstünlüyə çevirməyə çalışmışıq".

Hikmət Hacıyev bildirib ki, Azərbaycanın bununla bağlı gördüyü işlər bir neçə əsas istiqaməti əhatə edir. İlk olaraq enerji sahəsində Bakı-Tbilisi-Ceyhan və digər boru kəmərləri vasitəsilə Xəzər dənizini Qara və Aralıq dənizləri ilə birləşdirən enerji dəhlizləri yaradılıb. Daha sonra ölkə daxilində avtomobil yolları və magistrallar inşa edilib və bunlar qonşu ölkələrlə də əlaqələndirilib.

O, həmçinin Xəzər dənizinin ayırıcı deyil, birləşdirici faktor kimi dəyərləndirildiyini, Mərkəzi Asiya ölkələri ilə dəniz nəqliyyatı vasitəsilə əməkdaşlıq qurulduğunu bildirib. Bununla yanaşı, hava nəqliyyatı sahəsində "hava İpək yolu" anlayışı formalaşdırılıb, Azərbaycanda hazırda 9 hava limanı fəaliyyət göstərir.

Hikmət Hacıyev çıxışında "rəqəmsal İpək yolu" təşəbbüsündən də danışıb. O bildirib ki, Azərbaycan hazırda qazaxıstanlı tərəfdaşlarla birlikdə Avrasiya qitəsi boyunca, Xəzər dənizi vasitəsilə yüksəksürətli internet bağlantısı qurur. Eyni zamanda, Xəzər dənizi regionunun bərpaolunan enerji potensialının Qara dəniz üzərindən Avropaya daşınması istiqamətində "bərpaolunan enerji dəhlizi" üzərində iş aparıldığını deyib.

"Bütün bu təşəbbüslər Azərbaycanın Şərq-Qərb bağlantısı və ümumilikdə əlaqəlilik konsepsiyasına verdiyi strateji töhfənin tərkib hissəsidir", – deyə Hikmət Hacıyev vurğulayıb.

Hikmət Hacıyev panel müzakirəsində çıxışı zamanı bildirib ki, Orta Dəhliz artıq mövcuddur və fəaliyyət göstərir. Heç kimdə elə təəssürat yaranmamalıdır ki, bu dəhliz yoxdur və kimsə gəlib onu yenidən qurmalıdır. Azərbaycan və tərəfdaşlarımız bu dəhlizə sərmayə yatırır. Əlavə tərəfdaşlar da gəlib bu imkanlardan faydalana bilərlər.

O qeyd edib ki, Azərbaycan Orta Dəhlizi Avropa İttifaqı ilə Çin kimi iki böyük iqtisadi güc arasında strateji bağlantı kimi görür. "Avropa İttifaqı ilə Çin arasında illik ticarət dövriyyəsi 700 milyard avrodan çoxdur. Onlar rəqabət apara bilərlər, lakin bu bir-birini əməkdaşlıq imkanları kimi görürük", – deyə Hacıyev bildirib.

Prezidentin köməkçisi əlavə edib ki, Çinin "Kəmər və Yol" təşəbbüsü ilə Avropa İttifaqının "Qlobal Qapı" (Global Gateway) təşəbbüslərinin Cənubi Qafqaz və Xəzər regionuna necə tətbiq olunacağı hələ də tam aydın deyil. "Biz tərəfdaşlarımızla əməkdaşlığa açığıq, lakin öz planlarımızı da yerinə yetiririk",- deyə o vurğulayıb.

Hikmət Hacıyev çıxışında bir daha bildirib ki, Orta Dəhliz artıq mövcuddur və fəaliyyət göstərir: "Heç kimdə elə təəssürat yaranmamalıdır ki, bu dəhliz yoxdur və kimsə gəlib onu yenidən qurmalıdır. Azərbaycan və tərəfdaşlarımız bu dəhlizə sərmayə yatırır. Əlavə tərəfdaşlar da gəlib bu imkanlardan faydalana bilərlər".

***

**Azərbaycan Prezidentinin köməkçisi çıxışında "Yaşıl dəhliz" təşəbbüsünün Azərbaycanın enerji bağlantısı strategiyasının məntiqi davamı olduğunu və bu istiqamətdə yeni mərhələni ifadə etdiyini bildirib. Onun sözlərinə görə, Azərbaycanın quruda və dənizdə ümumi bərpaolunan enerji potensialı 200 giqavat həcmində qiymətləndirilir. Məhz bu potensiala əsaslanaraq, Azərbaycan Gürcüstan, Rumıniya və Macarıstanla birlikdə Qara dənizin dibi ilə keçəcək kabel layihəsi üzərində çalışır. Bolqarıstan da bu təşəbbüsə qoşulub.**

Hikmət Hacıyev qeyd edib ki, hazırda iki istiqamətdə yaşıl dəhliz üzərində iş aparılır: biri Qara dəniz marşrutu üzrə, digəri isə Türkiyə və Bolqarıstan xətti üzrədir. O əlavə edib ki, COP29 zamanı Azərbaycan Mərkəzi Asiya ölkələri, Qazaxıstan və Özbəkistanla Trans-Xəzər bərpaolunan enerji layihələri üzrə Anlaşma Memorandumu imzalayıb. H.Hacıyev vurğulayıb ki, Avropa İttifaqı yeni enerji mənbələrinə ehtiyac duyur və rəqəmsal keçid fonunda yeni elektrik tutumları tələb olunur. Bu baxımdan, Cənubi Qafqaz və Xəzər bölgəsi Avropa üçün həm coğrafi cəhətdən yaxın, həm də etibarlı tərəfdaşdır.

"Bu parametrləri nəzərə alaraq, yaşıl dəhliz şərq-qərb dəhlizinin yeni və strateji komponenti kimi çıxış edə bilər",- deyə Hikmət Hacıyev bildirib.

***

**Hikmət Hacıyev panel müzakirəsində çıxışı zamanı səsləndirib ki, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinə başlayanda Avropa və Amerika fondları bu layihəyə maliyyə ayırmaqdan imtina etdilər. Biz isə qərara gəldik ki, bu işi öz vəsaitimizlə görəcəyik. Biz bu layihəni həyata keçirdik.**

Prezidentin köməkçisi bildirib ki, bölgədə dayanıqlı ticarət və nəqliyyat əlaqələrinin qurulması üçün əməkdaşlıq və tərəfdaşlıq əsas şərtdir. "Bizim investisiya imkanlarımız var və bölgədəki qardaş və tərəfdaş ölkələrlə sıx əməkdaşlıq edirik",- deyə Hikmət Hacıyev vurğulayıb.

O əlavə edib ki, Azərbaycan bütün əsas nəqliyyat infrastrukturunu Mərkəzi Asiya ölkələri ilə birləşdirib. H.Hacıyev bildirib ki, Azərbaycan, Gürcüstan və Türkiyə birlikdə bölgədə üzərlərinə düşən işi yerinə yetirir və Mərkəzi Asiya ölkələri ilə əlaqələri genişləndirirlər. O, həmçinin qeyd edib ki, Çin və Qırğızıstan hazırda 900 kilometrlik yeni dəmir yolu xətti inşa edirlər və bu infrastruktur Mərkəzi Asiyaya daha qısa marşrutla çıxış imkanı verəcək. Trans-Xəzər vasitəsilə biz bu proseslərin hamısını bir-biri ilə əlaqələndiririk.

"Sualım budur ki, Avropa İttifaqı haradadır? Bəli, siz tərəfdaş kimi bizə qoşula bilərsiniz, amma hələ də Aİ-nin bu məsələdə nə istədiyi tam aydın deyil. Biz hələ də bunu görə bilmirik", - deyə o vurğulayıb.

***

**Prezidentin köməkçisi panel müzakirəsində çıxışı zamanı bildirib ki, Azərbaycan regionda təhlükəsizlik və sabitliyi təmin edib: "Biz regionda tam təhlükəsizlik və sabitlik yaratmışıq. Ermənistan da regional əməkdaşlıq və nəqliyyat bağlantılarının bir hissəsinə çevrilə bilər".**

Hikmət Hacıyev qeyd edib ki, hazırda Ermənistanla da danışıqlar aparılır və Azərbaycanın məqsədi regionda heç kimi təcrid etmək və ya kənarda saxlamaq deyil.

Ermənistanın "Sülh yollarının kəsişməsi" təşəbbüsünə dair suallara cavab verən Hikmət Hacıyev bu yanaşmanı "gecikmiş və natamam" kimi təsvir edib:

"Azərbaycanın əraziləri işğal altında olarkən biz hər zaman bağlantıların yaradılmasını münaqişənin həlli prosesinin tərkib hissəsi kimi vurğulamışıq. İndi isə münaqişə həll olunub. Burada qeyd etməli olduğum vacib məqamlardan biri də Şərq-Qərb dəhlizinin əsas komponentlərindən olan təhlükəsizlik və sabitlikdir. Bu, həm də Azərbaycan Respublikasının regionda tam təhlükəsizlik və sabitlik yaratması ilə bağlı nailiyyətidir. Ermənistan regional dискursların və nəqliyyat bağlantılarının bir hissəsi ola bilər. Biz regionda heç bir təcrid və ya kənarda qalma hallarını görməkdə maraqlı deyilik. Lakin eyni zamanda Ermənistan tərəfdən də müəyyən gözləntilərimiz var. Ermənistan 30 il ərzində Naxçıvanı blokadada saxlayıb. İndi biz Ermənistanın ilk vacib addımı ataraq Zəngəzur dəhlizi ilə bağlı iş görməsini gözləyirik. Ermənistan ərazisindən keçən bağlantılarla bağlı isə qeyd etmək istəyirəm ki, Ermənistan onun iqtisadi baxımdan nə dərəcədə səmərəli olduğunu sübut etməlidir. Azərbaycan artıq öz bağlantılarını qurub. İndi isə Ermənistan göstərməlidir ki, onun əraziləri üzərindən keçən marşrut iqtisadi baxımdan nə qədər rentabellidir. Sevindirici haldır ki, biz Ermənistanla ikitərəfli kanallar vasitəsilə sülh sazişi, sərhədlərin delimitasiyası və digər məsələlər üzrə işləyirik. Sülh sazişi üzrə mətn razılaşdırılıb. Hələ də açıq qalan məsələlər var, lakin bu istiqamətdə işlər davam etdirilir", - deyə o qeyd edib.

Hikmət Hacıyev, həmçinin Azərbaycanın irəli sürdüyü "3+3" regional əməkdaşlıq təşəbbüsünə toxunaraq ölkəmizin davamlı sülhə sadiqliyini bir daha vurğulayıb.

Digər panel iştirakçıları da Orta Dəhlizin geosiyasi və geoiqtisadi rolu barədə fikirlərini bölüşüblər.

Xatırladaq ki, GLOBSEC 2025 Avropanın xarici siyasət və təhlükəsizlik sahəsində liderlərini, dövlət başçılarını, sahibkarları, beynəlxalq təşkilatların, beyin mərkəzlərinin və akademik dairələrin nümayəndələrini bir araya gətirən illik forumdur.

***XQ***

# Azərbaycan–Gürcüstan: iqtisadi əməkdaşlıq və strateji tərəfdaşlıq



**Beynəlxalq münasibətlər sistemində enerji təhlükəsizliyi məsələsinin prioritet istiqamətlərdən birinə çevrildiyi hər kəsə məlumdur. Qlobal enerji bazarlarında baş verən təlatümlər, xüsusilə Rusiya–Ukrayna müharibəsi fonunda Avropa İttifaqının enerji tədarükçülərini şaxələndirməyə yönəlmiş siyasəti və yaşıl enerji keçidi planları region ölkələrinin geoiqtisadi əhəmiyyətini nəzərəçarpacaq dərəcədə artırıb.**

Bu kontekstdə Azərbaycan və Gürcüstan enerji və nəqliyyat sahələrində Aİ ilə əməkdaşlığı dərinləşdirərək, Cənubi Qafqazın əsas strateji aktorları kimi ön plana çıxıblar. Azərbaycanın enerji ixracatçısı, Gürcüstanın isə tranzit ölkə kimi artan rolu onların beynəlxalq siyasi və iqtisadi çəkisini daha da möhkəmləndirir. İki qonşu ölkənin ortaq layihələrdə fəal iştirakı regional sabitlik və əməkdaşlığın möhkəmlənməsinə, Avropanın enerji təhlükəsizliyinin tərninə mühüm töhfələr verir. Strateji tərəfdaşlığa söykənən bu əməkdaşlıq modeli həm geoiqtisadi rasionallığın, həm də siyasi uzaqgörənliyin sintezidir.

Bugünlərdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyevin Gürcüstan parlamentinin İqtisadiyyat və iqtisadi siyasət komitəsinin sədri Şota Berekaşvili ilə görüşündə iqtisadi əməkdaşlıq məsələləri müzakirə edilib. Səfir iki ölkə arasında strateji tərəfdaşlığın son illərdə daha da dərinləşdiyini vurğulayıb və perspektiv layihələr barədə məlumat verib. Tərəflər Azərbaycanın Aİ-nin enerji təhlükəsizliyində artan rolu və Gürcüstanın tranzit ölkə kimi yüksələn mövqeyini xüsusi qeyd ediblər.

Ş.Berekaşvili energetika, nəqliyyat, informasiya texnologiyaları, təhsil, inşaat və turizm sahələrində əməkdaşlığın genişləndirilməsinin vacibliyini bildirib: “Bu istiqamətdə Azərbaycan kapitallı şirkətlər üçün Gürcüstanda yeni imkanlar mövcuddur”.

Görüşdə, həmçinin parlamentlərarası əlaqələrin intensivləşdirilməsi və ortaq layihələrin bölgənin inkişafına verə biləcəyi töhfələr müzakirə olunub. Bildirilib ki, 1994-cü ildə imzalanmış “Əsrin müqaviləsi” ilə başlanan enerji əməkdaşlığı bu gün Cənub Qaz Dəhlizi, TANAP və TAP kimi beynəlxalq layihələrlə davam edir.

***

2022-ci ildə imzalanmış “Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu” iki ölkə arasında əməkdaşlığı daha da gücləndirib. Azərbaycan qazının ixrac həcminin artırılması, yaşıl enerjiyə keçid və elektrik enerjisi ixracını nəzərdə tutan təşəbbüslər ölkəmizin regional çəkisini artırır. Gürcüstan bu proseslərdə əsas tranzit və logistika qovşağı rolunu oynayır. Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum kimi layihələr Gürcüstan ərazisindən keçməklə Azərbaycanın enerji resurslarının Qərb bazarlarına çıxışını təmin edir. Bu amil Gürcüstanı təkcə tranzit ölkəyə deyil, eyni zamanda Avrasiya geoiqtisadi sisteminin fəal iştirakçısına çevirir.

2023-cü ildə Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan və Gürcüstan, Ruminiya, Macarıstan, Avropa Komissiyasının da dəstəklədiyi Qara Dəniz Yaşıl Enerji Dəhlizi layihəsi iki ölkənin əməkdaşlığının yeni mərhələsini müəyyənləşdirdi. Bu layihə texnoloji və iqtisadi əhəmiyyəti ilə yanaşı, siyasi məna da daşıyır. Cənubi Qafqaz artıq alternativ enerji marşrutları təqdim edən və Avropa ilə əlaqələri möhkəmləndirən regional gücə çevrilib. Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi ilə regionun əsas nəqliyyat qovşaqlarından birinə çevrilmiş Gürcüstan Orta Dəhliz boyunca Çin, Mərkəzi Asiya, Azərbaycan, Türkiyə və Avropa arasında yüklərin daha sürətli və effektiv daşınmasına imkan verir. Bundan əlavə, Gürcüstan yaşıl enerji infrastrukturunda da əsas tərəfdaşlardan biridir. 2023-cü ildə imzalanmış “Qara Dəniz Elektrik Kabeli” layihəsi çərçivəsində Xəzər sahilində, o cümlədən Azərbaycanda istehsal olunacaq bərpa olunan enerji Gürcüstan vasitəsilə Avropaya ötürüləcək.

Təqdirəlayiq haldır ki, iki ölkə arasında ticarət dövriyyəsi artmaqdadır. Bu ilin ilk iki ayında dövriyyə 213 milyon manatı keçib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2 faiz çoxdur. Tərəflər gələcəkdə bu göstəricinin daha da artırılması üçün səylərini davam etdirir. Eyni zamanda, Azərbaycandan Gürcüstana birbaşa investisiyaların həcmi artır. 2024-cü ilin birinci rübündə bu göstərici 70,7 milyon ABŞ dolları təşkil edib. Gürcüstanda bir çox Azərbaycan şirkəti fəaliyyət göstərir və investisiya axını qarşılıqlı iqtisadi asılılığı dərinləşdirir. Strateji tərəfdaşlıq bölgədə sülh və sabitliyin qorunmasına əhəmiyyətli dərəcədə töhfə verir. İqtisadi artımın davam etməsi üçün təhlükəsizlik və qarşılıqlı etimad əsas meyarlardır. Azərbaycan və Gürcüstanın ortaq təşəbbüsləri regional rifah və strateji müstəqillik üçün vacib model formalaşdırır.

***

Beləliklə, Azərbaycan və Gürcüstanın əməkdaşlığı regional maraqlara əsaslanan və qarşılıqlı gücləndirici sinerji yaradan nümunəvi tərəfdaşlıq modelidir. Hər iki ölkə ayrı-ayrılıqda mühüm rol oynasa da, birlikdə daha geniş geosiyasi və geoiqtisadi təsir gücünə malikdir. Bu birlik yalnız enerji və tranzit sahələrində deyil, hadisələrə strateji baxış, siyasi etimad və uzunmüddətli əməkdaşlıq ruhunda formalaşıb. Onların uğuru iqtisadi mənfəətlə yanaşı, regional sabitlik, strateji müstəqillik və dayanıqlı tərəfdaşlıq modelinə əsaslanır. Bu model yalnız iqtisadi maraqlar deyil, həm də siyasi uzaqgörənlik və qarşılıqlı etimada əsaslanır. Deməli, müasir dövrdə resurs sahibi olmaq kifayət deyil – bu resursları düzgün yönləndirmək, tərəfdaş seçimini strateji planlama ilə həyata keçirmək və uzunmüddətli əməkdaşlıq qurmaq həlledici əhəmiyyət daşıyır. Məhz bu baxımdan Azərbaycan və Gürcüstanın yaratdığı əməkdaşlıq nümunəsi XXI əsrin çağırışlarına verilən rasional və humanist cavabdır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Kürdəmir Prokurorluğunda seminar



**Kürdəmir Rayon Prokurorluğunda “Milli Suverenlik və Hüquqi Təminatlar: Prokurorluğun rolu” mövzusunda seminar təşkil olunub. Tədbirdə 12 regiondan prokurorluq əməkdaşları, qeyri-hökumət təşkilatlarının nümayəndələri və media təmsilçiləri iştirak ediblər.**

Kürdəmir rayon prokuroru Tural İbrahimov bildirib ki, Azərbaycan Konstitusiyası dövlət suverenliyinin möhkəmləndirilməsi və hüquq sisteminin inkişafı üçün əsas hüquqi sənəddir. O vurğulayıb ki, ulu öndər Heydər Əliyev bu sənədin hazırlanması və qəbulunda böyük rol oynayıb.

Baş Prokurorluğun Mətbuat Xidmətinin böyük prokuroru Kənan Zeynalov çıxışında bildirib ki, Konstitusiyada təsbit olunmuş suverenlik prinsipləri prokurorluğun fəaliyyətinin əsasını təşkil edir. O, dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın davamlı diqqət və qayğısı nəticəsində suveren ölkəmizin bütün bölgələrində, xüsusilə işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı abadlıq və quruculuq işlərinin uğurla həyata keçirildiyini vurğulayıb.

Tədbirdə hüquqi dövlətin möhkəmləndirilməsi və vətəndaş hüquqlarının müdafiəsi ilə bağlı aktual məsələlər müzakirə olunub, çıxışçılar prokurorluğun qarşısında duran əsas vəzifələr barədə fikirlərini bölüşüblər.

***XQ***

# Azərbaycanın hərbi gəmiləri “Xəzri-2025” birgə taktiki təlimində



**Azərbaycan və Qazaxıstan respublikalarının Müdafiə nazirlikləri arasında 2025-ci il üçün imzalanmış birgə fəaliyyət planına əsasən, hər iki ölkənin Hərbi Dəniz Qüvvələrinin (HDQ) gəmilərinin və hərbi qulluqçularının iştirakı ilə keçiriləcək "Xəzri-2025" birgə taktiki təlimi üçün Azərbaycan HDQ-nin gəmiləri və şəxsi heyəti Bakıdan yola düşüb.**

Müdafiə Nazirliyi bildirib ki, Xəzər dənizinin Qazaxıstan Respublikasına məxsus ərazi sektorunda keçiriləcək birgə taktiki təlimin məqsədi Azərbaycan və Qazaxıstan hərbi dənizçilərinin peşəkarlıqlarının daha da artırılması və qarşılıqlı təcrübə mübadiləsinin aparılmasıdır.

***XQ***

# Vəkil, yoxsa araqarışdıran?

## *Cared Qenserin gerçək missiyası nədir?*

**Keçmiş qondarma “dqr” rejiminin “dövlət naziri” olmuş, hazırda Bakı Hərbi Məhkəməsində Cinayət Məcəlləsinin terrorçuluq, terrorçuluğun maliyyələşdirilməsi, Azərbaycan dövlətinə və xalqına qarşı sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər çoxsaylı cinayətlərin törədilməsi maddələri üzrə mühakimə olunan Ruben Vardanyanın “hüquqi məsələlər üzrə beynəlxalq məsləhətçisi”, amerikalı hüquq müdafiəçisi Cared Qenser “Sputnik Ermənistan”a açıqlama verib.**

“APRI Armenia” forumunun keçirildiyi məkanda verdiyi açıqlamada Qenser iddia edib ki, Bakıda keçirilən məhkəmə prosesi, guya, beynəlxalq hüquq prinsiplərinə ziddir. O, öz fikirlərini bununla “əsaslandırmağa” çalışıb ki, birincisi, mülki şəxslərin (?) işinə hərbi məhkəmə baxır. Vəkil ümumi “xor”a qoşularaq mühakimə olunanları “siyasi məhbuslar” adlandırmaqdan çəkinməyib və bunun “qanunsuz” olduğunu bildirib. Qenser konkret cinayət əməlləri törətməkdə ittiham olunan şəxslərin işini siyasiləşdirməyə çalışıb və bütün ittihamların siyasi motivli olduğunu, məhkəmənin “çoxsaylı prosessual pozuntularla” (?) keçirildiyini deyib.

Qeyd edək ki, C.Qenser özünü dünyaya “siyasi məhbusların vəkili” kimi sırımağa çalışır. Əslində isə onun fəaliyyəti bir çox hallarda hüququn müdafiəsi deyil, seçmə kampaniyalarla ictimai rəyə təsir etməyə, dövlətləri təzyiq altına almağa və müəyyən geosiyasi dairələrin maraqlarına xidmət etməyə yönəlib. O, müxtəlif illərdə Venesuela, İran, Çin, Myanma, Belarus və sair ölkələrdə “siyasi məhbus” kimi tanıtdırılan şəxslərin hüquqlarını müdafiə edib. Amma bu müdafiələrin bəziləri, xüsusilə də maliyyə, korrupsiya və separatizm ittihamları ilə üzləşən şəxslərlə bağlı olduqda suallar doğurur. Odur ki, Qenserin hüququn, yoxsa sifarişin vəkili olmasına dair haqlı sual yaranır.

Vəkil Vardanyanla bağlı məsələni də “siyasi məhbus” kontekstində təqdim etməyə çalışır. Yəni, bu məsələdə də eyni yanaşma özünü göstərir. Bu isə həm hüquqi, həm də informasiya baxımından manipulyasiyadır. Qenser onu “siyasi məhbus” kimi qələmə verir, amma unudur ki, Vardanyan Azərbaycanın suveren ərazilərində qanunsuz fəaliyyət göstərib, separatizmi, terrorçuluğu maliyyələşdirib və indi vətəndaşlarımıza qarşı cinayətlərdə ittiham olunur. Ən azı, beynəlxalq hüquq baxımından, Azərbaycanın öz ərazisində qanunun aliliyini təmin etməsi, separatçılıqla mübarizə aparması suveren hüquqdur. Burada hansı siyasətdən, hansı siyasi məhbusdan danışmaq olar?




Qenserin adı bir sıra lobbiçilik fəaliyyətlərində də hallanır. Onun vəkillik fəaliyyəti ilə siyasi kampaniyalar arasında sərhədlər bəzən o qədər qarışır ki, insan hüquqları pərdəsi altında siyasi manipulyasiyalar aşkar görünür. ABŞ-dakı bəzi “beyin mərkəzləri” onun müəyyən hallarda hökumətlərə və transmilli şirkətlərə qarşı nüfuzlu təzyiq aləti kimi istifadə olunduğunu bildirirlər. Biz isə Qenserin timsalında hüququn, necə deyərlər, selektiv istifadə olunmasına dair nümunənin şahidi oluruq. O, geosiyasi proseslərə yön vermək üçün hüquqdan alət kimi istifadə edir. Bu isə artıq vəkillik etmək yox, siyasi alverlə məşğul olmaqdır.

***

Onun Bakıda keçirilən məhkəmə prosesinin, guya, beynəlxalq hüquqa zidd olmasına dair fikirləri qərəzli və məqsədli siyasi manipulyasiyadır. Ölkə ərazisində törədilən ağır cinayət əməllərinə görə məsuliyyətə cəlb olunan şəxslərin işi tam qanuni, legitim və beynəlxalq hüquq çərçivəsində həyata keçirilir. Hərbi məhkəmənin bu işlərə baxması həmin şəxslərin silahlı birləşmələrdə iştirakını və hərbi xarakterli cinayətlər törətməsini nəzərə alaraq hüquqi əsaslara dayanır. Mühakimə olunan şəxslərin bir qismi, məsələn, Levon Mnatsakanyan, David Manukyan Ermənistan ordusunun yüksək rütbəli hərbçiləri, digərləri isə hərbi-siyasi vəzifə daşıyan şəxslər olublar. Ümumilikdə, mühakimə edilənlərin hamısı Azərbaycana qarşı birinci və ikinci Qarabağ müharibələrində, şərti olaraq “Aprel döyüşləri” adlanan hadisələrdə bu və ya digər formada iştirak ediblər. Bu baxımdan, Qenserin mühakimə olunanları “siyasi məhbus” adlandırması həm hüquqi baxımdan əsassızdır, həm də separatizmi və terroru himayə edən mövqedir. Onun “prosessual pozuntu” iddiaları konkret dəlillərlə əsaslandırılmır və sadəcə, ictimai rəyə təsir etməyə yönəlib. Bu yanaşma hüququn müdafiəsi yox, siyasi müstəvidə Azərbaycanın apardığı ədalətli hüquqi prosesə kölgə salmağa cəhddir.

Onu da bildirək ki, C.Qanser təxribatçı addım ataraq Ermənistan hökumətini mühakimə olunan şəxslərlə bağlı prosesə cəlb etməyə çalışb. Deyib ki, Ermənistan hakimiyyəti, heç olmasa, mühakimə olunanlar barədə danışmalı, Bakıdan verilən bəyanatlara baxmayaraq, onların azad edilməsinin və İrəvana qaytarılması üçün vasitələr axtarılmasının hökumətin prioritet vəzifəsi olduğunu bildirməlidir. Onun məsələni dini müstəviyə çəkmək cəhdləri də diqqətdən yayına bilməz: “Baş nazir Paşinyandan xahiş edirəm ki, ABŞ-ın erməni xristian “hərbi əsirləri” azad etmək səylərini (?) açıq şəkildə dəstəkləsin və bu məsələnin Azərbaycanla müzakirə oluna biləcəyi barədə passiv bəyanatlarla məhdudlaşmasın”.

Başabəla vəkilin Ermənistan hökumətini Azərbaycanda mühakimə olunan separatçılarla bağlı prosesə cəlb etməyə yönəlmiş çağırışı açıq-aşkar təxribat xarakteri daşıyır. Bu, həm Azərbaycanın daxili işlərinə müdaxilə cəhdi, həm də məhkəmə prosesini siyasiləşdirmək üçün göstərilən növbəti uğursuz təşəbbüsdür. Qenser, guya, “erməni hərbi əsirlərin” hüquqlarından danışsa da, əslində, konkret cinayət əməllərinə görə təqsirləndirilən şəxsləri müdafiə edir və hüquqi məsuliyyəti milli kimlik və dini mənsubiyyət pərdəsi altında gizlətməyə çalışır. Onun Ermənistan hakimiyyətindən bu şəxslərin azad edilməsi üçün addımlar atmağı istəməsi, hüquqi yox, siyasi xarakterli çağırışdır. Bu yanaşma hüququn prinsiplərinə deyil, xristian həmrəyliyi amilinə söykənir və məsələni dini zəmində təqdim etməklə beynəlxalq ictimaiyyəti çaşdırmağa hesablanıb.

Məhkəmə qarşısında cavab verən şəxslər qanunsuz silahlı dəstələrin üzvləri, bəziləri isə konkret müharibə cinayətlərində ittiham olunanlardır. Onların “hərbi əsir” kimi təqdim olunması həm beynəlxalq humanitar hüquqa, həm də faktlara ziddir. Qenserin mövqeyi Ermənistanı təhrik edərək regionda sülh gündəliyinə zərbə vurmaq məqsədi daşıyır. Azərbaycanın müstəqil məhkəmə sistemi daxili qanunvericiliyə və beynəlxalq hüquqa uyğun şəkildə fəaliyyət göstərir. Bu prosesə istənilən formada siyasi və dini çalarlar qatmaq cəhdi qəbuledilməzdir. Qenserin çıxışı hüququn yox, revanşizmin və ideoloji qərəzin ifadəsi kimi səslənir.

Eyni zamanda, onun ABŞ hökumətinin adından danışırmış kimi çıxış etməsi diplomatik və hüquqi baxımdan qeyri-ciddi və məsuliyyətsiz yanaşmadır. ABŞ-ın rəsmi mövqeyini şəxsi kampaniya maraqları ilə qarışdırmaq həm ictimai rəyi çaşdırmağa, həm də regional sabitliyə zərbə vurmağa hesablanmış addımdır. Hüquqi prosesə dini və milli etnik çalarlar qataraq “erməni xristian hərbi əsirlər”dən” danışmaq isə açıq-aşkar siyasi təxribat və məqsədli dezinformasiyadır.

***S.HƏMİD***
***XQ***

# Paşinyan və kilsə, yaxud Napoleon və VII Piy

## Tarix təkrarlanacaq, yoxsa...

**Paris, Notr-Dam Kilsəsi, 2 dekabr 1804-cü il. Həmin gün Napoleon Bonapart Fransa imperatoru kimi rəsmən təsdiqlənməli idi və təsdiqləndi də. Amma mərasim fərqli ab-havada keçdi. Baxmayaraq ki, Papa VII Piy özünü Napoleonun başına səltənət tacını qoymağa hazırlamışdı. Ənənə var idi. Özü də təkcə Fransada yox, bütövlükdə Qərbi Avropada.**

Adətə görə, taxta çıxan hökmdarları papalar taclandırırdı. Napoleon isə həmin mərasim zamanı heç kimin gözləmədiyi addımı atdı. O, tacı VII Piyin əlindən alaraq öz başına qoydu və bu jestlə bildirdi ki, imperatorluq gücünü Tanrıdan deyil, öz iradəsindən alır. Napoleon hərəkəti ilə kilsənin yox, öz hakimiyyətinin üstünlüyünü qəbul etdiyini vurğulamış oldu. İmperatorun Papa tərəfindən ona hökmranlıq haqqı verilməsini rədd etməsi mütləq güc iddiasının və kilsədən müstəqilliyin simvolu, orta əsr Avropa ənənələrinə qarşı çıxmaq, sekulyar dövlət hakimiyyətini önə çəkmək cəhdi kimi dəyərləndirilir.

Bu kiçik tarixi arayışı təsadüfən diqqətə çatdırmadıq. Hesab edirik ki, indiki Ermənistanla XIX əsrin əvvəllərindəki Fransa arasında müəyyən oxşarlıq var. Əlbəttə, məqsədimiz baş nazir Nikol Paşinyanla Napoleon Bonapart arasında paralellər aparmaq deyil. Məqsədimiz din amilinin Ermənistandakı dövlət aparatında oynadığı rolu vurğulamaqdır. Axı böyük ölçüdə "erməni dövləti" deyilən anlayış kilsədən qaynaqlanır və bunun tarixi kökləri var. Kilsə "hay varlığı" üçün həmişə birləşdirici funksiya yerinə yetirib. Məsələn, keşişlər erməni terror təşkilatlarının fəaliyyətini nizamlayıblar, bütün məkrli planlar kilsədə hazırlanıb və sair.

Bəli, müstəqillik dövrü Ermənistanında dövlət prinsipi etibarilə olmayıb. Ölkə xarici direktivlər əsasında idarə olunub. Hansı "xaric"in olduğu hər kəsə yaxşı bəllidir. Paşinyanın hakimiyyətə yiyələnməsi ilə dəyişən "xaric" hansıdır – bunu da bilirik. Mahiyyət isə ondadır ki, Ermənistanda dövlət aparatı və dövlətçilik düşüncəsi, obrazlı desək, hələ də kilsənin arxasınca sürünür. Görünür, Nikol qolunu durumu dəyişmək üçün çırmayıb. Son vaxtlar Ermənistanda hakimiyyətin Erməni Apostol Kilsəsinə (EAK) qarşı təzyiqlərinin kəskin şəkildə artması bu qənaəti söyləməyə əsas verir. Erməni rəsmilərinin bəyanatlarının məzmunu və ardıcıllığı başladılan kampaniyanın əsl motivlərini aydınlaşdırır. Elə əks tərəfin fikirləri də yekun qənaətə gəlməyə əsas verir. Qənaət barədə sonda söz açacağıq. Hələlik bəzi məqamların üzərində dayanaq.



### Erməni iqtidarının arqumentləri

Ermənistanda anti-kilsə ritorikasının əsas məzmununa diqqət yetirsək, ilk olaraq baş nazir Nikol Paşinyanın fəallığı vurğulanmalıdır. Onun üzərində dayandığı başlıca məqam budur: "Ermənistan Respublikası bütün ermənilərin katolikosunun seçilməsində həlledici söz sahibinə malik olmalıdır. Katolikosluğa namizədlər dürüstlük yoxlamasından keçməlidirlər."

Ancaq Paşinyanın bu dediklərinin Ermənistan Konstitusiyası, eləcə də 2007-ci ildə qəbul edilmiş "Ermənistan Respublikası və Erməni Apostol Kilsəsi arasındakı münasibətlər haqqında" qanun, EAK-ın kanonik hüquqları və din azadlığına dair beynəlxalq standartlarla ziddiyyət təşkil etdiyi bildirilir. Məsələ ondadır ki, Ermənistanda kilsə dövlətdən ayrıdır və bütün dini təşkilatlar qanun qarşısında bərabərdir. Bu isə o deməkdir ki, dövlət dini təşkilatların daxili işlərinə – idarəetmə strukturuna, dini liderlərin seçilməsinə və ibadət qaydalarına qarışa bilməz.

Paşinyanın təklif etdiyi qaydanın tətbiqi isə EAK-ı digər dini qurumlarla hüquqi baxımdan qeyri-bərabər vəziyyətə sala bilər ki, başlıca diqqət bunun yolverilməzliyinə yönəldilir. Çünki qanuna görə, dövlətin katolikosun seçilməsinə müdaxilə hüququ yoxdur. Əksinə, qanun kilsənin müstəqilliyini vurğulayır. Bu səbəbdən dövlətin dini rəhbər seçkilərində iştirak hüququ kilsənin hüquqi müstəqilliyini pozur.

Digər tərəfdən, Paşinyanın təşəbbüsü Ermənistanın beynəlxalq öhdəliklərini də pozur. Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) dəfələrlə qeyd edib ki, dövlət dini liderlərin seçiminə qarışa bilməz, hətta dolayı təzyiq və ya "uyğunluq" yoxlaması belə dini azadlığın pozulması deməkdir (Avropa Konvensiyasının 9-cu maddəsi). O zaman sual yaranır ki...

### Nikol nə istəyir?

Çində tətbiq olunan və xristian kilsələrinə yönəlmiş model burada da fəaliyyətdədir. Ölkədə dövlətə sadiq rəsmi dini strukturlar yaradılır və onlara tabe olmayanlar qeyri-leqal elan olunur. Məsələn, Katoliklərin Vətənpərvər Assosiasiyası var. Təşkilatda işi dövlətin təsdiqlədiyi keşişlər aparırlar. Onlar dövlətin iştirakı ilə seçilir və fəaliyyətləri tam nəzarətdədir. Paşinyanın dedikləri müəyyən mənada Çin modelinə bənzəyir. Yəni dövlət katolikosun seçilməsi və din xadimlərinin fəaliyyət prosesinə nəzarəti prioritet sayır. Başqa sözlə, dövlət tərəfindən təsdiqlənmiş kilsə iyerarxiyası formalaşdırılır, hökumətlə razılaşmayan keşişlər kənarlaşdırılır və nüfuzdan salınır.

Bir sıra ekspertlərin fikrincə, əgər Nikol planını həyata keçirsə, EAK faktiki olaraq iki yerə bölünəcək:

1. Rəsmi kilsə – siyasi rejimə inteqrasiya olunmuş struktur
2. "Alternativ" kilsə – rejimə sadiq olmayan ruhani və inanclı toplum

Baş nazirin mövqeyini heç bir tərəddüd etmədən dəstəkləyənlərdən biri Ermənistan parlamentinin sədri Alen Simonyandır. "Baş nazirin dediyi hər şeylə, hətta vergüllərlə də razıyam və buna görə cavabdehəm", – deyən spiker məsələ ilə bağlı konstitusiyaya dəyişiklik ehtimalını da istisna etməyib. O bildirib ki, bəzi dini qurumlara xüsusi status verilirsə, prosesdə dövlətin müəyyən iştirakı olmalıdır. Simonyanın fikri erməni parlamentinin "Vətəndaş müqaviləsi" fraksiyasının katibi Artur Ovanisyanın səsləndirdiyi təşəbbüsə – EAK-ın maliyyə hesabatlılığının təmin olunmasına işarədir.

Ermənistanın ədliyyə naziri Srbuhi Qaloyan isə jurnalistlərlə söhbətində prosesin hüquqi əsaslandırmasını təqdim edib. O deyib: "Konstitusiya EAK-ın erməni xalqının həyatında xüsusi rolunu tanıyır. Bu norma kilsə ilə münasibətlərin hüquqi tənzimlənməsinə imkan verir. Kilsəyə və ruhani şəxslərə müəyyən güzəştlər verilir. Deməli, dövlət bu münasibətləri qanunvericiliklə tənzimləyə bilər". O əlavə edib ki, "kilsə onsuz da siyasətə qarışır. Əgər siyasətçilərdən şəffaflıq tələb olunursa, eyni yanaşma keşişlərə də tətbiq oluna bilər".

Ermənistanda bu mövzuya dair aparılan müzakirələr belə bir təəssürat yaradır: Əgər EAK digər dini təşkilatlar kimi adi bir qurumdursa, bu məsələlər gündəmdən çıxarılmalıdır. Yox, əgər EAK-ın xüsusi rolu qəbul edilirsə, xalqın da kilsənin idarəçiliyində müəyyən rolu olmalıdır. Yəni kilsə ya tam müstəqil qalmalıdır, ya da dövlətdən dəstək alırsa, o zaman nəzarətə açıq olmalıdır. Ermənistan cəmiyyətində artıq belə bir deyim var: Nikol öz katolikosunun olmasını istəyir.

Ermənistan parlamentində hakim partiya təkbaşına qanun qəbul edə bildiyindən, təşəbbüs reallaşa bilər. Amma bir "əmma" var: dəyişikliklər Ermənistanın həm daxili, həm də beynəlxalq hüquqi öhdəliklərinə zidd olmamalıdır. Məsələn, maliyyə hesabatlılığı yalnız dövlətin ayırdığı vəsaitə aid olmalıdır – daxili ianələrə və kilsə kassasına yox.

Paşinyanın minimum planı EAK-ın siyasətə qarışdığı arqumenti ilə onun fəaliyyətinə dövlət nəzarəti həyata keçirməkdən ibarətdir.

Maksimum plan isə EAK-ı ictimai fikirdə elə nüfuzdan salmaqdır ki, konstitusiyadan onun xüsusi rolu çıxarılsın. Gürcüstan, Ukrayna və Rumıniya kimi ölkələrdə bu model sınaqdan keçib. Nəzərə alaq ki, EAK istər daxildə, istərsə də diasporda geniş şəbəkəyə malikdir. Paşinyan və komandası bu nüfuzdan məhrumdur, ona görə də kilsəni siyasi təhlükə kimi görür. Bu təhlükə xüsusilə aktualdır, çünki Ermənistanda gələn il parlament seçkiləri keçiriləcək. İndiki durumda iqtidara müxalif ən böyük qüvvə isə kilsədir. Deməli, ona "əl gəzdirmək" lazımdır. Hesab edirik ki, Nikolun əsl məqsədi də elə budur.

### Paşinyanın Napoleon aqibəti

Sonda yenidən Napoleonun Papa VII Piyin tacqoymasından imtinası üzərinə qayıdaq. Tarixdən məlumdur ki, birincinin taxtdan salınmasında Papalıq institutunun da rolu olub. Belə ki, Papa VII Piyin anti-Napoleon duruşu Avropa monarxiyalarının və katolik əhalisinin gözündə imperatorun legitimliyinə zərbə vurdu. Nəticədə mühafizəkar və kilsəyə sadiq dövlətlərdə (məsələn, Avstriya, Prussiya) Napoleona qarşı siyasi və hərbi ittifaqlar formalaşdı. 1814-cü ildə Parisin işğalı və Napoleonun Elba adasına sürgün olunması həmin koalisiyanın uğuru idi.

Halbuki 1801-ci ildə Papa ilə konkordat adlı razılaşma imzalanmış, Fransada katolik kilsəsinin hüquqları müəyyən qədər bərpa olunmuşdu. Amma Napoleon 1809-cu ildə Papalığın idarəsində olan Roma bölgəsini işğal etmiş, Papalığı ləğv etmiş, duruma etiraz edən VII Piy isə onu kilsədən kənarlaşdırdığını (excommunication) elan etmişdi. Napoleon isə cavab tədbiri kimi baş keşişi həbsə atmışdı.

Bir sözlə, əlavə şərhə yol vermədən deyək: Paşinyan anti-kilsə ritorikasında ehtiyatlı olmalıdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

---

# Separatçılığa dəstək, sülhə təzyiq

## *İndiana senatının bədnam qətnaməsi böhtan kampaniyasının saxtakarlıq aktıdır*

**Dünyanın müxtəlif yerlərində yaşayıb fəaliyyət göstərən erməni diaspor təşkilatları və lobbisi Ermənistanın Azərbaycanla sülh əldə etməsinə mane olmaqdan əl çəkmək istəmir. ABŞ-dakı ermənilər hər zaman olduğu kimi, indi də bu məsələdə daha çox fəallıq göstərirlər. Onlar Amerika Erməniləri Milli Komitəsi (ANCA) adlanan təşkilatda birləşərək hər vəchlə ənənəvi pozuculuq əməllərini davam etdirməyə çalışırlar. Bugünlərdə ABŞ-ın İndiana ştatı senatının qəbil etdiyi qətnaməyə də bu kontekstdə yanaşmaq lazımdır. Təsadüfi deyil ki, "Armenian Weekly" bununla bağlı ANCA-nın şərq regional bölməsinə istinadən xəbər yayıb.**

Qərəzli olduğu hər cümləsindən aydın görünən kağız parçasında yenə də eyni şüarlar, eyni çağırışlar yer alıb. Yenə də "Artsax"da hansısa "etnik təmizləmə"dən bəhs edilib. Olmayan "etnik təmizləmə"yə görə məsuliyyət (?) Azərbaycanın üzərinə qoyulub. Ştatın senatoru Endi Zeyin təşəbbüsü ilə irəli sürülmüş qətnamədə Azərbaycana qarşı digər böhtanlara da yol verilib. Bildirilib ki, "Artsaxda" erməni xristianların təqibi (?) həyata keçirilib. Qətnamədə ABŞ Konqresində İndiana ştatını təmsil edən nümayəndə heyəti "Azadlığa dəstək aktı"nın 907-ci maddəsinə əsasən hərbi yardım qadağasını tətbiq etməklə Azərbaycana dəstəyi dayandırmağa çağrılıb.

Təbii ki, Azərbaycanın suveren ərazilərində bir sıra ağır cinayət əməlləri törətməkdə təqsirləndirilən şəxslərin Bakı Hərbi Məhkəməsində mühakimə olunmaları da qətnamədə yaddan çıxmayıb. 23 nəfərin "qeyri-qanuni saxlanıldığı" iddia olunur, onlar "hərbi əsir və siyasi məhbus" adlandırılır, ABŞ-ın qanunverici və icraedici hakimiyyətindən onların dərhal və qeyd-şərtsiz azad edilməsinə nail olmaq tələb edilib. Eyni zamanda, "Artsax" ermənilərinin "təhlükəsiz və zəmanətli müdafiə şəraitində öz evlərinə qayıtmaq kimi fundamental hüququ" təsdiqlənib. Senator Zey bir qədər də irəli gedərək xristian təəssübkeşliyindən çıxış edib və "Artsaxın xristian erməni əhalisinin zorla qovulduğu" kimi ağır ittihamlar səsləndirib.

Qətnamədə Azərbaycanın, guya, "erməni mədəni irsinə qarşı sistemli şəkildə hücum etdiyi" iddia olunur ki, bu da tamamilə əsassız və təhrif olunmuş məlumatlara söykənir. Bu kimi sənədlərin qəbulu Ermənistanla Azərbaycan arasında yaranmış müsbət dinamikanı pozmağa yönəlmiş məqsədli addımlardır. ANCA və onun müttəfiqləri bu yolla ABŞ ictimaiyyətində yanlış təsəvvür formalaşdırmağa, diplomatik balansı Ermənistanın xeyrinə dəyişməyə çalışırlar. Halbuki, gerçəklik tam əksini göstərir. Azərbaycan bölgədə dayanıqlı sülh və əməkdaşlıq naminə konkret addımlar atır. Ermənistan isə bu cür təşviqat alətləri vasitəsilə məsuliyyətdən yayınmağa və status-kvonu saxlamağa çalışır. ABŞ kimi nüfuzlu ölkənin bəzi dairələrinin bu manipulyativ fəaliyyətlərə alət olması isə regionda sabitliyə xidmət etmir.



Bu qətnamə bir daha sübut edir ki, erməni lobbisinin dezinformasiyaya əsaslanan fəaliyyəti hələ də bəzi Qərb dairələrini təsiri altında saxlamaqdadır. "Etnik təmizləmə" kimi ağır ittihamların əsassız şəkildə Azərbaycanın üzərinə qoyulması beynəlxalq hüquq və obyektivlik prinsipinə tamamilə ziddir. Halbuki, 2023-cü ilin payızında Qarabağda keçirilən lokal antiterror tədbirlərindən sonra bölgəni könüllü tərk edən ermənilər bu qərarı Ermənistan rəhbərliyinin təxribatçı ritorikasının nəticəsi olaraq qəbul ediblər. Azərbaycanın bölgədə yaşayan ermənilərə qarşı nə dini, nə də etnik zəmində ayrı-seçkilik etdiyinə dair beynəlxalq təşkilatlar da hər hansı təsdiqedici fakt ortaya qoymayıb. Senator Endi Zeyin bu təşəbbüsü isə açıq şəkildə erməni diaspor təşkilatlarının təsiri altında atılmış, birtərəfli və qərəzli bir addımdır. Qətnamədəki digər böhtanlar da sübut edir ki, məqsəd reallığı əks etdirmək yox, ictimai rəy yaratmaqdır. Azərbaycanın, guya, xristianlara qarşı təzyiq göstərməsi iddiası isə dini zəmində qarşıdurma görüntüsü yaradaraq sülh prosesini gözdən salmağa xidmət edir. 907-ci düzəlişə istinadla Bakıya qarşı təzyiqlərin artırılması çağırışı isə ABŞ-ın regiondakı neytrallıq prinsipinə kölgə salır və destruktiv siyasətin təbliğinə səbəb olur.

Qətnamədə Azərbaycanın qanun çərçivəsində həyata keçirdiyi hüquqi proseslərin "qeyri-qanuni saxlanma" kimi təqdim olunması beynəlxalq hüququn əsas prinsiplərinə və dövlətlərin suverenliyinə hörmətsizlikdir. Azərbaycan məhkəmələrinin mühakimə etdiyi şəxslər hərbi əsir deyil, ölkə ərazisində terror və digər cinayət əməlləri törətməkdə təqsirləndirilmələrinə görə məsuliyyətə cəlb olunan fərdlərdir. Onların "siyasi məhbus" kimi təqdim olunması isə məsələnin mahiyyətindən tam uzaq, məqsədli təhrifdir. ABŞ-ın qanunverici və icraedici hakimiyyətindən bu şəxslərin dərhal azad olunmasını tələb etmək hüquqi deyil, siyasi motivli çağırışdır. Bu, bir tərəfdən də Azərbaycan məhkəmələrinin legitimliyinə kölgə salmağa, beynəlxalq ictimaiyyətdə yanlış təsəvvür yaratmağa hesablanıb. Digər tərəfdən, "Artsax" ermənilərinin, guya, "fundamental qayıdış hüququ"na istinad edilməsi, münaqişənin artıq bitdiyini və Azərbaycan ərazilərində hər hansı separatçı rejimin mövcud olmadığını bilərəkdən nəzərdən qaçırır.

Senator Zeyin məsələni dini müstəviyə çəkməsi isə xüsusilə təhlükəlidir. Bu, bölgədə etnik və dini qarşıdurmaları alovlandırmaq niyyəti güdən manipulyativ yanaşmadır. Azərbaycan hər zaman ölkə daxilində bütün dinlərə və etnik qruplara tolerant münasibət sərgiləyib, bu istiqamətdə beynəlxalq nümunə hesab olunur. "Xristian ermənilərin zorla qovulması" iddiası isə tarixi reallıqlara, sənədlərə və faktlara söykənməyən populist ritorikadır. Belə qətnamələr, əslində, regionda sülh və sabitlik istəyən tərəflərin deyil, qarşıdurmadan bəhrələnən dairələrin maraqlarına xidmət edir.

Ümumiyyətlə, belə qətnamələr, reallıqdan uzaq siyasi manipulyasiyaların və birtərəfli təsir cəhdlərinin bariz nümunəsidir. Ermənistanla Azərbaycan arasında sülh prosesi məhz bu cür xarici müdaxilələr və diaspor təşkilatlarının pozucu fəaliyyətləri səbəbindən ləngiyir. Azərbaycan isə beynəlxalq hüquqa əsaslanan mövqeyi ilə sülhə sadiq qalmaqda davam edir. ABŞ daxilində sağlam düşüncəli dairələrin bu cür təxribatçı sənədlərə qarşı qəti mövqe sərgiləməsi regional sabitliyin bərpası baxımından mühüm əhəmiyyət daşıyır.

***H.SƏXAVƏT***
***XQ***

### Ekspert rəyi



**Ramiyə MƏMMƏDOVA, politoloq**

– Bu qətnamə birbaşa erməni diaspor və lobbisinin səylərinin nəticəsi kimi ortaya çıxıb. Orada əksini tapan fikirlər başdan-ayağa şər və böhtandan ibarətdir. Mühakimə olunan şəxslər uzun illər Azərbaycanın suveren ərazilərində separatçı rejim qurub ona rəhbərlik ediblər. Bu gün onların mühakimə edilmələri tam qanunidir.

Fikir versək görərik ki, qətnamədə əksini tapan fikirlər son illərdə Ermənistan hökuməti tərəfindən dilə gətirilmir. Amma ANCA üçün hələ də aktualdır. Çünki onlar bu işdən böyük qazanc əldə edirlər. Təşkilat Amerikadakı imkanlı erməniləri bu kimi məsələlər üçün pul ayırmağa təşviq edir. Sonra isə ştatların qanunverici orqanlarında belə qətnamələr qəbul etdirməklə işini bitmiş sayır. Amma bu əsassız iddiaların və qətnamələrin heç bir faydası olmayacaq.

# Qayıdış Qurtuluş çağırışı, Zamanın hökmü idi

**Azərbaycan xalqı üçün 15 İyun Milli Qurtuluş Günü təkcə bir təqvim bayramı deyil, həm də bərpa edilmiş dövlətçiliyin qorunub saxlandığı, xalqın ümidlərinin göyərdiyi, gələcəyə olan ümummilli inamın bərpa olunduğu bir gündür. 1993-cü ilin həmin günündə ümummilli lider Heydər Əliyevin xalqın istəyi və tələbi ilə hakimiyyətə qayıtması müasir Azərbaycan dövlətçiliyinin xilas edildiyi, siyasi xaosdan sabitliyə, vətəndaş qarşıdurmasından milli birliyə doğru taleyüklü bir başlanğıc olmuşdur.**

**Çağdaş siyasi tariximizə, milli dövlət bayramları təqviminə Milli Qurtuluş Günü kimi daxil olmuş həmin tarixin 32-ci ildönümündə bütün bunlar barədə Azərbaycan Respublikası Baş nazirinin keçmiş müavini, görkəmli filosof alim, Bakı Dövlət Universitetinin professoru İzzət Rüstəmovla həmsöhbət olduq. Müsahibimiz o fəlakətli günlərdə ümummilli lider Heydər Əliyevin xalqımızın başı üstünü almış qara buludları Günəş kimi necə parçalayıb, əmin-amanlıq yaratdığını belə xatırladı:**



– 1990-cı illərin əvvəllərində Azərbaycan böyük sınaqlarla üz-üzə idi. Sovet İttifaqının süqutundan sonra müstəqilliyini yenidən bərpa edən Azərbaycan daxili çəkişmələr, hakimiyyət böhranı, iqtisadi tənəzzül və xarici təhdidlər içində çabalayırdı. Qarabağ müharibəsi dərinləşmiş, ölkədə anarxiya və qeyri-sabitlik hökm sürürdü. Bu dönəmdə dövlətin mövcudluğu belə sual altına düşmüşdü.

Məhz belə çətin bir şəraitdə xalqın təkidli tələbi ilə böyük dövlət xadimi Heydər Əliyev 1993-cü ilin iyun ayında Bakıya dəvət olundu və o, iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Sonrakı illərdə xalqın arzusu ilə həmin gün çağdaş tariximizdə Milli Qurtuluş Günü kimi əbədiləşdi. Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkədə sabitlik bərpa olunmağa başladı, siyasi hakimiyyət böhranı aradan qaldırıldı. Vətəndaş qarşıdurmasının qarşısı alındı və dövlət idarəçiliyi sistemli, müdrik bir strategiya ilə inkişaf yoluna qədəm qoydu.



Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar, ölkənin müstəqilliyinin möhkəmləndirilməsi, beynəlxalq aləmdə tanınması, enerji strategiyasının müəyyənləşdirilməsi və Azərbaycanın geosiyasi mövqeyinin gücləndirilməsi bu tarixi xilaskarlığın nə qədər əhəmiyyətli olduğunu bir daha sübut edir. Ulu öndərin uzaqgörən siyasəti nəticəsində Azərbaycan təkcə regionda deyil, dünya miqyasında mühüm tərəfdaş ölkəyə çevrildi.

Milli Qurtuluş Günü həm də xalqla lider arasında yaranan güclü birliyin təcəssümüdür. Heydər Əliyev hər zaman xalqa arxalanırdı, xalq isə ona güvənirdi. Bu qarşılıqlı inam və birlik Azərbaycanı çətinliklərdən çıxararaq inkişaf yoluna yönəltdi. Bu gün də 15 İyun gerçəyi bizə göstərir ki, milli birlik, sabitlik və güclü liderlik xalqın taleyində nə qədər mühüm rol oynayır. Bu tarix həm də Vətənə sevgi, dövlətə sədaqət dərsidir və sübut erdir ki, xalqın iradəsi ilə hər bir çətinliyi aşmaq mümkündür.

**– Qısaca belə demək olar: XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan o günlərdə bu xoşbəxtliyi itirə bilərdi. Ümummilli lider bu təhlükəni dərin zəkası, möhkəm iradəsi və xalqı səfərbər etməsi ilə sovuşdurdu, etibarlı gələcəyə yol açdı.**

– Bəli, 1993-cü ilin iyun ayında xalqla iqtidar arasında yaranmış dərin uçurum nəticəsində vəziyyət tamamilə nəzarətdən çıxmışdı. Həmin dövrdə baş verən proseslər vətəndaş müharibəsi təhlükəsini real müstəviyə daşıdı və ölkənin həm siyasi sabitliyini, həm də coğrafi bütövlüyünü ciddi şəkildə təhdid etmişdi. Xaos və anarxiya Azərbaycan Respublikasının müxtəlif bölgələrinə yayılmış, qanunsuz silahlı dəstələr və yerli komandirlər mərkəzi hakimiyyətin göstərişlərinə tabe olmaqdan imtina etmişdilər.

1991-ci ildən başlayan və 1993-cü ilə qədər davam edən bu mərhələnin ilk illərində ölkəyə rəhbərlik edən şəxslər dövlət idarəçiliyi təcrübəsindən uzaq, siyasi baxışları qeyri-müəyyən və qərarsız insanlar idi. Onlar nəinki ölkədəki mürəkkəb geosiyasi vəziyyəti düzgün qiymətləndirə həm də xalqın ümidlərini doğrulda bilmirdilər. Rəhbərlikdə olan bu şəxslərin avantürist qərarları, davamlı siyasi eksperimentlərə meyilləri və populist yanaşmaları nəticəsində dövlət institutları zəifləyir, xalqın dövlətə inamı sürətlə azalırdı.

Siyasi rəhbərliyin strateji düşüncə qabiliyyətindən məhrum olması, cəmiyyətin ehtiyaclarına və təhlükəsizlik tələblərinə cavab verə bilməməsi, ölkəni dərin böhrana sürüklədi. Hətta dövlət müstəqilliyinin itirilməsi təhlükəsi belə real görünürdü. Beləliklə, 1991-1993-cü illər Azərbaycanın müasir tarixində ağır və dərsverici bir mərhələ kimi yadda qaldı. Eyni zamanda, bu dövr, ölkəyə əsl liderlik xüsusiyyətlərinə malik, xalqın etimadını qazanan, təcrübəli və milli maraqlara sadiq bir rəhbərliyin nə qədər vacib olduğunu aydın şəkildə nümayiş etdirdi.

Ümummilli lider Heydər Əliyev sonralar müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi". Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı.

**– Belə bir vaxtda Heydər Əliyev siyasi Olimpə misilsiz xilaskar, siyasi qəhrəman kimi qayıtdı...**

– Ən dəhşətlisi o idi ki, yenicə bərpa edilmiş dövlətçiliyin taleyi sual altına düşmüş, vətəndaşlar arasında çaşqınlıq yaranmışdı. Bu şəraitdə xalq, yalnız təcrübəsi, siyasi iradəsi və rəhbərlik qabiliyyəti ilə tanınan bir liderin ölkəni bu çıxılmaz vəziyyətdən xilas edə biləcəyinə inanırdı.

Məhz belə bir tarixi məqamda ümummilli lider Heydər Əliyevin nəhəng şəxsiyyəti ön plana çıxdı. O, uzun illər ərzində dövlət idarəçiliyində qazandığı zəngin təcrübə, uzaqgörənliyi və xalqla olan sarsılmaz bağları ilə artıq çoxdan cəmiyyətin etimadını qazanmışdı. Xalqın müxtəlif təbəqələri – ziyalılar, gənclər, iş adamları, sadə vətəndaşlar onu Azərbaycanı nicat yoluna çıxara biləcək yeganə lider kimi görürdü. Bu, yalnız siyasi dəstək deyil, eyni zamanda, günün gur çağırışı idi.

1993-cü il iyunun 9-da Heydər Əliyevin Bakıya qayıdışı, məhz bu çağırışa cavab idi. Onun paytaxta dönüşü Azərbaycan tarixində yeni bir mərhələnin başlanğıcı oldu. Həmin gün ölkə həyatında dönüş nöqtəsinə çevrildi. Çünki onun qayıdışı ilə birlikdə tənəzzülə doğru gedən proseslər tədricən dayandı, sabitlik və idarəolunma bərpa olunmağa başladı. Dövlət quruculuğuna və milli birliyə yönəlik addımlar atıldı.

Heydər Əliyev qısa müddət ərzində ölkədə sabitliyi bərpa etməyə nail oldu, xarici siyasətdə balanslı mövqe tutaraq Azərbaycanın beynəlxalq nüfuzunu artırdı. Eyni zamanda, ordu quruculuğu sahəsində ciddi islahatlar aparıldı, iqtisadiyyatın bərpası və sosial rifahın yüksəldilməsi istiqamətində mühüm tədbirlər həyata keçirildi. Onun rəhbərliyi altında Azərbaycan dövləti tədricən müstəqil, güclü və dayanıqlı bir istiqamətə yönəldi. 1993-cü il iyunun 15-i təkcə siyasi liderin hakimiyyətə qayıdışı deyil, həm də Azərbaycanın tarixində yeni bir dövrün başlanğıcı oldu.

Məhz bu səbəbdən 15 iyun xalqımızın tarixi yaddaşında Milli Qurtuluş Günü kimi özünə yer qazandı və 1997-ci ildən etibarən Milli Məclisin qərarı ilə rəsmi bayram kimi qeyd olunur. Bu gün biz həmin tarixi haqlı olaraq, ümumxalq bayramı kimi yad edirik.

**– Sonrakı illərdə Prezident Heydər Əliyevin təqdimatı ilə 5 il Baş nazirin müavini işləmisiniz, müstəqil dövlətin ən ağrılı problemlərindən olan qaçqın-köçkünlük məsələləri ilə həm də I Qarabağ savaşında övlad qurban vermiş ata kimi böyük məsuliyyətlə məşğul olmusunuz.**

– Dünyada heç nə asanlıqla əldə olunmur. Mən Azərbaycanın ən füsunkar bölgələrindən biri olan Gədəbəyin Düz Rəsullu kəndində dünyaya göz açmışam və ağlım kəsəndən zəhmətkeş, əməksevər adamlar görmüşəm. Ümumiyyətlə, dağ adamları arı kimi çalışqan olurlar. Görünür, elə uşaqlıq illərində əxz elədiyim bu əməksevərlik, halallıq o vaxtdan canıma, qanıma hopub.

Xoşbəxtəm ki, Ulu öndər bunları gördü və məni Baş nazirin müavini təyin edəndə onun dilindən eşitdiyim sözlər mənim üçün yeni həyat fəlsəfəsini ortaya qoydu. 1994-cü ildə Baş nazirin humanitar işlər üzrə müavini təyin olunmağım mənim üçün gözlənilməz olub. Bununla yanaşı, Heydər Əliyev mənə Beynəlxalq Humanitar Yardım üzrə Dövlət Komissiyasının sədri vəzifəsini də tapşırmışdı. Eyni zamanda, Narkomanlığa və narkobiznesə qarşı mübarizə üzrə Dövlət Komissiyasının sədri vəzifəsini də daşımışam.

Mənim Baş nazirin müavini olduğum dövr, nəinki Azərbaycan xalqının, ümumiyyətlə, Azərbaycan Respublikasının, onun hökumətinin həyatında ən çətin dövr idi. Torpaqlarımız işğal olunmuşdu, bizim 1 milyondan artıq köçkünümüz, yəni işğal olunmuş rayonlarımızdan olan, bir də Ermənistandan qovulan, digər respublikalardan bizə pənah gətirən çoxlu sayda qaçqınımız vardı. Onların içərisində azərbaycanlı da vardı, rus da, Axıska türkü də. Bunları dolandırmaq lazım idi, zəruri vasitələr isə çatışmırdı. Mən deyim ki, o dövrdə aldığım əsas dərs bu oldu ki, mən dara düşən, işğala məruz qalmış insanların ahu-zarına şərik ola bildim, onlara çarə tapa bildim.

**– Romada, Nyu-Yorkda, Londonda, Belçikada, Cenevrədə, Küveytdə, Sudanda, Tehranda, Təbrizdə və s. yerlərdə keçirilən nüfuzlu beynəlxalq tədbirlərdə, BMT-nin müşavirələrində Azərbaycanı uğurla təmsil etmisiniz, ölkəmizin müxtəlif nümayəndə heyətlərinə rəhbərlik etmisiniz.**

– Həmin dövr Azərbaycanın ilk müstəqillik illərinə təsadüf edirdi. Sözün əsl mənasında, Azərbaycan çətinliklər girdabında və informasiya blokadasında idi. Hətta Amerika hökuməti dövlət səviyyəsində Azərbaycana humanitar yardım etməmək barədə qərar vermişdi. Elə yenicə Baş nazirin müavini təyin olunmuşdum ki, 3 gün sonra Romaya göndərildim. Orada BMT-nin Dünya Ərzaq Proqramının iqamətgahı var idi. Onda Azərbaycanın bir həftəlik qida ehtiyatı qalmışdı. Heydər Əliyev təşkil etmişdi, əvvəldən danışmışdı, sonra məni ora göndərdi. Mən də xaricdə belə işlərdə olmamışdım. Elə bir hal idi ki, biz humanitar yardımı Çeçenistan xətti ilə ala bilmirdik, orada müharibə gedirdi. Gürcüstanın nümayəndələri ilə danışmalı idik ki, Poti və digər limanlardan imkan verin, bizə humanitar yardım gəlsin. Yardım Poti-Batumi xətti ilə gəldi.

Mən Romada Dünya Ərzaq Proqramının rəhbərliyi ilə söhbət etdim. Onda məni Xarici İşlər Nazirliyinin nümayəndəsi və Mahmud əl-Səid müşayiət edirdi. Mahmud əl-Səid BMT-nin Azərbaycandakı nümayəndəsi idi, rus dilini gözəl bilirdi. Orada biz yüz min ton taxıl almağa nail olduq. Təbii ki, əsas məsələləri Heydər Əliyev özü əvvəlcədən həll etmişdi, amma qürur hissi keçirirəm ki, həmin məsələlərin icrasına nəzarət etməyi mənə tapşırmışdı.

Açığı, o zaman Azərbaycanın beynəlxalq humanitar yardımlara çox ehtiyacı vardı. Yalnız "Əsrin müqaviləsi"nin reallaşması istiqamətində əməli addımlar atıldıqdan sonra Azərbaycan beynəlxalq aləmdə tədricən tanınmağa başladı. 1998-ci ilin iyununda Nyu-Yorkda BMT-nin sessiyasındakı dəlil-sübutlu çıxışım isə heç vaxt yaddaşımdan silinməyəcək. Sonradan mənə məlumat verdilər ki, mən kürsüdə çıxış edərkən Ermənistan nümayəndə heyəti salonu tərk edib. Mənə bu səlahiyyəti, qətiyyəti və və mübarizə əzmini Heydər Əliyev vermişdi.



**– Heydər Əliyev idarəçilik məktəbi elə budur – xalqının maraqlarını cavablandırmaq, ölkəsinin mövqeyini qəbul etdirmək!**

– Heydər Əliyevin canlı məktəbə çevrilmiş siyasi fəaliyyətinin siyasi çəkisini və dərinliklərini anlamaq üçün mütləq Azərbaycanı, azərbaycançılığı, Azərbaycan dövlətçilik və liderlik ənənəsini duymaq və sevmək gərəkdir. Amma bildiyim və aksiom kimi qəbul etdiyim bir həqiqət var ki, iyunun 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinin sədri seçilməsi zamanın hökmü idi. Həmin gün o bu zərurəti anlayaraq, böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi.

Əgər müstəqilliyin əldə olunması Azərbaycanın dövlətçilik yolunda atdığı ilk və ən önəmli addım idisə, bu nailiyyətin qorunması və möhkəmləndirilməsi daha çətin və zəruri bir mərhələ idi. Bu mürəkkəb dövrdə xalqın taleyində həlledici rol oynayan şəxsiyyət məhz ümummilli lider Heydər Əliyev oldu. Onun siyasi uzaqgörənliyi və qətiyyətli rəhbərliyi nəticəsində dövlətçiliyin əsasları formalaşdı, ictimai-siyasi sabitlik təmin olundu. Ölkədə hökm sürən xaos və qarşıdurmalar mərhələsi sona çatdı, vətəndaş qarşıdurması təhlükəsi aradan qaldırıldı.

Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı ilə Azərbaycan sabitlik və inkişaf yoluna qədəm qoydu. 1993-cü ilin oktyabrında keçirilən prezident seçkilərində xalqın böyük dəstəyi ilə dövlət başçısı seçilən Ulu öndər ölkəni dərin böhrandan çıxararaq müasir və güclü bir dövlətin təməlini qoydu. Bu dönüş nöqtəsi Azərbaycan tarixində yeni bir mərhələnin başlanğıcı oldu.

**– Bu gün milli qurtuluş hərəkatının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında güclü surətdə təzahür edir – o gündən başlanan yol Azərbaycanı köklü problemləri arxada qoymuş bir dövlət kimi böyük gələcəyə aparır.**

– Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycanda yeni bir dövrün əsası qoyuldu. Onun rəhbərliyi altında ölkədə sabitlik bərqərar olundu, sosial-iqtisadi sahələrdə mühüm islahatlar həyata keçirildi, beynəlxalq əlaqələr genişləndirildi və dövlətçiliyin əsasları möhkəmləndirildi. Bu dönüş nöqtəsi Azərbaycanın müasir, hüquqi və dünyəvi dövlət kimi formalaşmasında, eləcə də qlobal ictimaiyyətə inteqrasiyasında əhəmiyyətli rol oynadı.

Heydər Əliyevin zəngin siyasi təcrübəsi və liderlik keyfiyyətləri Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində həlledici rol oynadı. Onun uzaqgörən siyasəti, güclü iradəsi və xarizmatik şəxsiyyəti ölkədə mövcud olan dərin böhranı aradan qaldırmağa imkan verdi. Məhz onun rəhbərliyi ilə xalq milli azərbaycançılıq ideyası ətrafında birləşdi, dövlətçilik ənənələri bərpa edildi.

Ümummilli liderin müdrik qərarları nəticəsində ölkədə sabitlik və əmin-amanlıq bərqərar oldu, cəmiyyətin müxtəlif sahələrində – ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni müstəvidə köklü islahatlar həyata keçirildi. Problemlərin ardıcıl və planlı şəkildə həlli sayəsində Azərbaycan hüquqi, demokratik və dünyəvi dövlət kimi inkişaf yoluna qədəm qoydu. Milli həmrəylik və birlik bərqərar oldu, xalqın gələcəyə inamı möhkəmləndi.

**– İzzət müəllim, həm bir alim və ictimai-siyasi xadim kimi Azərbaycanı məhv olmaqdan qurtaran 15 iyun tarixinin fikirləriniz maraqlı və mötəbərdir. Çünki siz Qurtuluş ideyasının gerçəkləşməsinin məsul iştirakçısı, Ulu öndərin komandasında fəaliyyət göstərmiş yurd sevgili bir ziyalısınız. Belə bir mövqedə 15 iyun şəxsən sizin üçün hansı dəyəri daşıyır?**

– 1993-cü ilin 15 iyun tarixi Azərbaycan xalqının yaddaşına dönüş nöqtəsi kimi həkk olunub. Məhz bu gün, ölkəmizin ağır və təhlükəli bir dönəmdən keçdiyi, dövlətçiliyimizin çökmək təhlükəsi ilə üz-üzə qaldığı bir zamanda Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan öz xilaskarı ilə bir araya gəldi. Onun siyasi iradəsi və uzaqgörənliyi ölkəmizi parçalanmaqdan, müstəqilliyini itirməkdən xilas etdi.

Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi yalnız bir siyasi liderin dönüşü deyildi – bu, Azərbaycanın müstəqil və güclü dövlət kimi yaşamaq şansının yenidən doğulması idi. 15 İyun, sadəcə, bir tarixi hadisə deyil, həm də gələcək uğurların təməlini qoyan mühüm başlanğıcdır. O gündən etibarən dövlət idarəçiliyində sabitlik bərqərar oldu, vətəndaş həmrəyliyi gücləndi və inkişafın əsası qoyuldu.

Azərbaycan xalqı bu günü – 15 İyun Milli Qurtuluş Günü kimi hər il qədirbilənlik və Ulu öndərin ruhuna minnətdarlıq duyğuları ilə yad edir. Xalqın yaddaşında Heydər Əliyev təkcə bir lider kimi yox, həm də dövlətçiliyimizin memarı və müstəqilliyimizin təminatçısı kimi yaşayır. Onun qoyduğu irs bu gün də ölkəmizin inkişaf yoluna işıq tutur.

Ötən 32 ildə əldə olunan bütün uğurların təməlində ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi siyasi xətt və Prezident İlham Əliyevin bu strateji xətti ardıcıl və uğurla həyata keçirməsi dayanır. Son illərdə Azərbaycan mühüm inkişaf mərhələlərindən keçərək müasir və güclü bir dövlətə çevrilib. Bu inkişafın əsasında isə məhz ümummilli liderin qoyduğu möhkəm təməl və düzgün istiqamət dayanır.

Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi milli inkişaf strategiyası bu gün də öz aktuallığını qoruyur və ölkənin tərəqqisinə xidmət edir. Azərbaycanda Heydər Əliyev siyasəti alternativsizdir və bugünkü müstəqil, sabit və dinamik inkişaf edən Azərbaycan o böyük Xilaskarın arzuladığı ölkə modelini əks etdirir.

**– Maraqlı söhbət üçün sağ olun!**

***Müsahibəni apardı:***
***Namiq QƏDİMOĞLU***
***XQ***

# Qurtuluş: Yeni, güclü Azərbaycan strategiyası



II MƏQALƏ

### Güclü dövlətin Azərbaycan nümunəsi

Bu məsələ kifayət qədər ciddi və məsuliyyətli yanaşma tələb edir. Müasir tarixi dönəmdə güclü dövlət quruculuğu ranqından və kateqoriyasından asılı olmayaraq hər bir cəmiyyət üçün aktualdır. F.Fukuyama hətta qlobal nizamın təminində güclü dövlətlərin çoxluq təşkil etməsini başlıca şərtlərdən biri kimi irəli sürmüşdü. Hazırda tədqiqatçılar bu məsələyə daha çox diqqət yetirirlər və onu adətən güclü cəmiyyət quruculuğu ilə qarşılıqlı əlaqədə təhlil edirlər (məs, M.A.Çernış, İ.N.Kuksin, A.D.Kərimov və başqaları).

Ancaq bu məsələ XXI əsrin birinci onilliyindən başlayaraq tədqiqatçıların daha çox marağına səbəb olmuşdur. XX əsrin 80-90-cı illəri və hətta 90-cı illərin sonlarına qədər dünya siyasiləri, geostrateqləri və analitikləri başqa cür düşünürdülər. Onlar sosialist düşərgəsinin dağılması nəticəsində yaşanan eyforiyanın təsiri ilə güclü dövlət anlayışını xüsusi kateqoriya dövlətlərə aid edirdilər. Həmin sırada ənənəvi Qərb imperiyalarını, Rusiyanı, Yaponiyanı, Çini və s. görürdülər. Özü də onların aparıcı qüvvəsinin Qərb olmasını aksiom kimi qəbul edirdilər. Hətta bir sıra hallarda müəyyən dairələr “güclü dövlət” anlayışını daha məhdud dairəyə - Amerika və Avropaya aid edirdilər. Digərləri güclü deyil, güclülərin əmrlərini yerinə yetirən “demokratik və liberal” dövlətlər ola bilərdilər. Bu şərt xüsusilə, SSRİ-nin dağılması ilə meydana gələn yeni müstəqil dövlətlərə aid edilirdi.

Bu cür yanaşma, təəssüf ki, XX əsrin son onilliyində postsovet məkanında müstəqil dövlət quruculuğuna başlayan ölkələrin rəhbərlərinin əksəriyyətini çaşdırdı. Onlar müstəqil dövlət kimi zəruri siyasi, sosial, idarəetmə və hüquqi institutlaşma mərhələsini keçmədən, birbaşa “demokratik və liberal” dövlət qurmağa girişdilər.

Təsəvvür edək ki, ölkənin müstəqil idarə edilməsi üçün lazım olan sistem yoxdur, dövlət identikliyi müəyyən edilməmişdir, müstəqil demokratik idarəetmə təcrübəsi yoxdur, bu proseslərə dəstək verə biləcək toplumsal şüur kifayətedici deyildir və qlobal miqyasda son dərəcə mürəkkəb və ziddiyyətli proseslər müşahidə edilir – bütün bunların fonunda kimsə demokratik və liberal dövlət qurmağa çalışır! Praktiki cəhətdən absurd iddia və məqsəddir.

Məhz belə bir ziddiyyətli məqamda Azərbaycan xalqının dahi lideri Heydər Əliyev siyasi səhnədəki inqilabi gedişi ilə özəl bir nümunənin əsasını yaratdı. Ümummili lider güclü Azərbaycan üçün güclü dövlət qurmağı əsas vəzifə kimi cəmiyyətin qarşısında qoydu! Bu, keçən əsrin 90-cı illərinin əvvəllərində baş verirdi. O dönəmdə ki, F.Fukumaya kimi filosof, politoloq və sosioloq hələ də demokratiyadan və liberalizmin qələbəsindən dəm vururdu (Fukumaya: “tarixin sonu” deyirdi).

Z.Bzejinski, S.Hantinqton, H.Kissincer, J.Nay (kiçik) və digər tanınmış strateqlər də demokratiya və liberalizmi önə çəkirdirlər. Bu kimi yanaşmaların üstünlük təşkil etdiyi və postsovet məkanında Azərbaycanın ətrafında olan dövlətlərin də (Gürcüstan, Ermənistan, Ukrayna, Moldova və b.) onları haqlı saydıqları bir vaxtda Heydər Əliyev fərqli yol seçdi. Sonunda tam haqlı çıxdı.

Bizim üçün bu seçim dövlətçiliyin qurtuluş kontekstində ana xəttini təşkil edir. Böyük lider o kəsdir ki, dövləti elə xilas etsin ki, paralel olaraq o, güclü dövlət ola bilmək kursuna istiqamətlənsin. Burada nəzəri baxımdan qurtuluşla güclü dövlət quruculuğunun real nəticə verə bilən modelini hazırlamaq prinsipial strateji məsələdir. Onu bacaran lider dövləti və milləti qarşısında əvəzolunmaz tarixi missiya yerinə yetirmiş olur. Heydər Əliyev məhz həmin şəxsiyyət-liderdir!

Eyni zamanda, Heydər Əliyevin öncədən “güclü dövlət” anlamı ciddi siyasi, ideoloji, iqtisadi, mədəni əsasları olan mükəmməl sistem kimi mövcud olmuşdur. Bizim üçün qurtuluş kontekstində məsələnin bu aspekti çox əhəmiyyətlidir. Səbəbi onunla bağlıdır ki, güclü dövlət elə model üzrə qurulmalıdır ki, o, uzun müddət üçün qalıcı olsun. Keçici güclü olmağın fəsadları daha ağır olur. Çünki özlərini ənənəvi güclü sayanlar tənəzzül mərhələsinə keçən güclü dövlətləri amansızcasına cəzalandırmağa çalışırlar. Buna görə də “əbədi güclü dövlət” nümunəsi yaradılmalıdır! Ulu öndər bunun öhdəsindən məharətlə gəldi! Azərbaycan Respublikasının hazırkı vəziyyəti bu tezisin başlıca sübut arqumenti, reallığıdır!

Çox əlamətdardır ki, Heydər Əliyevin güclü dövlət quruculuğu ilə bağlı fundamental kəlamları vardır. Onların sırasında bir fikir xüsusi yer tutur. Onu Heydər Əliyevin güclü dövlət-güclü cəmiyyət vəhdəti baxımından strateji xətti saya bilərik!

### “...Ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar”

Heydər Əliyev öyrədirdi ki: “Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar”. Bu müddəada biz Azərbaycan xalq müdrikliyinin siyasi müdrikliyə dahiyanə proyeksiyasını görürük. Yığcam formada bu tezisdə Azərbaycanda dövlətçilik fəlsəfəsinin başlıca prinsipi (qədim türklərdə: el=dövlət) ilə onun müasir mərhələnin şərtləri ilə vəhdəti ifadə edilmişdir. İndiki tarixi mərhələ üçün cəmiyyəti əsas olaraq onun hüquqları xarakterizə edir. Müasir anlamda əsl dövlətin atributları sırasında hüquqilik (hüquqi dövlət) mərkəzi yeri tutur. Hüququn aliliyini qəbul etməyən dövləti indi nəzəriyyəçilər də əsl dövlət kimi xarakterizə etmirlər.

Qədim türk cəmiyyətlərində “el” o zaman dövlətə sinonim olurdu ki, üç şərt ödənirdi. Birincisi, hökmdar qanunu işləməli idi, yəni el onu qəbul etməli idi. İkincisi, parlament (məclis, divan, “bəylər toyu” və s.) qanunu işləməli idi. Üçüncüsü, cəmiyyətin özünütəşkilini təmin edən qanun - “Yosun Qanunu” işləməli idi. Bu üç qanunun qarşılıqlı əlaqəsində və bir-birini tamamlamasında “dövlət=el” formulu tam anlamlı olur. Onu da nəzərə alaq ki, türk xalqları üçün qanun=hüquq. Yəni qanunla hüquq türk toplumları üçün vəhdətdə ontolojiləşir. Bu da o deməkdir ki, türklər üçün qanunla hüquq reallığın mahiyyətinə aid olduqları üçün sinonim kimi qəbul edilmişdir.

Belə alınır ki, qədimdən türk xalqlarında cəmiyyətlə dövlət bir-birini tamamlamış və inkişafları yalnız qarşılıqlı dəstək aspektində qəbul edilmişdir. Azərbaycanlılar üçün dövlət “el”ə ona görə bərabərdir ki, elsiz dövlət və dövlətsiz el olmur.

Təbii ki, bu dərin fəlsəfə tarixən fərqli məzmun ala bilər. Yeni çalarlar meydana gələr, lakin böyük xalq və onun dahi lideri bu transformasiyaları elə reallaşdırır ki, sonucda hər tarixi dönəmdə müstəqil və güclü olmaq imkanı meydana gəlir. Azərbaycanlılar üçün dövlətin gücü ilə xalqın (cəmiyyətin) gücü arasındakı münasibətlərin ana xəttini həmin tezis təşkil edir.

Bu fikirlər prizmasında Ulu öndər Heydər Əliyevin qurtuluşdan quruculuğa keçid fəlsəfəsi müstəqil və güclü dövlət quruculuğu fonunda olduqca möhtəşəm görünür. Ulu öndər əmin idi ki, Azərbaycan çox güclü dövlət ola bilər və olacaq. Bunun üçün dövlətlə cəmiyyətin inklüziv qarşılıqlı münasibətləri formalaşmalıdır. Bu münasibətlərin bazasında isə cəmiyyətdə yaşayan hər bir xalqın hüquqlarını anlaması və onu ortaya qoya bilməsi dayanır. Yəni cəmiyyət güclü olmalıdır. Cəmiyyət monolit olduqda, öz haqqını və hüququnu qorumağı bacardıqda və bu yolda sarsılmaz birliyə nail olduqda güclü olur. Bununla da müasir tarixi mərhələdə güclü dövlətlə güclü cəmiyyətin qarşılıqlı münasibətləri dövlətçiliyin inkişafı kontekstində sintez olunmuş olur!

Vurğulanan məqamlar əsasında Azərbaycanda güclü dövlətin bir sıra əsas əlamətlərini müəyyən etmək olar. Məsələn, idarəetmədə səmərəlilik, sabitlik, hüquq və azadlıqların qorunması, iqtisadi inkişaf, beynəlxalq nüfuz, sosial məsuliyyət, cəmiyyətin özünütəşkil qabiliyyəti, hakimiyyət-cəmiyyət həmrəyliyi və başqaları.

Ulu öndər Heydər Əliyevin güclü dövlətlə güclü cəmiyyətin vəhdətini təmin edən kursu artıq 2003-cü ilə konkret bəhrəsini vermişdi. Onun ən dolğun və dəqiq ifadəsi Prezident İlham Əliyevə məxsusdur.

### Güclü dövlət və vətəndaş cəmiyyəti

Azərbaycanda müstəqil güclü dövlət quruculuğu prosesini yeni tarixi mərhələnin başlanması kontekstində xarakterizə edərkən Azərbaycan Prezidenti çox maraqlı və əhəmiyyətli məqamları vurğulamışdır. Həmin sırada dövlət başçısı 2003-cü ilə artıq Azərbaycanda güclü müstəqil hüquqi dövlət quruculuğunun başlıca prinsiplərinin tam oturuşduğunu və vətəndaş cəmiyyətinin formalaşdığını xüsusi qeyd etmişdir. Deməli, Ulu Öndər güclü dövlət quruculuğunda əsas strateji məqsədə nail olmuşdur. Azərbaycan Respublikası XXI əsrə dövlət ilə cəmiyyətin həmrəyliyi şəraitində qədəm qoymuşdur. Bu iki məfhum bir-birini siyasi, sosial və ideoloji aspektlərdə tamamlamışdır. Əlbəttə, bu, bir fakt kimi qurtuluşdan quruculuğa keçidin mühüm əlaməti olaraq qəbul edilməlidir.

XXI əsrin gerçəklikləri prizmasında baxanda isə Heydər Əliyevin özündən sonrakı dönəm üçün tarixi bir xidmət göstərdiyini anlamalıyıq. Belə ki, Prezident İlham Əliyev tam olaraq Ulu öndərin həmin xidmətini dərk etmişdir və onu inkişaf etdirməyi özünün başlıca vəzifələrindən biri kimi bəyan etmişdir. Prezident İlham Əliyevin andiçmə mərasimlərindəki nitqlərinin ilk və əsas tezisi dəyişməz olaraq aşağıdakı məzmundadır: “Azərbaycanda dövlət quruculuğu tam olaraq Heydər Əliyevin müəyyən etdiyi kurs üzrə inkişaf etdiriləcəkdir”. Yəni siyasi varislik hər zaman davam edəcəkdir.

Vurğulanan kontekstdə Azərbaycanda 2003-cü ildən bu yana dövlətin daha da güclü olması ilə cəmiyyətin dinamik güclənməsi proseslərinin qarşılıqlı əlaqədə aparıldığı aydın görünür. Bu zaman hakimiyyət-xalq birliyi aparıcı yer tutur. II Qarabağ müharibəsindəki möhtəşəm Zəfər onun birbaşa real təsdiqidir.

### Müasir liderologiyanın bir tezisi

Liderliyin tədqiqinə həsr edilmiş çağdaş təlimlərdə ümummilli liderliyin kriteriyaları haqqında da fikirlər irəli sürülür. XX əsrin son onilliyindən başlayaraq həmin sırada daha çox liderin özündən sonra uğurlu lider hazırlaya bilməsi vurğulanır. Burada cəmiyyətin köklü yeniləşməsi, güclü cəmiyyətin qurulması, sülhsevərlik, humanitarlıq kimi faktorlar da ifadə edilir. Lakin real olaraq ümummilli liderlikdə yeni ruhlu lider hazırlamaq əsas yer tutur. Onu da qəbul etmək lazımdır ki, ümummilli lider üçün siyasi varislik çərçivəsində onun davamçısının uğurlu olması əsas göstəricidir!

Son tezisin semantik prizmasından baxanda Prezident İlham Əliyevin uğurları həm də Heydər Əliyevin Ümummilli Lider kimi xüsusi nümunə olmasının təsdiqi olaraq təsəvvür edilə bilər! Azərbaycanın 2025-ci ilə qədər əldə etdiyi nailiyyətlərə bir də vurğuladığımız aspektdə baxanda Heydər Əliyevin qurtuluşdan quruculuğa keçidi mükəmməl təmin edən liderliyinin tarixi mənasını fərqli bucaq altında bir daha dərk etmiş oluruq!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*



# Şuşa Bəyannaməsi – əbədi qardaşlıq andı

(əvvəli 1-ci səhifədə)

...Bəyannamənin mətni elə də geniş deyil, amma vəzn etibarı ilə mükəmməl sənəddir. Bu sənəddə 1921-ci ilin Qars, 1994-cü ilin dostluq, nəhayət, 2010-cu ildəki strateji tərəfdaşlıq haqda müqavilələr yada salınır. İki dövlətin və xalqın qardaşlıq mənzərəsi İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın Şuşada bir-birlərini bağrına basmaları ilə tamamlandı. Amma bu qardaşlıq tablosu hələ tam deyildi. Uğur tablosunun önəmli ştrixi hərbi təlimlərə gəlmiş Türkiyə “F-16”-larının müharibə günlərində Bakıda qalması idi. 44 gün davam edən İkinci Qarabağ savaşında türkiyəli as pilotların idarə etdiyi səma şahinləri havaya qalxmadı, amma onlar düşmən üzərinə şığıyan əsgər və zabitlərimizə elə qol-qanad verdilər ki... Qala-şəhərdə imzalanan Bəyannamənin əsl qardaşlıq sənədi olduğunu sübut edən bir fotoşəkil də var. Laçınlı balası Sərvərin Türkiyədə dəhşətli zəlzələdən sonra yorğan-döşəklə yüklədiyi köhnə maşınında kahramanmaraşlılara yardıma tələsməsi səhnəsini qardaşlıq xalçasına vurulan son ilmə hesab edə bilərik.

...Bu məqamda tarixə qısa ekskurs edək. 1918-ci ilin oktyabrın 7-də Şuşaya daxil olan türk fatehi Cəmil Cahid Toydər olub. Qalalıları daşnak zülmündən qurtaran xilaskarı, bu yolda 33 mehmetciyin şəhid olduğu o anı yada salmağımız təsadüfi deyil. Qeyrət qalamız Şuşa uğrunda döyüşdə şəhid olan 33 türk əsgərin, eləcə də Şuşaya sıldırım qayalarla dırmaşan, düşməni dişi-dırnağıyla məhv edərək şəhid olan xüsusi təyinatlılarımızın ruhları da bu gün şaddır. Arada bir əsrlik zaman fərqi olsa da, özündə Türk birliyinin qarşısında dayanan böyük hədəf və öhdəlikləri ehtiva edən Şuşa Bəyannaməsi yüz ilik ortaq tariximizin ən şərəfli səhifəsi sayılmağa layiqdir.

***

...Şuşa Bəyannaməsinin siyasi-fəlsəfi əhəmiyyəti Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin “Bir millət, iki dövlət” və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir” kəlamları ilə xarakterizə olunur. İki qardaş ölkənin ümumi mənafelərinin qorunaraq müdafiəsində imkanların birləşdirilməsi, ortaq maraqları əks etdirən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı əlaqələndirilməsi Bəyannamənin əsas şərtidir.

Şuşa Bəyannaməsinin strateji əhəmiyyəti Türkiyə və Azərbaycanın beynəlxalq məsələlərdə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirməsi, ikitərəfli əməkdaşlığın genişləndirilməsi ilə yanaşı, həm də BMT, ATƏT, Avropa Şurası, TDT, İslam Əməkdaşlıq Təşkilatı, digər beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək verilməsidir.

Bəyannamədə mühüm əhəmiyyət kəsb edən digər komponent ticari-iqtisadi münasibətlərdə milli iqtisadiyyatların və ixracın şaxələndirilməsində səylərin genişləndirilməsi, malların sərbəst hərəkət mexanizmlərinin təşkilidir. Sənəddə Cənub Qaz Dəhlizindən istifadədə qarşılıqlı əlaqələndirilmə, intellektual nəqliyyat sistemləri texnologiyalarından və beynəlxalq tranzit-nəqliyyat potensialından istifadə, Azərbaycan və Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması ilə bölgədə yeni nəqliyyat-kommunikasiya əlaqələrinin yaradılması da öz əksini tapıb.

Bəyannamənin hədəflərindən biri də ümumtürk dövlətlərinin əməkdaşlığı çərçivəsində faydalı və dəyərli əlaqələrin qurulmasıdır. Keçmiş SSRİ-nin süqutundan sonra yaranan türk dövlətləri arasında münasibətlərin yeni keyfiyyətdə qurulması heç də asan deyildi. O zaman qarşılıqlı inam və etibarın bərpa edilməsi yolunda sərhəd, iqtisadi və milli kimlik problemləri var idi. Uzun müddət Çar Rusiyası və keçmiş SSRİ tərkibində olan bu xalqların müstəqil yaşamaq və milli dəyərlərini qorumaqda müəyyən çətinliklərlə üzləşdiyi sirr deyildi. Amma Vətən müharibəsində Türkiyənin Azərbaycana verdiyi siyasi-mənəvi dəstək vəziyyəti kökündən dəyişdi. Türk dövlətlərinin öz aralarında yaradacaqları mexanizmlə problemlərin həllinin mümkünlüyü bəlli oldu.

...Geostrateji hədəf baxımdan Şuşa Bəyannaməsinin məzmunundan hasil olan çağırış odur ki, Azərbaycanı hədəf alan öz qarşısında Türkiyəni, Türkiyəyə qarşı çıxan isə önündə Azərbaycanı görəcək. Türkiyə Prezidenti R.T.Ərdoğanın Şuşada söylədiyi kimi “Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü Türkiyənin gücüdür. Bakı və Ankara Şuşa Bəyannaməsini imzalamaqla qarşıdakı dövrdə ikitərəfli münasibətlər üçün “Yol xəritəsi”ni müəyyənləşdirdi”.

Əslində, Şuşa Bəyannaməsi öz adında bütün məqamları ehtiva edir. Bu sənədin məhz Şuşada imzalanması ilə İkinci Qarabağ müharibəsindən sonra yaranan yeni reallıqlar mənzərəsində dünyaya bir sıra mesajlar verilir. Sənədin imzalanmasında məkan əhəmiyyətli rol oynayır. Hər bir sənəd özündə ehtiva etdiyi zaman, məkan və hədəflərlə əhəmiyyətlidir. Beynəlxalq sənəddə vaxt və imza ilə yanaşı, yer də böyük məna kəsb edir. Azərbaycan və Türkiyənin müttəfiqlik münasibətlərini, perspektivlərini müəyyənləşdirilən sənədin məhz Şuşada imzalanması rəmzi məna və mühüm tarixi əhəmiyyət kəsb edir. Bəyannamə həm də Azərbaycan–Türkiyə birliyini daimi edən, möhkəmlənməsini şərtləndirən ortaq köklər, milli dəyərlər və maraqlar kimi amilləri özündə əks etdirir.

***

...Şuşa Bəyannaməsi həm də işğalçı Ermənistana və onun havadarlarına açıq mesajdır. Bəyannamə, həmçinin Azərbaycanın regionda yaratdığı yeni reallıqlarla barışmaq istəməyən, Ermənistan vasitəsilə bölgədə özlərinin məkrli niyyətlərini həyata keçirməyə cəhd edənlərə tutarlı cavab, qardaşlığın sarsılmazlığı, gələcəyə hesablanmış hədəflərin təsbitidir. Prezident İlham Əliyevin 8 iyul 2021-ci ildə XXIV Avrasiya İqtisadi Zirvəsinə ünvanladığı müraciətdə vurğulandığı kimi: “Azərbaycan Cənubi Qafqazda geosiyasi və geoiqtisadi reallığı köklü sürətdə dəyişməklə əməkdaşlığa, sülhə, regional və qlobal miqyasda dayanıqlı təhlükəsizlik sisteminin yaradılmasına istiqamətlənmiş strateji kurs həyata keçirir. Türkiyə bizə hər zaman yüksək dəstək verdi. Vətən müharibəsində qələbəmiz və hazırkı proseslər Azərbaycan–Türkiyə qardaşlığının, birliyinin nailiyyətləridir”.

Üstündən illər keçdikcə Şuşa Bəyannaməsi özünün tarixi, milli, mənəvi əhəmiyyətini daha qabarıq şəkildə göstərəcək. Bu sənəd, sadəcə, iki dövlətin birliyinin bəyan edilməsi deyil, eyni zamanda, soy və qan qardaşlığının and möhürüdür.

Şuşa Bəyannaməsi Zəfər tarixinin zirvəsi olmaqla yanaşı, Azərbaycan–Türkiyə qardaşlığının əbədiliyinin təminatıdır.

***İmran BƏDİRXANLI***
***XQ***

# Milli Qurtuluş Günü gerçək müstəqilliyimizin başlanğıcı oldu

**(əvvəli ötən sayımızda)**

## Dinamik inkişaf edən, modernləşən dövlət

15 iyun 1993-cü ildən başlanan inkişaf yolunun uğurlarını bir yazıda tam əhatə etmək mümkün deyil. Gerçək olan budur ki, ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə Azərbaycan yenidən quruldu. 1993-2003-cü illərdə Azərbaycanın sürətli inkişafı bugünkü reallıqların bünövrəsidir.

Həmin illərdə görülmüş işlər sayəsində Azərbaycan inkişafın təkmil modelini dünyaya təqlim edir. Son 22 ildə bu modelə edilən əlavələr və yeniliklər ölkəmizin beynəlxalq münasibətlər sistemində yeri və rolunun artmasında əhəmiyyətli rol oynayır. Prezident İlham Əliyevin Ulu öndərin siyasi kursunu uğurla davam etdirməsi və zənginləşdirməsi sayəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib.

Həyata keçirilən uğurlu, səmərəli daxili və xarici siyasət həm Azərbaycanın yüksəlişi və inkişafında, milli maraqların qorunmasında, həm də ölkəmizin dünya siyasi arenasında layiqli yer tutmasında öz ifadəsini tapır. “2003-cü ildə xalq Heydər Əliyev siyasətinə səs vermişdir, mənə etimad göstərmişdir. Çünki mən demişdim ki, əgər xalq etimad göstərərsə, Ulu öndərin siyasətinə sadiq qalacağam” söyləyən dövlət başçısı İlham Əliyev bildirir ki, o əsas amillərdən biri idi. Həyat onu göstərdi ki, doğrudan da tarixi uğurlara imza atdıq.

Möhtərəm Prezidentimiz daim bu çağırışı da edir ki, hər dövrün öz tələbləri var. Biz 1990-cı illərin tələbləri ilə XXI əsrdə yaşaya bilmərik. Hətta bu gün müharibədən sonra yeni dövr başlayır. Əvvəlki dövrlərdə əldə edilmiş bütün uğurları kənara qoymalıyıq. Bəli, bu, bizim üçün fundament, baza, imkan yaratdı ki, əsas məqsədimizə çataq. Ancaq əgər biz oturub bütün günü o dövr haqqında danışsaq, gələcək haqqında düşünməsək, onda nə olacaq. Biz gələcək haqqında düşünməliyik, zamanı qabaqlamalıyıq.

Azərbaycan bütün işləri ardıcıllıqla həyata keçirir. Bu gün böyük qürur hissi ilə qeyd edirik ki, bugünkü Azərbaycan ulu öndər Heydər Əliyevin görmək istədiyi azad, müstəqil, ərazi bütövlüyü və suverenliyi tam təmin olunmuş Azərbaycandır. Sözsüz ki, belə qüdrətli, suveren, ərazi bütövlüyünü təmin edən ölkəyə çevrilmək üçün 27 illik yol getdik. 2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz tarixi Zəfərə imza atdı.



Bu Zəfər növbəti zəfərlərin davamlılığını təmin etdi. Belə ki, 2023-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi bir günlük antiterror tədbirləri nəticəsində suverenliyimiz tam bərpa edildi.

Ulu öndərin ən böyük arzusu Azərbaycanı bütöv görmək idi. Ümummilli lider Heydər Əliyev 2003-cü ildə xalqa tarixi müraciətində məhz bu inamı ifadə etmişdi ki, axıra çatdıra bilmədiyi işləri, planları cənab İlham Əliyev həyata keçirəcək. Dahi şəxsiyyət bu müraciəti ilə Heydər Əliyev yolunun davamlılığı fonunda Azərbaycanın daha möhtəşəm uğurlara imza atmasına yol açdı. Bu arzuya cavab olaraq Müzəffər Ali Baş Komandan İlham Əliyevin 8 noyabr 2020-ci ildə Şəhidlər xiyabanından Şuşanı nazad edilməsi müjdəsini xalqa çatdırarkən söylədi: “Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!”

## Azad Qarabağ və Şərqi Zəngəzur gerçək cənnətə çevrilir

Bu gün Şuşada, Laçında, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Xankəndidə üçrəngli bayrağımız əzəmətlə dalğalanır. Bu torpaqlar cənnət məkana çevrilir. Böyük Qayıdış Proqramının birinci mərhələsi uğurla davam edir. Ölçüyəgəlməz bərpa-quruculuq işləri soydaşlarımızın öz doğma yurd-yuvalarına qayıdışı ilə tamamlanır. Dövlət başçısı İlham Əliyevin 30 may 2025-ci il tarixli “Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın və “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı”nın hazırlanması haqqında” sərəncamı Böyük Qayıdışın davamlılığının təmin edilməsinə xidmət edir.

Sənəddə də qeyd olunduğu kimi, işğaldan azad edilmiş ərazilərin bərpası və iqtisadi fəaliyyətə reinteqrasiyası, əhalinin öz yurdlarına təhlükəsiz şəkildə qayıtması, habelə Qarabağ və Şərqi Zəngəzurda dayanıqlı məskunlaşmanın və məşğulluğun təmin olunması istiqamətində görülən işlər Böyük Qayıdış prosesini ölkənin sosial-iqtisadi inkişafında qazanılan nailiyyətlərin ayrılmaz tərkib hissəsinə çevirib. Azərbaycan qarşıdakı illərdə daha mürəkkəb çağırışların və zəngin imkanların mövcudluğu ilə seçilən yeni mərhələyə daxil olur. Bu mərhələ qlobal iqtisadi qütbləşmənin dərinləşməsi, texnoloji tərəqqinin sürətlənməsi, eləcə də süni intellekt əsaslı texnologiyaların geniş tətbiqi ilə səciyyələnir.

Ölkəmizin ötən illərdə əldə etdiyi sosial-iqtisadi nailiyyətlərin davamlı şəkildə artırılması, bunun üçün özəl, o cümlədən birbaşa xarici investisiyaların cəlbinin genişləndirilməsi, biznes mühitinin əlverişliliyinin yüksəldilməsi, iqtisadiyyatın bilik və texnologiya tutumunun gücləndirilməsi, həmçinin işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın davamlılığının təmin edilməsi məqsədilə imzalanan sərəncam növbəti mərhələdə soydaşlarımızın qayıdış ünvanlarının sayının artmasını da təmin edəcək. Qarabağımız və Şərqi Zəngəzurumuz böyük investisiyalar məkanına çevriləcək. Azad edilmiş torpaqlar sevincli günlərini yaşayır.

Bu gün qürurla qeyd etdiyimiz məqamlardan biri də paytaxt Bakı ilə yanaşı, Qarabağın və Şərqi Zəngəzurun beynəlxalq tədbirlər üçün ideal məkan kimi qəbul olunmasıdır. Bu ərazilərdən dünyaya ünvanlanan çağırışlar Azərbaycanın birlik, həmrəylik, əməkdaşlıq tərəfdarı olduğunu bir daha nümayiş etdirir. Azərbaycan–Türkiyə qardaşlığana Qarabağın tacı Şuşa, Azərbaycan–Türkiyə–Pakistan birliyinə isə Laçın, Şərqi Zəngəzur şahidlik etdi.

Təbii ki, uğurlarımızda Heydər Əliyev Fondunun da rolu böyük, payı əvəzolunmazdır. 2004-cü ildə yaradılan Heydər Əliyev Fondu Ümummilli liderin fəaliyyətinin, dövlətimiz, xalqımız qarşısında əvəzolunmaz xidmətlərinin fəal təbliğatçısıdır. Heydər Əliyev irsini təbliğ etməklə yanaşı, biri-birindən mühüm layihələrin təşəbbüsçüsü və iştirakçısı kimi tanınan və nüfuz qazanan fondun Azərbaycan reallıqlarının təbliğinə verdiyi davamlı töhfələr təqdirəlayiqdir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən layihələr Azərbaycan bütün sahələrdə uğurlu inkişafına öz töhfəsini verir.

Heydər Əliyev siyasətinin uğurları davamlıdır. Milli Qurtuluş Günündən başlanan yol Azərbaycanı yeni-yeni hədəflərə nail olmasını təmin etməklə beynəlxalq münasibətlər sistemində söz sahibliyini möhkəmləndirir, tarixi ədalətin bərpası fonunda yeni çağırışlara istiqamətləndirir. Bu yol xalqımızı Qərbi Azərbaycana da qovuşduracaq. Tezliklə dövlət başçısı İlham Əliyev bu müjdəni də xalqımıza çatdıracaq.

Qeyd etdiklərimiz belə bir ümumiləşdirməyə əsas verir ki, qurtuluş Azərbaycanın bugünkü reallıqları və onların əsasında müəyyənləşdirilən hədəflərimizin təqdimatıdır. Xalqımız tam əmindir ki, qalib, bütövləşən Azərbaycan Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində yeni-yeni zəfərlər qazanacaq, qarşıya qoyulan hədəflərə doğru inamla irəliləyəcək. Ölkəmizi tarixi Zəfərə qovuşduran Milli Qurtuluş Günü münasibətilə qalib Azərbaycan xalqını təbrik edirəm.

*Vüqar RƏHİMZADƏ,*
*Milli Məclisin deputatı*

# Qayıdış Azərbaycanın uğurlu xarici siyasətinə meydan açdı

**Ümummilli lider, görkəmli siyasət və dövlət xadimi Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi hər iki dövrdə Azərbaycanın milli maraqlarını hər zaman uca tutmuşdur.**

Dahi şəxsiyyətin müdrik rəhbərliyi, həyata keçirdiyi düşünülmüş, məqsədyönlü tədbirlər hesabına 1969–1982-ci illər Azərbaycanın intibah dövrü kimi tarixə çevrilmişdir. Bu dövrdə həyata keçirilən tədbirlər məhz Ulu öndərin adı və fəaliyyəti ilə bağlıdır. Həmin dövrdə Azərbaycanda bütün sahələrdə ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş bir sıra mühüm addımlar atılmışdır.

Xalqımızın böyük oğlu Heydər Əliyev Moskvada işlədiyi dövrdə də Azərbaycanın dövlət maraqlarını qətiyyətlə qorumuş və erməni iddialarının reallaşmasına imkan verməmişdi. Heydər Əliyevin iştirakı ilə keçirilən Sov.İKP MK Siyasi bürosunun və SSRİ Nazirlər Sovetinin iclaslarında Azərbaycan əleyhinə heç bir qərar qəbul edilməmişdir. Yalnız sovet diktatoru M. Qorbaçovun qısqanc və bədxah münasibəti nəticəsində 1987-ci il oktyabrın 21-də Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev vəzifəsindən istefa verdikdən sonra sovet rəhbərliyinin nermənipərəst mövqeyinə geniş meydan açılmışdır.

Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyinin bərpasından sonra dövlətçiliyini inkişaf etdirərək möhkəmləndirmək üçün tarixi fürsət əldə etmiş oldu. Lakin keçmiş SSRİ rəhbərliyinin ermənilərə himayədarlığı sayəsində başlamış Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, eləcə də hərbi təcavüzü nəticəsində torpaqlarımız işğal altına düşdü. Müstəqilliyin bərpa edildiyi ərəfədə və ondan az sonra azərbaycanlılar indiki Ermənistandan - öz tarixi torpaqlarından zorakılıqla, təcavüzə məruz qalaraq deportasiya edildi. Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsində isə azərbaycanlılar yaşayan məntəqələr bir-birinin ardınca Ermənistan silahlı qüvvələri və terrorçu dəstələri tərəfindən keçmiş sovet hərbi hissələrinin köməyi ilə işğal edilmiş, əhalisi isə öz doğma yurdlarından məcburən köçkün düşdü.

Həmin dövrdə ölkə çətin vəziyyətdə idi, ordu formalaşmamışdı, hansı istiqamətdə addımlar atılacağı bilinmirdi. Eyni zamanda, ölkədə sabitlik yox idi, xaos, hakimiyyətsizlik hökm sürürdü. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün qarşısını almaq, onun ağır nəticələrini aradan qaldırmaq, dövlətimizin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünyaya siyasi və iqtisadi inteqrasiya olmaq zərurəti düşünülmüş, ardıcıl və milli maraqların qorunmasına əsaslanan fəal xarici siyasət tələb edirdi.

Belə bir çətin dövrdə, yalnız 1993-cü ilin ikinci yarısında ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı.



Ümummilli lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli maraqlarının və mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Heydər Əliyev özünün zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq bir sıra ən mühüm və təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsini qarşıya məqsəd kimi qoymuşdu. Həmin vəzifələrdən biri və ən əsası Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxartmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq informasiya blokadasını yarmaqdan ibarət idi.

Ümummilli lider Heydər Əliyev bildirmişdir ki, Azərbaycanın müstəqilliyini möhkəmləndirmək üçün əsas vəzifələrdən biri ölkəmizin mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasət olmasıdır: “Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaqdan və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir”.

Azərbaycanın milli təhlükəsizliyi onun dünya və region dövlətləri, habelə beynəlxalq təşkilatlarla balanslaşdırılmış strateji xətt yeritməsini zərurətə çevirdi. Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının xarici siyasət prioritetlərindən bəhs edərək qeyd edirdi: “Dəyişən dünyamızda Azərbaycanın siyasi missiyası dost və tərəfdaş axtarışına, blok və ittifaqların çoxvariantlılığına yönəlmişdir. Bu, Azərbaycanın dünya dövlətləri ailəsində statusunu, suverenliyini möhkəmləndirəcək, həm də müxtəlif dövlətlərlə yaxınlaşmasına kömək edəcəkdir”.

Ümummilli lider çox bacarıqlı, son dərəcə təcrübəli dövlət başçısı və yetkin siyasi xadim kimi bu çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə və böyük ustalıqla gəlmək bacarığı nümayiş etdirdi. Ölkəmizin sistemli şəkildə dünya birliyinə inteqrasiya olunmasında ikitərəfli və çoxtərəfli siyasi münasibətlərin genişlənməsi istiqamətində atılan addımlar mühüm əhəmiyyət kəsb edir.

Bu baxımdan Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış “Əsrin müqaviləsi” ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsi və beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə güclü təkan verdi. Azərbaycanın enerji siyasətinin əsasını təşkil edən Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz əsas ixrac boru kəmərlərinin tikintisinə başlandı. Sonrakı illərdə onların işə salınması nəticəsində Azərbaycan nəinki özünün enerji təhlükəsizliyini təmin etdi, eyni zamanda Avropanın enerji təminatında mühüm rol oynamağa başladı.

Bununla yanaşı, dövlət müstəqilliyinin bərpasından sonra Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi Azərbaycan diplomatiyasının qarşısında duran mühüm və çətin məsələlərdən biri oldu. Bu məsələyə dair Xəzəryanı ölkələrlə Azərbaycanın milli mənafelərinə uyğun olaraq səmərəli danışıqlar aparıldı.

1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi Böyük İpək Yolunun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onun nəticələri Azərbaycanın qazandığı ən mühüm nailiyyətlərindən biridir.

Bununla yanaşı, Azərbaycan dövlətinin xarici siyasətinin əsas istiqamətlərindən biri də Avropa ölkələri ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi idi. Bu dövrdə, yalnız ikitərəfli deyil, çoxtərəfli əsasda da fəal xarici siyasət yürüdülərək Azərbaycanın beynəlxalq təhlükəsizlik və əməkdaşlıq sistemində özünəməxsus yer tutmsı üçün bir sıra mühüm addımlar atıldı. Azərbaycan Respublikasının xarici siyasət strategiyasının mühüm istiqamətlərindən biri beynəlxalq təşkilatlara hərtərəfli əməkdaşlıq etməkdir.

Azərbaycanın beynəlxalq təşkilatlara üzv olması ilə yanaşı, onların işlərində fəal surətdə iştirak etməsi və səmərəli əməkdaşlıq ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyət kəsb etmişdir. Bu baxımdan 1994-cü il mayın 4-də Prezident Heydər Əliyevin “Sülh naminə tərəfdaşlıq” proqramının çərçivə sənədini imzalaması Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi istiqamətində atılan mühüm addımlardan biri kimi xarakterizə edilir.

Bununla yanaşı, Heydər Əliyevin Azərbaycan Prezidenti kimi BMT Baş Məclisinin sessiyalarında və digər yüksək səviyyədə keçirilən müxtəlif iclaslarda və çoxsaylı görüşlərdə bu əlaqələr inkişaf etdirildi. Azərbaycan dövlətinin başçısı kimi ilk dəfə Ümummilli lider 1994-cü il sentyabrın 29-da BMT Baş Assambleyasının 49-cu sessiyasında çıxış edərək, bu universal beynəlxalq təşkilatın tribunasından ölkəmizin bir çox məsələləri ilə bağlı, xüsusilə Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmışdır.

2000-ci ilin sentyabr ayında BMT-nin Minilliyin sammitində çıxış edən Prezident Heydər Əliyev dünyada sülhün və təhlükəsizliyin qorunmasında əsas missiyanı öz üzərinə götürmüş bu beynəlxalq təşkilatın kürsüsündən Azərbaycanın mövqeyini bir daha dünyaya bəyan etmiş, bəşəriyyətin üzləşdiyi problemlərin həllində BMT-nin fəaliyyətini daha da gücləndirmək məqsədilə təşkilatda islahatların aparılmasının zəruriliyini vurğulamışdır.

1996-cı il aprelin 22-də Lüksemburqda Avropa İttifaqı və Azərbaycan Respublikası arasında ticarət, sərmayə, iqtisadiyyat, qanunvericilik, mədəniyyət, immiqrasiya və qeyri-qanuni ticarətin qarşısının alınması sahəsində əməkdaşlığı nəzərdə tutan “Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi” imzalanmışdır.

Əminliklə söyləmək olar ki, ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illərdə respublikamız üçün həlledici illər olmuşdur. Məhz həmin illərdə dövlətçiliyimizin möhkəm təməli qoyulmuş, Azərbaycanın xarici siyasəti ilə bağlı strateji xətti müəyyən edilmiş və ölkəmiz dünya birliyinə qovuşmuşdur. Azərbaycanın beynəlxalq təşkilatlara üzv olmaqla yanaşı, onların işlərində müntəzəm, eləcə də fəal surətdə iştirak etməsi səmərəli əməkdaşlığımız ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırılması üçün mühüm əhəmiyyət kəsb etmişdir.

XX əsrin sonunda ermənilərin Xocalıda törətdikləri soyqırımı bütün insanlığa və bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayətlərdən biri kimi qiymətləndirilir. Bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımın əsl mahiyyəti yalnız ümummilli lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə yenidən qayıtdıqdan sonra açıqlanmış, 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermişdir. Bundan əlavə, ermənilərin azərbaycanlılara qarşı zaman-zaman törətdikləri soyqırım ilə əlaqədar ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı fərmanla 31 mart – Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu çox uğurla inkişaf etdirən Prezident İlham Əliyevin yüksək diplomatik istedadı sayəsində son 22 ildə Azərbaycan dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərini keyfiyyətcə yeni müstəvidə daha da inkişaf etdirilir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrində aparılan islahatlar ordumuzun istər döyüş, istərsə də mənəvi-psixoloji hazırlığının güclənməsinə zəmin yaratdı. İkinci Qarabağ müharibəsi son yuz ildə şərəf və qəhrəmanlıq salnaməsi kimi Azərbaycan tarixinə yazıldı. Bu gün üçrəngli müqəddəs bayrağımız Azərbaycanın bütün işğaldan azad edilmiş ərazilərində - Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Laçında, Ağdamda, Şuşada, Xocavənddə, Hadrutda, Ağdərədə, Xocalıda və Xankəndidə qürurla dalğalanır.

Bütün bunlar onu deməyə əsas verir ki, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi kursu Prezident İlham Əliyevin uğurla davam və inkişaf etdirməsi, eləcə də dinamik, çoxşaxəli və milli maraqlara əsaslanaraq həyata keçirilən xarici siyasət nəticəsində Azərbaycanın çox böyük uğurlara imza atması ölkəmizin dünya birliyində mövqelərinin yüksəlməsini təmin etmişdir.

*Elçin ƏHMƏDOV,*
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “Qarabağ İrsini Araşdırma Mərkəzi”nin rəhbəri, siyasi elmlər doktoru, professor*

# Müstəqil Azərbaycan tarixinin dönüş nöqtəsi

**Bu il Azərbaycan dövlət müstəqilliyinin bərpasının 34 illiyini qeyd etdi. Bu, Azərbaycan dövlətçiliyinin dirçəlişini və əcdadlarımızın bir çox nəsillərinin arzularını yaşatdığı azadlığa qovuşmasını əlamətdar edən çox mühüm mərhələdir. Əlbəttə, tarixin ölçüsündə 34 il sadəcə bir andır. Lakin Azərbaycan xalqı üçün bu dövr çətinliklər və qələbələr, böhranlar və nailiyyətlərlə dolu bütöv bir dövrü əhatə edir. Biz əsla rəvan olmayan, bəzən sevinc, bəzən kədər yaşadığımız bu yoldan keçmişik.**



Müstəqilliyin bərpasının 34 ilinin birinci onilliyini ulu öndər Heydər Əliyevin 15 iyun 1993-cü ildən başlayaraq Azərbaycan dövlətçiliyinin sarsılmaz təməllərini qoyduğu dövr kimi xarakterizə edərdim. Əsla inkar etmək olmaz ki, müstəqilliyin Heydər Əliyev dövründə əldə edilmiş siyasi sabitləşmə olmasaydı, ölkə xaosda “boğular”, hətta suverenliyini itirə bilərdi.

Məhz ümummilli liderin müstəsna xidmətləri, sarsılmaz siyasi iradəsi, qətiyyəti və dərin zəkası sayəsində Azərbaycan dövlətçiliyi süqutdan xilas oldu, dirçəldi, öz dayaqlarını möhkəmləndirdi və səmərəli idarəetmə sistemi, möhkəm dövlət aparatı formalaşdırıldı. İflasa uğramaqda olan iqtisadiyyat inkişaf trekinə çıxdı, milli valyutamız dəyər qazanmağa başladı, ən əsası isə ərazisinin 20 faizini itirmiş ölkənin mükəmməl Silahlı Qüvvələr yaradılmağa başlandı. Ölkənin Əsas Qanunu qəbul edildi. Xarici dövlətlərlə diplomatik əlaqələr quruldu. Azərbaycan nüfuzlu beynəlxalq təşkilatlara üzv oldu və müstəqil dövlət kimi tanındı.

Bu prizmadan yanaşanda şübhəsiz, Azərbaycanda Milli Qurtuluş Günü kimi qeyd edilən 15 iyun ölkənin təkcə dərin siyasi böhrandan çıxmasını deyil, həm də dövlətçiliyin müasir mərhələsinin başlanğıcını simvolizə edən dövlət bayramıdır. Bu gün 1993-cü ildə Azərbaycana siyasi sabitlik, əminamanlıq gətirən, ölkəsinin yeni siyasi, iqtisadi vektornu müəyyənləşdirən dahi və fenomenal şəxsiyyətin – Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bağlıdır. Ona görə də üç onillik ərzində 15 İyun təkcə rəsmi təqvimin deyil, həm də xalqın kollektiv yaddaşının bir hissəsinə çevrilib. Bununla belə, onun əhəmiyyəti qeyd etdiyimiz təntənələrdən çox-çox kənara çıxır.

## İflasa sürüklənən ölkə

1991-ci ildə müstəqillik əldə etdikdən sonra Azərbaycan bir sıra problemlərlə üzləşdi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağda açıq hərbi münaqişə nəticəsində ərazilərini itirməyə başladı. Hakimiyyətdə bir-birini silahlı çevrilişlərlə əvəz edənlərin müstəqillik kontekstində idarəetmə təcrübəsinin olmaması ölkədə xaotik bir vəziyyətə səbəb oldu. Qeyri-sabitlik və daxili üsyanlarla müşayiət olunan hakimiyyət çevrilişləri vətəndaş müharibəsi həddinə yaxınlaşmağa başladı. Gənc müstəqil ölkənin iqtisadiyyatının çöküşü sosial gərginliyin kəskinləşməsinə yol açdı.

Sovet İttifaqının dağılmasından dərhal sonra yaranan belə bir şəraitdə Azərbaycanın yeni müstəqil dövlətçilik qurmaq zərurətini arxa plana keçirdi. Bu proses ləngidikcə dövlətçilik böhranı dərinləşirdi. Reallıq onda idi ki, müstəqilliyini yenicə bəyan edən Azərbaycan 1993-cü ilin ortalarına qədər sistemli böhran yaşayırdı və dövlət mahiyyətcə parçalanma və məhv olmaq prosesində idi. Hakimiyyətin çevrilişlər yolu ilə dəyişikliyi, mərkəzi hakimiyyətin iflic olması, separatçı əhval-ruhiyyənin qızışmaqda davam etməsi və Ermənistanın təzyiqlərinin artması aysberqin yalnız görünən tərəfləri idi. Azərbaycan Xalq Cəbhəsi (AXC) hakimiyyəti vəziyyəti heç cür sabitləşdirə bilmirdi. Bu da açıq-açığına hakimiyyətin səriştəsizliyinin, təcrübəsizliyinin və ağıla deyil, zora üstünlük verməsinin kulminasiya nöqtəsi idi. Surət Hüseynovun komandanlığı altında olan hərbi hissənin Gəncə şəhərində üsyana qalxması Azərbaycan dövlətçiliyinin “olum və ölüm” dilemması təhlükəsi ilə üz-üzə qoymuşdu. Üsyanın yaratdığı dərin siyasi böhrana qarşı ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı xilas üçün son şans kimi qəbul edildi.

## Siyasi qurtuluş aktı – Qayıdış

Müstəqillik ölüm yatağında imdad diləyəndə - 1993-cü il iyunun 15-də Azərbaycan Ali Soveti, əslində qarşılaşdığı böhranda aciz vəziyyətə düşən AXC hakimiyyətinin rəhbərliyini o vaxt Naxçıvan Ali Məclisinin sədri olan Heydər Əliyevi Bakıya gəlməyə və dövlət idarəçiliyini öz üzərinə götürməyə dəvət etdi. Burada xalqın Heydər Əliyevi hakimiyyətə gətirmək tələbini də hesabdan silmək doğru olmazdı. Bakı öndə olmaqla bütün Azərbaycanın ümidlə göz dikdiyi Heydər Əliyev baş verənlərə və canı qədər sevdiyi Azərbaycanın taleyinə biganə qala bilmədi. Hakimiyyətin göndərdiyi təyyarə ilə Bakıya gələn Heydər Əliyev özü ilə böyük ümid və inam gətirdi.

Heydər Əliyev son dərəcə ağır və xaotik şəraitdə hakimiyyətin məsuliyyətini üzərinə götürərək Azərbaycan dövlətçiliyinin formalaşmasında həlledici rol oynayan əsas simaya çevrildi. Məhz Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ölkənin gələcək onilliklər üçün böyük ölçüdə inkişaf trayektoriyasını müəyyən etdi. Bilavasitə onun atdığı təməllər Azərbaycanda bu günə qədər davam etməkdə olan stabilləşmədən institutlaşmaya qədər olan bütün sahələrdə özünü göstərməkdədir. Bütün bu göstəricilərə görə 15 İyun tarixi müasir müstəqil Azərbaycanın təqviminə Milli Qurtuluş Günü kimi düşüb.

Ulu öndər Heydər Əliyev yüksək səviyyəli siyasi təcrübəyə malik idi. O, sələflərindən fərqli olaraq hakimiyyətin nə demək olduğunu, özündə nəyi ehtiva etdiyini, nəzəriyyədən deyil, gerçək təcrübəsindən çox gözəl bilirdi. Heydər Əliyev çox çətin dövrlərdə Azərbaycan SSR DTK-nın rəhbəri, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, Sov.İKP MK Siyasi Bürosunun üzvü, nəhəng bir dövlətin SSRİ Nazirlər Sovet sədrinin birinci müavini kimi hakimiyyət pillələrində büdrəmədən irəliləmişdi və bilirdi ki, hakimiyyət bütün siyasi-iqtisadi həyatın ətrafında fırlandığı oxdur. O, hər yerdə mövcuddur və cəmiyyətin bütün strukturlarına nüfuz edir, ölkənin dayaqlarını təşkil edən alt sistemi kimi çıxış edir, daxili bütövlüyü, mütəşəkkilliyi və münasibətlər iyerarxiyasını tənzimləyir.

Bütün xalqın ümid və son fürsət kimi baxdığı Heydər Əliyevin qayıdışı həm də ədalətin, nəzarətin, nizamın və strateji düşüncənin qayıdışını simvolizə edirdi. Onun dövlət quruculuğunda ilk həyati əhəmiyyətli addımı hakimiyyətin sabitləşməsi üçün həyata keçirdiyi tədbirlər oldu. Elə ilk aylardan başlayaraq Heydər Əliyevin ölkədə anarxiyaya son qoyması onun əsas nailiyyətinə çevrildi. Bunun üçün ulu öndər silahlı dəstələri və regional elitaları tabe etdirərək hakimiyyət şaqulini bərpa etdi. Siyasi manevrlər və qətiyyətli qərarlarla separatçı və üsyançı qrupları dağıdıb zərərsizləşdirdi. Bununla eyni vaxtda əsas dövlət qurumlarının fəaliyyəti sistemli şəkildə bərpa olundu.

Paralel olaraq müstəqil dövlətin konstitusion formalaşmasını reallaşdırmaq üçün əzmkarlıqla fəaliyyətə başladı. 1995-ci ildə biləvasitə Ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi. Bu Konstitutsiya əsasında ölkədə Prezident üsul-idarəsi forması təsbit edildi, hakimiyyət bölgüsü prinsipləri müəyyən olundu. Vətəndaşların hüquq və azadlıq-




larının müdafiəsi üçün nəzərdə tutulmuş bu idarəçilik sistemi ölkənin institusional strukturunun əsasına çevrildi.

Ümummilli lider Heydər Əliyevin strateji düşüncəsinin miqyası o qədər böyük idi ki, dövlət quruculuğu spektrinin bütün sahələrini eyni vaxtda tənzimləyə bilirdi. Bu yolda vacib bildiyi işlərdən biri ölkənin suverenliyinin və beynəlxalq legitimliyinin möhkəmləndirilməsi idi. Ona görə də o, ilk növbədə Azərbaycanın tanınmasına və inteqrasiyasına yönəlmiş xarici siyasət kursunu fəal şəkildə inkişaf etdirdi.

Regiondakı güclərin müxtəlif istiqamətlərdə təzyiqlərinə baxmayaraq, siyasi qətiyyət və iradə nümayiş etdirərək, 1994-cü ildə Qərb neft şirkətləri ilə investisiya axınını və iqtisadi suverenliyi təmin edən, eyni zamanda Azərbaycanın xarici siyasətində mühüm təsir gücünə malik böyük saziş – “Əsrin müqaviləsi” adlanan vacib bir müqavilə imzaladı. Çox qısa bir zamanda onun çevik diplomatiyası sayəsində Azərbaycan NATO, BMT, ATƏT və digər beynəlxalq təşkilatlarla fəal əməkdaşlığa başladı. Türkiyə, ABŞ, Rusiya və Aİ ölkələri ilə strateji əlaqələr quruldu.

Ulu öndər Heydər Əliyevin ölkənin maddi resurslarına dərindən bələd olması isə Azərbaycan iqtisadiyyatının inkişaf və tərəqqi yoluna qədəm basmasında öz müstəsna rolunu oynadı. Onun uzaqgörən siyasəti sayəsində iqtisadiyyatın əsası kimi neft strategiyası yaradıldı. Azərbaycanın sərvətyi olan neft-qaz sektoru sadəcə gəlir mənbəyi deyil, güclü dövlət qurmaq üçün ən kəskin alətə çevrilmişdir. Neft gəlirlərinin səmərəli istifadəsi məqsədilə Dövlət Neft Fondu (ARDNF) yaradıldı və neft gəlirlərindən büdcənin sabitləşdirilməsi və sosial proqramların maliyyələşdirilməsi üçün istifadə edilməyə başlandı. Heydər Əliyevin “qızıl layihələrindən”, az sonra çox güclü geosiyasi alətə çevrilən və Azərbaycanı Cənubi Qafqazın güclü aktoruna çevrilməsində müstəsna rol oynayan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinə qərar verildi.

Ümummilli lider Heydər Əliyevin illər sonra dəyərləndirilən müstəsna xidmətlərindən biri də 1994-cü ildə Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında imzalanan Bişkek protokolu oldu. Bu atəşkəs Azərbaycana strateji baxımdan nəfəs dərməyə çox qiymətli bir vaxt qazandırdı. Bu strateji vaxtda Azərbaycanda siyasi və iqtisadi istiqamətlərdə çox böyük nailiyyətlər əldə edildi. Əvvəla, Azərbaycan Silahlı Qüvvələri tamamilə yenidən formalaşdırılmağa və müasir tələblər baxımından qurulmağa başlandı. Ölkə iqtisadiyyatı sürətlə inkişaf etməyə və bunun sayəsində regionun ən müasir və güclü ordusunu qurmağa vəsait qoymağa imkan verdi. Azərbaycan beynəlxalq aləmdə münaqişənin haqlı tərəfi kimi tanınmağa, onun xeyrinə BMT-də 4 qətnamənin, Heydər Əliyevin qətiyyəti sayəsində 1996-cı ildə ATƏT-in Lissabon sammitində 46 ölkənin imza atdığı xüsusi bəyanatın qəbul edilməsinə və gələcəkdə öz torpaqlarını azad etməyə haqq qazandırdı.

Qısaca desək, Bişkek protokolu ilə münaqişənin uzun müddətə dondurulması faktiki olaraq Azərbaycana öz ərazi bütövlüyünü bərpa etməyə, torpaqlarını işğaldan azad etməyə və 2020-ci ildə bunu gerçəkləşdirməyə şans verən bir dönüş nöqtəsi oldu.

Ümummilli liderin hakimiyyətə qayıdışı və xidmətləri bütün bunlarla bitirmi? Əsla yox. Ümummilli lider Heydər Əliyev Azərbaycan müstəqilliyini əbədiyyətə daşıyacaq güclü dövlət modelini qurdu. Burada mərkəzləşdirilmiş hakimiyyət sabitliyin təminatı kimi özünü təsdiqlədi. Heydər Əliyev ölkəsinin xilaskarı kimi bu hakimiyyətin simvoluna çevrildi. Azərbaycan beynəlxalq aləmdə hörmətlə qəbul edildi.

Unutmaq olmaz ki, siyasi elmdə avtoritet həm də hakimiyyətin forması və mənbəyi hesab olunur. Hakimiyyət liderlikdir, əxlaqi keyfiyyətlərinə və ya işgüzar səriştəsinə görə hakimiyyət altında olanlar tərəfindən könüllü olaraq tanınan hakimiyyət hüququdur. Heydər Əliyev bu hakimiyyət hüququndan Azərbaycan dövlətinin müstəqilliyini əzəmətə, qüdrətə gətirdi və əbədiyyətə qədər yaşamaq üçün ona yol nişan verdi, səmt göstərdi.

Ulu öndər Heydər Əliyevin müstəqilliyimizə töhfəsi təkcə sabitləşmə deyil, həm də müasir Azərbaycanın üzərində dayandığı strateji əsasların yaradılmasıdır: güclü hakimiyyət, enerji suverenliyi, geosiyasi praqmatizm, azərbaycançılıq və əlbəttə bu gün bütün dünyaya nümunə göstərilən tolerantlıq. Ona görə də 15 İyun sadəcə bayram, bir tarix deyil. Müasir Azərbaycan dövlətçiliyinin legitimliyinin əsaslandığı ideoloji simvol statusu almış bir gündür.

2020-ci ildə Ali Baş Komandan, Respublika Prezidenti və ən əsası Heydər Əliyevin özü kimi inandığı lider İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın 44 günlük İkinci Qarabağ müharibəsində möhtəşəm Zəfərindən sonra isə bu bayram yeni məna kəsb edir. Bu gün bu, təməli Heydər Əliyev tərəfindən qoyulmuş siyasi modelin həyat qabiliyyətinin sübutu olaraq qəbul edilməlidir: güclü dövlət, güclü ordu, beynəlxalq ittifaqlar və iqtisadi müstəqillik.

Milli Qurtuluş Günü həm də işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən irimiqyaslı infrastruktur layihələr və Azərbaycanın regional liderliyi fonunda “Heydər dövrü” ilə “İlham dövrü” arasındakı davamlılığı vurğulayır. Ona görə də 15 İyun unudulmaz tarixdən daha çox, ölkənin müstəqillik uğrunda dönüş nöqtəsində etdiyi tarixi seçimin simvoludur. O, eyni zamanda tarixin siyasi mədəniyyəti necə formalaşdırdığını və dövlət ideologiyasının milli kimliyin elementinə çevrilə biləcəyini göstərir.

15 İyun həm də tarixin ibrət dərsidir. Suverenliyin qiyməti, şəxsiyyətin tarixdəki rolu, siyasi sabitliyin kövrəkliyi və əhəmiyyəti haqqında ibrət dərsi. Nə tarix, nə xalqımız bunu əsla unutmamalıdır.

*Məhərrəm SƏFƏRLİ,*
*Həsən bəy Zərdabi mükafatı laureatı, Beynəlxlaq Jurnalistlər Federasiyasının üzvü*

# Tarix yaradan və yazan lider



**1993-cü il iyun ayının 15-də Azərbaycan Ali Sovetinin sədri seçilən Heydər Əliyev parlament tribunasından bəyan etmişdi:**

“Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm.

Ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm”.

Bu sözlər XX əsrdə dövlət müstəqilliyini ikinci dəfə bərpa etmiş Azərbaycanın inkişaf konsepsiyası, Heydər Əliyevin isə həyat kredosu idi. Ş.Monteskye 1711-ci ildə türklər barədə yazmışdı ki, dünyanın heç bir xalqı şöhrəti və əzəməti ilə onlarla yarışa bilməz: “Onlar türk adlanıb Avropada, Asiyada və Afikada nəhəng fatehliklər edib dünyanın üç qitəsində ağalıq edirlər. Bu cəngavər xalq öz gündəlik şöhrəti ilə məşğul olub, əbədi məğlubedilməzliyinə inanıb keçmiş qələbələrinin əbədiləşdirilməsi qayğısına qətiyyən qalmamışdır”.

İlk ixtisası memar olan türk lideri XX əsrin son qərinəsində müstəqil Azərbaycan dövlətinin qurucusu oldu. Ali tarixçi təhsili almış həmin dahi şəxsiyyət xalqının ən yeni tarixini yazdı. Dövlət təhlükəsizliyi generalı olmuş bu soydaşımız müstəqil dövlətçiliyimizi qorudu və əbədiləşdirdı. Bütün bunların müəllifi olan Heydər Əliyev fenomeni dünyanı heyran qoymuş türk xarakterinin əzəmətini zəmanəmizin ən uca meyarları səviyyəsində bütün dünyaya nümayş etdirdi.

Bu rəşadətin müəllifi dünyaya hökm edən sovet superdövlətinin ali rəhbərliyinə yüksəlmiş qüdrətli türk oğlu Heydər Əliyev oldu Bu insan Azərbaycanda ali səlahiyyət sahibi olduğu andan -1969-cu ildən yurdumuzun ictimai-siyasi, sosial-iqtisadi və mədəni quruculuq tarixində yeni mərhələ başlandı. Azərbaycanı kərpic-kərpic tikilmiş, nəsillərdən nəsillərə yadigar kimi ötürülmüş əzəmətli bir binaya bənzədən Heydər Əliyev bu binaya öz payını qoyaraq onu müstəqil dövlətin banisi kimi ucaltdı. Heydər Əliyev və Azərbaycan adı XX əsrin 60-cı illərindən həmişə qoşa çəkilməyə başladı.

Heydər Əliyevi ən çox maraqlandıran məsələlərdən biri də Azərbaycan tarixinin öyrənilməsi, tədqiqi və təbliği idi. Heydər Əliyev tarixi təhrif etmədən, olduğu kimi yazmağın vacibliyini xatırladırdı. O, 1997-ci ildə Elmlər Akademiyasında görüşdə: “Tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq lazımdır. O cümlədən mədəniyyətimizin, ədəbiyyatımızın, elmimizin tarixi lazımdır” söyləməsi, Azərbaycanın çoxəsrlik tarixinin dərindən tədqiqinin vacibliyini vurğulayaraq “bizim tariximiz – həm qədim tariximiz, həm orta əsrlər tariximiz, həm də son dövrlərin, yəni XVIII, XIX və XX əsrlərin tarixi istənilən səviyyədə yazılmayıb” deməsi tarix elminin mühüm problemlərinin obyektiv tədqiq edilməsi sahəsində mühüm elmi metodoloji əhəmiyyət kəsb edən konsepsiya olub.

Ulu öndərin azərbaycanlıların soyqırımı, Qərbi Azərbaycan tarixinin öyrənilməsi, Azərbaycanın İran tərəfindən işğalı, Şimali Azərbaycan xanlıqlarının Rusiya imperiyası tərəfindən zəbt olunması, 1918-1920-ci illərdə Şimali Azərbaycanda yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti dövləti tarixinin həqiqətlərinin üzə çıxarılması və s. məsələlərin zəruriliyinin tarix elminin mühüm bir problemi kimi rəsmi şəkildə əsaslandırması - bu sahəyə aid fərman və sərəncamları xalqımıza böyük elmi xidmət nümunəsidir.

Heydər Əliyev 1930-cu illərdə repressiyaların qurbanı olmuş, “xalq düşməni” damğası vurulmuş görkəmli şəxsiyyətlərimizin adlarının tariximizə qaytarılmasına da böyük diqqət yetirirdi. Millətçi damğası vurulan Nəriman Nərimanov Heydər Əliyevin qətiyyəti nəticəsində xalqımıza qaytarıldı, onun 100 illik yubileyi təntənə ilə qeyd edildi, Bakıda və Ulyanovskda əzəmətli heykəli qoyuldu, Bakıda və Tbilisidə ev muzeyləri açıldı.

Azərbaycan elminin ən parlaq nümayəndələrindən olan akademik Yusif Məmmədəliyevin abidəsinin açılışı, Türk dünyasının böyük ədibi Hüseyn Cavidin nəşinin Azərbaycana gətirilməsi, onun doğma Naxçıvanda dəfni, məqbərə inşa edilməsi, xalqımızın qəhrəmanlıq dastanı “Kitabi Dədə Qorqud”un 1300 illiyinin geniş miqyasda qeyd olunması, bir əsrə yaxın zindanda qalmış Cənub mövzusu – Təbriz mövzusunun Heydər Əliyevin qayğısı sayəsində azadlığa çıxması, 1990-1993-cü illərdə onun qətiyyəti nəticəsində muxtar respublikanın adından “sovet”, “sosialist” sözlərinin çıxarılması, AXC-nin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul olunması, 20 Yanvar faciəsinə siyasi qiymət verilməsi, 31 dekabrın “Dünya azərbaycanlılarının həmrəyliyi günü” kimi qəbul olunması bu insanın Vətən sevgisinin zirvəsi idi.

Müstəqilliyimizin ilk illərində Azərbaycanda cərəyan edən xaotik proseslər təsdiq edirdi ki, dövlət müstəqilliyimizi yaşatmaq kimi ağır bir missiyanın öhdəsindən yalnız möhkəm siyasi iradəsi olan bir rəhbər gələ bilər. 1993-cü ildə AXC–Müsavat cütlüyünün dövlət idarəçiliyindəki kobud səhvlərinin məntiqi nəticəsi olaraq Azərbaycan dağılmaq və parçalanmaq təhlükəsi ilə üzləşdiyi bir vaxtda xalqımız ümummilli lider Heydər Əliyevə üz tutdu. Heydər Əliyev də çox gözəl bilirdi ki, o ağır, qarışıq günlərdə özünü qabağa verməsə, kövrək olan müstəqillik əldən gedəcək, dövlətçilik məhv olacaq, xalq isə didərgin düşəcək. Ulu öndərin böyüklüyü həm də onda idi ki, hakimiyyətin ona qarşı həyata keçirdiyi təxribatları, qarayaxma kampaniyasını bir kənara qoyub o ağır və keşməkeşli günlərdə xalqın köməyinə tələsdi.

1993-cü ilin iyunun 15-də Ali Sovetin sədri, oktyabr ayında Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə müstəqil Azərbaycan dövlətinin tarixində yeni bir dövr başlandı. Müstəqilliyimizin möhkəmləndirilməsinin birinci mərhələsi olan 1993-2003-cü illərdə dünyanın demokratk qüvvələrinin və aparıcı təşkilatlarının Azərbaycana olan münasibəti əsaslı surətdə dəyişdi.

Ulu öndər Heydər Əliyevin yenilməz siyasi iradəsi sayəsində ölkədə ictimai-siyasi sabitlik bərpa olundu, həyata keçirilən məqsədyönlü siyasət nəticəsində qanunun aliliyi, insan haqlarının qorunması kimi demokratik prinsiplər bərqərar edildi. Azərbaycan daxilində yaranmış nisbi sakitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək 1994-cü lin sentyabrında “Əsrin müqaviləsi” imzalandı və bu Heydər Əliyev tərəfindən işlənib hazırlanmış müstəqil Azərbaycanın iqtisadi inkişaf strategiyasının həyata keçirilməsinin parlaq təzahürü idi.

Ümummilli lider Heydər Əliyevin adı Azərbaycanın müasir tarixinə müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının yaradıcısı kimi daxil olmuşdur. Onun rəhbərliyi ilə yaradılmış və 1995-ci il noyabrın 12-də ümumxalq referendumunda qəbul olunmuş Azərbaycan Respublikasının ilk milli Konstitusiyası Azərbaycanın demokratik dəyərlərə sadiqliyinin, demokratik hüququ dövlət və vətəndaş cəmiyyəti quruculuğunda israrlı olduğunun təsdiqi oldu. Məhz bu Konstitusiyaya əsasən ölkədə demokratik, hüquqi, dünyəvi və unitar dövlət qurulması üçün 400-dək qanun qəbul edilmişdir.

Milli tariximizin ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin çözülməsi Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. Problemin həllinin əsasını beynəlxalq hüquq normaları, dövlətlərin ərazi bütövlüyünə hörmət, qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri təşkil edirdi. Onun dünya təcrübəsinin bütün nailiyyətlərini, sivil beynəlxalq normaları özündə əks etdirən sülhsevər xarici siyasətinin əsasında ilk növbədə, milli müstəqilliyin möhkəmləndirilməsi, dövlətlərin hüquqlarına hörmətlə yanaşılması, bütün mübahisəli məsələlərin sülh və danışıqlar yolu ilə həll edilməsi, qarşılıqlı surədə faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq yaradılması, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətlərin aradan qaldırılması prinsipləri dayanırdı.

Ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olunması, ATƏT-in 1996-cı il Lissabon görüşündə atılan cəsarətli addım, 1993–2000-ci illərdə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişənin həlli ilə əlaqədar ABŞ rəhbərliyi ilə 18, Fransa rəhbərliyi ilə 16, Rusiya Federasiyası rəhbərliyi ilə 28, Türkiyə Cümhuriyyəti rəhbərliyi ilə 78 dəfə Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpası istiqamətində müzakirələr aparması Heydər Əliyev dövlətçilik konsepsiyasında əsas yer tuturdu.

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyə qayıdışının əsas qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edirdi. Heydər Əliyevin müstəqillik konsepsiyasının yaşarlığı və həyatiliyi fikir tariximizdə yeri və önəmliliyini şərtləndirən amillər arasında konkret və real cəmiyyətin iqtisadi, siyasi, sosial və mənəvi-əxlaqi sahələrinin bütün kompleks problem və qayğıları ilə bərabər, real Azərbaycan gerçəkliyi dayanırdı.

Ümummilli liderin müstəqillik konsepsiyasının təhlilindən aydın olur ki, milli müstəqillik millətin hər bir nümayəndəsinin şüurunda və psixologiyasında öz millətinin keçmişi, bugünü və gələcəyi barədə həqiqətləri dərk etmədən mümkün deyildir. Heydər Əliyevin nəzərincə, müstəqillik xalqın mənəviyyatını bir mənəvi hadisə kimi, daim hər bir vətəndaşın milli şüurunda möhkəm yer tutmalıdır.

Heydər Əliyevin müstəqillik konsepsiyasının strukturunda Vətən, Dövlətçilik, Suverenlik, Vətənpərvərlik anlayışları önəmli yer tutur. Heydər Əliyevin fikrincə, dövlətçilik, vətənçilik kimi fenomenlər azərbaycançılıq ideologiyasından bəhrələnməli və bunlar öz növbəsində azərbaycançılığın sosial-milli məzmununun saflığını qorumalıdırlar.

Ümummilli lider maarifçilik fəlsəfəmizin tarixi-mənəvi dəyərlərindən bəhrələnərək Vətən, millət və milli dövlət anlayışlarını azərbaycançılıq ideyası çərçivəsində vəhdətdə götürərək bu sintezi milli bütövlüyün təmin edilməsi, onun həmrəylik ruhunda inkişaf etdirilməsinin mühüm sosiomədəni mexanizmi kimi işləmiş, onun azərbaycançılıq ideyası müharibə gedən ölkəni fəlakətdən çıxarmaq üçün millət və cəmiyyət qarşısında həmrəy qüvvələri birləşdirmək simvoluna, “azərbaycanlının Azərbaycandan başqa vətəni yoxdur” kəlamı nəinki ölkə daxilindəki vətəndaşlarımız, hətta xaricdəki soydaşlarımız üçün də milli həmrəylik manifestinə çevrilmişdi.

Qüdrətli milli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətini on il idarə etdi. Minilliklər tarixi olan uca Qafqaz zirvəsindən baxarkən bu on il kiçik bir an olsa da, böyük şanlı yolun ilk addımı kimi tarixləşdi. Hər il Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı kimi tarixləşmiş 15 iyun Milli Qurtuluş Gününü qeyd edərkən özümüzə sual veririk. Bu gün bizə nə vermişdir, nə üçün bu günü belə ruh yüksəkliyi ilə qeyd edirik? Sualın cavabı aydındır. Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı Azərbaycanı vətəndaş müharibəsindən xilas etdi, yenicə qurulmuş kövrək addımlı müstəqil Azərbaycan Respublikası yaşamaq şansı qazandı.

“Mən fəxr edirəm ki, azərbaycanlıyam”- deyən Heydər Əliyev xalqının ürəyində milli-mənəvi dəyərləri yaşatmaq üçün yandırdığı əbədi bir məşəl, ucaltdığı bayraq Ulu öndər Heydət Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanın bütün guşələrində dalğalanır.

*Mais ƏMRAHOV,*
*AMEA Tarix və Etnologiya İnstitutunun şöbə müdiri, professor*

# Milli Qurtuluş Günü təntənələri

**Azərbaycan xalqı öz milli qurtuluş mübarizəsini yad edərkən, ilk növbədə, bu tarixin yaradıcısı, Ümummilli lider Heydər Əliyevi dərin minnətdarlıq hissilə xatırlayır, dahi şəxsiyyətin ölməz ruhu qarşısında baş əyir. 32 il əvvəl, 1993-cü ilin iyununda müstəqilliyimiz məhv olmaq təhlükəsi ilə üzləşdiyi bir vaxtda məhz Ulu öndərin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycanda vətəndaş qarşıdurmasına son qoyuldu, ölkəmiz xaosdan, siyasi çəkişmələrdən, sosial-iqtisadi böhrandan xilas oldu.**

15 İyun Milli Qurtuluş Günü münasibəti ilə Azərbaycanın bölgələrində keçirilən bütün tədbirlərdə dahi siyasətçi Heydər Əliyevin xalqımızın istiqlalının qorunması və möhkəmlənməsi, ölkəmizin sürətli inkişafı və tərəqqisi naminə gördüyü titanik işlərdən söz açılmışdır. Qədirbilənliklə qeyd edilmişdir ki, Ulu öndərin müdrik siyasəti hazırda Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir.

## Mingəçevir

Mingəçevir Şəhər İcra Hakimiyyəti və YAP şəhər təşkilatı birgə “15 iyun 1993-cü il Azərbaycan dövlətçiliyinin xilası günüdür” mövzusunda konfrans keçirib. Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov mərasimdə geniş məruzə ilə çıxış edərək ötən əsrin sonlarında ölkəmizdə baş verən xaos va anarxiyadan, hakimiyyət çəkişmələrindən, mövcud böhran və təhlükələrin qarşısının alınmasında, Azərbaycanın müstəqilliyinin qorunmasında əvəzsiz xidmətləri olan, xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanı məhv olmaq təhlükəsindən xilas edən Heydər Əliyevin xidmətlərindən söhbət açıb. Qeyd edib ki, Ümummilli liderin başladığı uğurlu siyasi xətti qətiyyət və bacarıqla davam etdirən dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan regionda söz sahibidir, dünya dövlətləri tərəfindən təqdir edilir.



Sonra YAP şəhər təşkilatının sədri sədri Bəxtiyar Mustafayev “Ulu öndər Heydər Əliyevin 1993-cü ilin 15 iyununda siyasi hakimiyyətə qayıdışı tarixi zərurət idi”. Qərbi Azərbaycan lemasının Mingəçevir şəhər üzrə nümayəndəliyinin rəhbəri, əməkdar müəllim Mayıl İsmayılov "15 iyun 1993-cü il müasir dövlətçilik tariximizin ən parlaq səhifəsidir" və digər natiqlər məruzələrlə çıxış ediblər.

## İmişli



İmişli Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə rayonun Heydər Əliyev Mərkəzində "Heydər Əliyev xalqımızın xilaskarıdır" mövzusunda elmi-praktik konfrans keçirilib. Tədbir iştirakçıları Ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Konfransda çıxış edən İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev bildirib ki, 15 İyun adi bir tarix deyil, Azərbaycanın müstəqil dövlət kimi varlığının və inkişaf yolunun əsasını qoyan dönüş nöqtəsidir. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışı ölkəmizin xaosdan, parçalanmadan xilas olunmasına səbəb olub və sabit, dayanıqlı inkişafın əsası qoyulub.

Digər çıxış edənlər də Milli Qurtuluş Gününün əhəmiyyətindən, Heydər Əliyev siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışıblar. Bildirilib ki, bu müdrik siyasət Azərbaycanın həm daxili sabitliyinin, həm də beynəlxalq nüfuzunun əsas dayağıdır.

## Goranboy

Goranboy Olimpiya İdman Kompleksində “Konstitusiya və Suverenlik İli” ümumrayon tədbirləri çərçivəsində keçirilən bu toplantıda rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev çıxış edərək deyib ki, Azərbaycanda 1969-cu ildən başlanan yüksəliş ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, istər 1969-1982-ci illərdə, istərsə də 1993-2003-cü illərdə Azərbaycan sözün əsl mənasında inkişafın və tərəqqinin mərkəzinə çevrilmişdi.

Rayon icra hakimiyyətinin başçısı daha sonra çıxışına davam edərək vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ata vəsiyyətinə ləyaqətlə əməl edərək torpaqlarımızın düşməndən azad olunmasına nail olub, ölkəmizin suverenliyini bərqərar edib.

Toplantıda Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev, "Xalq qəzeti"nin bölgə müxbiri. Əməkdar jurnalist Hamlet Qasımov, YAP rayon təşkilatının sədri Samir Qocayev və başqaları çıxış edərək Milli Qurtuluş Gününü xalqımızın həyatında yeni bir dövr kimi səciyyələndiriblər, Ulu öndərin yenidən hakimiyyətə gəlişini vətəndaş müharibəsinin qarşısının alınmasında mühüm rol oynadığını söyləyiblər, xatirələrini danışıblar.

## Balakən

15 İyun Milli Qurtuluş Günü Balakəndə də təntənəli şəkildə qeyd edilib. Yeni Azərbaycan Partiyası rayon təşkilatının inzibati binasında 15 İyun Milli Qurtuluş Gününə həsr olunan “Milli dövlətçiliyimizin xilaskarı” mövzusunda konfrans keçirilib. Konfransın əvvəlində Dövlət Himni səsləndirilib, şəhidlərimizin və Ulu öndərin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Konfransı giriş nitqi ilə açan Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev 1993-cü ilin iyun hadisələrinin Azərbaycan tarixində dönüş nöqtəsi olduğunu vurğulayaraq, Ulu öndər Heydər Əliyevin ölkəni siyasi böhrandan xilas etdiyini və sabitlik, inkişaf yoluna çıxardığını bildirib. Qeyd edib ki, müasir müstəqil Azərbaycanın təməlləri məhz həmin dövrdə qoyulub, bu gün qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır.

Milli Qurtuluş Günü ilə əlaqədar rayonun Heydər Əliyev adına mədəniyyət və istirahət parkında möhtəşəm konsert proqramı təşkil olunub.

## Göyçay

Göyçayda “15 İyun - Milli Qurtuluş Günü" münasibətilə "Qurtuluşdan Zəfərə” adlı elmi-praktik konfrans keçirilib.

Toplantıda rayon icra hakimiyyətinin başçısı Natiq Ağayev, YAP Göyçay rayon təşkilatının sədri Sahib Şükürov, idarə, müəssisə və təşkilatların nümayəndələri iştirak ediblər.

YAP Göyçay rayon təşkilatının sədri Sahib Şükürov çıxış edərək 15 iyun tarixinin Azərbaycan xalqı üçün böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gün olduğunu vurğulayıb, bu tarixi günün yaranmasının Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa-dayaq olan Ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. Göyçay Dövlət İdarəetmə və Texnologiya Kollecinin müəllimi Samirə İsmayılova, rayon Gənclər Evinin əməkdaşı Lalə Məmmədova məruzələrlə çıxış ediblər. Sonra YAP sıralarına yeni daxil olan bir qrup gəncə üzvlük vəsiqələri təqdim edilib və rayonun ictimai-siyasi həyatında fərqlənən partiya veteranlarına yubileyləri münasibətilə Fəxri fərmanlar və hədiyyələr təqdim edilib.

## Zaqatala

Milli Qurtuluş Günü münasibətilə Zaqatala şəhərindəki Heydər Əliyev Mərkəzində "Suveren Azərbaycan və Heydər Əliyev" mövzusunda elmi-praktik konfrans keçirilib.

Konfransda rayon icra hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Vəfa Süleymanovanın məruzəsi dinlənilib. Məruzədə 1993-cü ilin iyun hadisələri ərəfəsində respublikada yaranmış ağır vəziyyət, hökm sürən hərc-mərclik, baş verən ictimai-siyasi proseslər geniş təhlil olunub.

Bildirilib ki, XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üz-üzə qalmışdı. 1993-cü ilin 15 iyununda xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev öz müdrik siyasəti ilə Azərbaycan dövlətçiliyini məhv olmaq təhlükəsindən xilas edə bildi. Ulu öndər müasir tariximizə dövlətçiliyimizin xilaskarı və qurucusu kimi daxil oldu. Bu səbəbdən də 15 İyun Milli Qurtuluş Günü, eyni zamanda, Azərbaycan dövlətçiliyinin xilası günüdür.

Konfransda Zaqatala rayonlararası mühafizə bölməsinin rəisi Şaiq Məmmədov, rayon Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin rəisi Ruslan Poladov və Heydər Əliyev Mərkəzinin direktoru Famil Rəhimov çıxış edərək, Milli Qurtuluş Gününün müstəqilliyimizin tarixinə şanlı səhifə kimi yazıldığını vurğulayıblar.

*İlqar HƏSƏNOV,*
*Hamlet QASIMOV,*
*Məsaim ABDULAYEV*
*XQ*

# Milli birliyin xilaskarlıq zirvəsi

**Elə tarixlər var ki, xalqın həyatına insanın öz bioqrafiyasına yazıldığı kimi ağrı, mübarizə, həm də ləyaqətlə yazılır. 15 iyun məhz belə günlərdəndir. Bu gün təkcə rəsmi bayram deyil, həm də Azərbaycan xalqının milli qurtuluş, dirçəliş və oyanışının rəmzidir.**

Məhz bu gün Azərbaycan xalqı dövlətçiliyin dağılması təhlükəsi ilə üz-üzə qalaraq ümummilli lideri Heydər Əliyevə üz tutdu. Son dərəcə mürəkkəb siyasi vəziyyətdə onun müdrikliyi, qətiyyəti və nüfuzu sayəsində Azərbaycanda sabitliyin və yeni başlanğıcın təməli qoyuldu. 1991-ci ildə müstəqilliyini əldə etdikdən sonra Azərbaycan dərin siyasi böhran girdabına düşdü. Ölkəni xaos, hakimiyyət uğrunda siyasi mübarizə və iqtisadi tənəzzül bürüdü. Cəmiyyət səfalətin astanasında, hakimiyyət isə dövlətçiliyin itirilməsi təhlükəsi ilə üz-üzə idi. 1993-cü ilin yayında vəziyyət kritik həddə çatdı: ölkə vətəndaş müharibəsi təhlükəsi ilə qarşı-qarşıya qaldı. Məhz bu an xalq tarixi yaddaşına və özünüqoruma instinktinə söykənərək özündə qətiyyət, müdriklik və milli maraqları təcəssüm etdirən şəxsə – Heydər Əliyevə üz tutdu.



Onun Naxçıvandan Bakıya qayıdışı siyasi cəsarət aktı idi. 1993-cü il iyunun 9-da Heydər Əliyev paytaxta gəldi və iyunun 15-də Milli Məclisin sədri seçildi. Həmin gün müasir Azərbaycanın tarixinə həmişəlik Milli Qurtuluş Günü kimi yazıldı. O çətin günlərdə polkovnik Surət Hüseynovun komandanlığı altında zirehli texnika kolonu Bakıya doğru hərəkət edirdi. Vətəndaş müharibəsi təhlükəsi real idi. Amma Heydər Əliyev tərəddüd etmədən Gəncəyə getdi, orada üsyançılarla görüşdü. Diplomatik bacarığı, cəsarəti və sarsılmaz nüfuzu sayəsində qan tökülməsinin qarşısını aldı, dövlətçiliyi qorudu.

Onun hakimiyyətə gəlişi şəxsi qələbə deyildi. Bu, xaos əvəzinə sabitliyi, dağılma əvəzinə dövlətçiliyi, hakimiyyətsizlik əvəzinə lideri seçən bir xalqın ümumi zəfəri idi.

Heydər Əliyev çox qısa müddətdə dövlət institutlarının dağılmasının qarşısını aldı, sosial gərginliyi aradan qaldırdı, Azərbaycanın beynəlxalq nüfuzunu bərpa etdi, müstəqil, sabit və güclü dövlətin qurulması prosesi başlandı. Əslində, bu, yeni bir dövrün başlanğıcı idi. Bu dövr Azərbaycanı dünya tərəfindən müstəqil geosiyasi subyekt kimi tanınan bir dövlətə çevirdi.

Milli Qurtuluş Günü ¬¬ həlledici anda tərəddüd etməyən, təslim olmayan, ləyaqətli lider ətrafında birləşməyi bacaran xalqın gücünün qələbə çaldığı gündür. Bu gün həm də ölkəni xilas edən tarixi şəxsiyyətin danılmaz xidmətinə ümumxalq ehtiramı günüdür.

2023-cü ildə nəşr olunan “Millətin Atası” adlı elmi monoqrafiya kitabımızda yazıdığımız kimi, Heydər Əliyevin hekayəsi təkcə bir insanın həyatı deyil. Bu, oddan keçmiş, lakin ləyaqətini itirməmiş bir dövlətin tarixidir.

Azərbaycan xalqı böyük xalqdır və yalnız Heydər Əliyev kimi şəxsiyyətlər sayəsində tarixdə öz layiqli yerini qoruyub saxladı. Bəli, 15 iyun adi təqvim günü deyil, millətin öz gələcəyini seçdiyi gündür.

1993–1996-cı illər ərzində Heydər Əliyev əvvəlki hakimiyyətin utopik və xaotik qərarlarının fəsadlarını aradan qaldırmaq üçün sistemli şəkildə çalışdı. Eyni zamanda onun səyləri yalnız yığılıb qalmış problemlərin həlli ilə məhdudlaşmırdı. Bu səylər gələcək inkişaf, dövlətçiliyin möhkəmləndirilməsi, ölkənin siyasi böhrandan çıxarılması məqsədinə yönəlmişdi. Ulu öndər işsizliyin azaldılması, vətəndaşlarda dövlətin gələcəyinə qarşı məsuliyyət hissinin formalaşdırılması məsələlərinə xüsusi önəm verirdi. Bütün bu proseslər onun şəxsi nəzarətində idi.

1993–2003-cü illər dövrü gənc Azərbaycan Respublikasının sınaq və təhlükələrlə üzləşdiyi onillik oldu. Siyasi təzyiqlər, daxili böhranlar, xaricdə qeyri-sabitlik — bütün bunlar rəhbərdən xüsusi bacarıq, əlahiddə liderlik tələb edirdi. Heydər Əliyevin nüfuzu və vaxtında verilmiş qərarları ölkənin nüfuzunun və dövlətçiliyin itirilməsinə yuvarlanmasına imkan vermədi.

Bu onillik ərzində Azərbaycan müstəqilliyin möhkəmləndirilməsi, siyasi həmrəylik, genişmiqyaslı iqtisadi islahatlar və siyasi məkanın humanistləşdirilməsi baxımından çətin, lakin səmərəli bir yol keçdi. Onun rəhbərliyi altında 1994-cü ildə Azərbaycan Silahlı Qüvvələri işğal olunmuş bəzi əraziləri azad etdi. Lakin daha köklü dəyişikliklər və böyük qələbələr üçün sabitlik və ordunun modernləşdirilməsi tələb olunurdu.

1994-cü il mayın 12-də ATƏT-in Minsk qrupu (ABŞ, Rusiya, Fransa -red.) çərçivəsində Ermənistanla Azərbaycan arasında atəşkəs rejimi əldə olundu. Heydər Əliyevin həmin dövrdəki taktikasını belə ifadə etmək olar: “Müharibəni qazanacaq qədər güclü, ondan yayınacaq qədər müdrik olmaq lazımdır.”

Heydər Əliyevin qətiyyəti və strateji düşüncəsi sayəsində Azərbaycan qısa müddət ərzində təkcə sosial gərginliyi aradan qaldırmadı, həm vətəndaş müharibəsindən yayına, həm də müasir, güclü və müstəqil dövlətin qurulmasına başlamağı bacardı.

O vaxtdan üç onillik keçib və bu dövr ərzində Azərbaycan dərin və ciddi dəyişikliklərə imza atdı: ictimai-siyasi həyat sabitləşdirildi; demokratik institutlar yaradıldı; dövlət idarəçiliyi gücləndirildi; yeni ictimai davranış normaları formalaşdı; vətəndaş cəmiyyəti kimliyi təşəkkül tapdı.

1994-cü ildən etibarən Qarabağ cəbhəsində atəşkəs rejiminə əməl olunduğu şəraitdə ölkənin inkişafında strateji istiqamət müəyyən edildi: neft siyasəti. Bu siyasət “Əsrin müqaviləsi” ilə reallaşdı. Azərbaycanın beynəlxalq arenadakı rolu dəyişdi. Ölkəmiz “Böyük İpək Yolu” layihəsində iştirakı sayəsində regional logistika mərkəzinə çevrildi.

Təsirli xarici siyasət modeli formalaşdı, ordu gücləndirildi. Bütün bunlar isə məqamında dövlətin başında dayanan böyük vətənpərvər və islahançının – Ümummilli lider Heydər Əliyevin sayəsində mümkün oldu. Heydər Əliyev yalnız praktiki deyil, eyni zamanda konseptual baxımdan da konsolidasiya olunmuş demokratiya modelini formalaşdırdı və dövlətin gələcək inkişafının əsaslarını qoydu. Onun prezidentliyi dövründə Azərbaycan gələcəyə sıçrayış üçün möhkəm təməl qazandı. O, sadəcə bir siyasətçi kimi deyil, eyni zamanda, millətin rəmzinə, ləyaqət və milli dirçəlişin təcəssümünə çevrildi. Onun arzusu sadə və ali idi: siyasi və ideoloji baxışlarından asılı olmayaraq hər bir azərbaycanlının xoşbəxtliyi.

Yaxşı lider insanlara özünə inanmağa vadar edir. Böyük lider isə onlara bu inamı gerçəyə çevirməkdə kömək edir. Heydər Əliyev milyonlarla insanı birləşdirərək onları vəhdət halında xalqa, millətə çevirdi.

Əminik ki, Heydər Əliyev bu gün bizim aramızda olsaydı, tərəddüd etmədən Ukrayna böhranının həllində vasitəçi missiyasını üzərinə götürərdi. Çünki döyüş şəraitində, dərin vətəndaş qarşıdurması dövründə dövləti idarə etmək onun özünəməxsus məsuliyyətlə qəbul edəcəyi çağırış olardı. Bu gün Ukrayna çoxsaylı problemlərlə üz-üzədir və onların həlli siyasi iradə, müdriklik tələb edir. Çox arzu edirik ki, bu çətin məqamda ukraynalılar və onlarlın rəhbərləri 32 il əvvəl Heydər Əliyevin sayəsində Azərbaycan xalqının göstərdiyi gücü özlərində tapsınlar.

Ulu öndərin şəxsi keyfiyyətləri ayrıca yazının mövzusudur. Qısaca onu deyək ki, Heydər Əliyev həm özündən, həm də komanda üzvlərindən kompromissiz tələbkar idi. Onun işgüzarlıqla müşayiət olunan diplomat sürəti ilə yalnız həqiqi peşəkarlar ayaqlaşa bilirdi.

Məhz onun rəhbərliyi altında dövlət idarəetmə sisteminin yeni modelə transformasiyasına, Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üzrə danışıqlara, milyonlarla qaçqının həyatının normallaşmasına başlanıldı.

Bu gün Azərbaycanda bərqərar olmuş sülh yalnız xarici düşmənlərlə deyil, həm də daxili təhdidlər — terrorçular, cəmiyyəti parçalamaq istəyənlərə qarşı gərgin mübarizənin nəticəsidir. Ötən müddətdə revanş cəhdləri liderin siyasi iradəsi və xalqın dəstəyi ilə qarşılanıb.

Biz ümummilli liderin arzusuna – Vətəni azad, bütöv və firavan görmək istəyinə yaxınlaşmışıq. İrəlilədikcə azərbaycançılıq ideologiyasını yaradan şəxsiyyətin ləyaqət və kimliyinin miqyasını daha aydın dərk edirik. Heydər Əliyev hakimiyyətin davamlılığı üçün möhkəm təməl qoydu. Dövlət quruculuğu sahəsində onun gərgin əməyi Azərbaycanı müasir, sürətlə inkişaf edən ölkəyə çevirməyə imkan verdi. İndi ölkəmiz onun layiqli varisi və davamçısı – İlham Əliyevin rəhbərliyi altında inamla irəliləyir.

Heydər Əliyev yalnız dövlətçiliyi deyil, həm də strateq və düşüncə adamı kimi, həyatında konsolidasiya olunmuş demokratiyanın yaşaya bilən modelini formalaşdıran dəyər sistemini həyata keçirdi. Onun prezidentliyi illərində müasir Azərbaycanın inkişafı üçün güclü təməl qoyuldu, sabitlik təmin edildi və ölkənin yeni dövrə sıçrayışı üçün şərait yaradıldı.

Azərbaycan xalqı üçün Heydər Əliyev milli simvola, dirçəlişin, gücün və ləyaqətin təcəssümünə çevrildi. Vətəndaşların dəstəyinə söykənərək, o, dövlətin qatlanmış dizini, xalqın əyilmiş qəddini qaldıra bildi. Yaxşı siyasətçi insanları özünə inanmağa vadar edə bilir. Heydər Əliyev kimi dahi siyasətçi isə insanlara özlərinə inanmaq gücü verir.

O, milyonlarla fərdi insanı birləşdirərək vəhdət içində olan millət yaratdı. Bu məqamda icazənizlə səxsi fikrimizi bildirmək istərdik. Əminik ki, Heydər Əliyev bu gün aramızda olsaydı, Ukrayna böhranının həllində vasitəçi missiyasını üzərinə götürərdi. Çünki müharibə və daxili qarşıdurma şəraitində ölkəni idarə etmək ən yüksək səviyyəli çağırışdır. Və o, bu çağırışı qəbul etmək üçün yenə cəsarət nümunəsi göstərərdi.

Prezident Heydər Əliyev həm özünə, həm də tabeliyindəkilərə qarşı tələbkar idi. Onun iş sürətinə yalnız həqiqi peşəkarlar tab gətirə bilirdi. Diletantlar geri çəkilir, yerini xalqına və dövlətinə xidmət etmək istəyən və bacaranlara verirdilər.

Onun hakimiyyətə gəlməsi ilə idarəetmə sistemi tamamilə transformasiya olundu: milyonlarla qaçqının həyatı normallaşdı, Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair ciddi danışıqlar başlandı. Azərbaycanda qeyri-sabitlik yaratmaq, cəmiyyəti parçalamaq istəyənlərin, terror və çevrilişlərdən çəkinməyənlərin qarşısında Heydər Əliyev və ona güvənən xalq birlikdə lay divar kimi dayandı. Həmin dövrün ölüm-dürüm mübarizəsinin müsbət bəhrəsini bu gün hamımız görürük.

Biz hər il ümummilli liderin böyük arzusunun həyata keçməsinə – Azərbaycanın çiçəklənən, bütöv və müstəqil bir ölkəyə çevrilməsinə yaxınlaşırıq. Və hər il daha da aydın olur ki, məhz Heydər Əliyev milli kimliyin, ləyaqətin və dövlətçiliyin, azərbaycançılıq ideyasının əsasını qoyub.

Ümummilli lider yalnız dövlət qurmaqla kifayətlənmədi. O, həm də ölkədə sabit və məsuliyyətli siyasi kurs ənənəsi yaratdı. 15 iyun tarixi millətin xilası günü kimi tarixə əbədi yazıldı. Məhz həmin gün xalq Heydər Əliyevə müraciət etdi və onun hakimiyyətə qayıdışı yeni dövrün başlanğıcı oldu.

Bu gün Azərbaycan nüfuzlu beynəlxalq təşkilatların fəal üzvüdür. İlham Əliyevin Avropa platformalarında parlaq çıxışları, erməni nümayəndələri ilə debatlarda nümayiş etdirdiyi, hər bir azərbaycanlıya qürur hissi yaşadan qətiyyətli mövqeyi 32 il bundan əvvəl başlanan böyük işin davamıdır.

*Arif QULİYEV,*
*Ukrayna Ali Təsil Akademiyasının akademiki*

*Qara HƏSƏNOV,*
*Boqdan Xmelnitski adına Melitopol Dövlət Pedaqoji Universitetinin aspirantı*

# Ulu öndərin adını daşıyan hərbi liseydə məzun günü

**Milli Qurtuluş Günü ərəfəsində Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyin 25-ci buraxılışı münasibətilə təntənəli mərasim keçirilib. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbirdə iştirak edib.**



Heydər Əliyev adına Hərbi Liseyin rəisi, polkovnik Rəşad Əsgərov səlahiyyətli nümayəndəyə mərasimə hazırlıq barədə raport verib. Səlahiyyətli nümayəndə kursantları salamlayıb. Ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, müasir, güclü və peşəkar ordu müstəqil dövlətin sütunlarından biridir. Xüsusilə Azərbaycan kimi mürəkkəb coğrafiyada yerləşən bir ölkə üçün ordu müstəqilliyin, suverenliyin və ləyaqətin qoruyucusudur. Bu ordu ulu öndər Heydər Əliyevin şah əsərlərindən biridir. Hələ 1970-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması ilə Azərbaycanın gələcək hərbi elitasının formalaşdırılması prosesi başlayıb.



Səlahiyyətli nümayəndə vurğulayıb ki, Ulu öndərin siyasi kursunu uğurla davam etdirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu regionun ən güclü ordularından birinə çevrilib. Bunun ən parlaq nəticəsi özünü 2020-ci ildə göstərdi. 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu şəhidlərimizin qanı, qazilərimizin canı bahasına tarixi ədaləti bərpa etdi. Bu, sadəcə, hərbi qələbə deyil, bir millətin dirçəlişi, bir xalqın iradəsinin təntənəsi idi.

Fuad Nəcəfli sonda bildirib: “Əziz gənclər! Qarşıda sizi çətin, lakin şərəfli bir yol gözləyir. Bu yolda sizi yalnız bilik, sədaqət və vətənpərvərlik irəli aparacaq. Unutmayın, siz Azərbaycan Ordusunun üzvüsünüz. Siz qalib xalqın övladısınız. Siz şəhidlərin mirasını daşıyırsınız!”.

Heydər Əliyev adına Hərbi Liseyin rəisi, polkovnik Rəşad Əsgərov çıxışında bildirib ki, 44 günlük Vətən müharibəsində və digər hərbi əməliyyatlarda hərbi liseyin məzunları yüksək döyüş və peşəkarlıq nümunəsi göstəriblər. Liseyin məzunlarından 4-ü Vətən Müharibəsi Qəhrəmanı fəxri adına layiq görülüb, 96-sı isə şəhidlik zirvəsinə ucalıb. Hazırda onlarla məzun dünyanın müxtəlif hərbi akademiyalarında – Türkiyə Respublikasında, Rusiya Federasiyasında, İtaliya və Cənubi Koreya kimi inkişaf etmiş ölkələrdə təhsillərini davam etdirirlər.

Vətən müharibəsi şəhidi Şükür Hacıyevin anası Fatma Şükürlü tarixi Zəfərimizin qazanılmasında Heydər Əliyev adına Hərbi Liseyin məzunlarının da böyük rolu olduğunu vurğulayıb, kursantlara təhsillərində uğurlar arzulayıb. Hərbi liseyin məzunu Ağa Əlizadə 25-ci buraxılış məzunları adından savadlı, bacarıqlı və vətənpərvər kursantlar kimi təhsil almalarında əməyi olan komandir və müəllimlərinə, eləcə də göstərdikləri dəstəyə görə valideynlərinə minnətdarlığını bildirib, məzun yoldaşlarını təbrik edib.

Sonra hərbi liseyin fəaliyyətində fərqlənən zabit və müəllimlərə fəxri fərmanlar, məzunlara isə attestat və hədiyyələr təqdim edilib.

Səlahiyyətli nümayəndə hərbi liseyin pedaqoji heyəti ilə görüşüb, kursantların vətənpərvər ruhda, bacarıqlı kadr kimi yetişməsi üçün müəllimlərin üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb, onlara şərəfli fəaliyyətlərində uğurlar arzulayıb.

Kursant Fərid Abbasov təhsil ocağının rəmzi kötüyünə 2025-ci ilin xatirə lövhəsini vurduqdan sonra döyüş bayrağı növbəti buraxılışın kursantlarına təhvil verilib.

Orkestrin müşayiəti ilə hərbi liseyin marşı ifa edilib, şəxsi heyət təntənəli marşın sədaları altında nizami addımlarla tribunanın önündən keçib.

*Səbuhi HƏSƏNOV,*
*“Xalq qəzeti”nin Naxçıvan müxbiri*

# Ümummilli liderin idarəetmə dərsləri

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA)15 İyun  Milli Qurtuluş Gününə həsr olunmuş elmi-praktik konfrans keçirilib.**



Akademiyanın rektoru akademik Urxan Ələkbərov bildirib ki, 1993-cü ildə xalqın iradəsi ilə yenidən siyasi hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev ölkəni parçalanma və vətəndaş qarşıdurmasından xilas etdi, inkişaf yoluna çıxartdı. 15 iyun tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu.

Heydər Əliyevin əsasını qoyduğu idarəetmə texnologiyaları bu gün Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun şəkildə təkmilləşdirilərək tətbiq edilir və bu istiqamətdə mühüm nailiyyətlər əldə olunub. Akademiya təsis edilən vaxtdan burada “Heydər Əliyevin milli ləyaqət fəlsəfəsi”, “Heydər Əliyevin dövlət idarəçiliyi təcrübəsi” kimi fənlər tədris edilir.

Çıxış edənlər Heydər Əliyevin idarəetmə irsinin ümumi tərəqqidə önəmli rolunu vurğulayıblar.

**XQ**

# Qeyri-neft sektorunda 5 aylıq ixrac – 1 milyard dollar

**Ölkəmizdə ümumi iqtisadi artımın əsas hissəsi neft – qaz strategiyasının uğurlu nəticələri hesabına gerçəkləşsə də, son illər qeyri – neft sektoru üzrə də xüsusi fəallıq nəzərə çarpır. Bu da Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən ardıcıl, məqsədyönlü layihələrin məntiqi nəticəsidir. 2010-cu ildə respublikamızın qeyri – neft sektorunda 18,4 milyard manatlıq məhsul istehsal olunduğu halda, 2024-cü ildə bu göstəricinin 85 milyard manatı ötməsi də məhz həmin fikrin bariz ifadəsidir.**




Bu sahədə artım tendensiyası 2025-ci ilin I rübündə də müşahidə olunub. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, cari ilin yanvar – mart aylarında Azərbaycanda 29 milyard 893 milyard manatlıq ümumi daxili məhsul istehsal olunub ki, bunun da 20 milyard 103 milyon manatı qeyri – neft-qaz sektorunun payına düşüb. Rüb ərzində ölkə üzrə qeyri – neft – qaz ÜDM-i əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,5 faiz artıb.

Ölkənin qeyri – neft – qaz sahələrinin inkişaf etdirilməsinin uğurlu nəticələri ixrac əməliyyatlarında da özünü qabarıq şəkildə büruzə verir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın iyun sayına əsasən, cari ilin yanvar – may aylarında ölkəmizin qeyri-neft sektoru üzrə ixracı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 11,6 faiz artaraq 1,4 milyard dollara yüksəlib. Hesabat dövründə yeyinti məhsulları üzrə ixrac 14,4 faiz artaraq 417,7 milyon dollara bərabər olub.

İcmala görə, 5 ayda ixrac olunan kimya sənayesi məhsulları ötən ilin müvafiq dövrünə nəzərən 46,8 milyon dollar və ya 45,9 faiz, şəkər 3 milyon dollar və ya 30,1 faiz, pambıq iplik 1,3 milyon dollar və ya 14,5 faiz, meyvə tərəvəz 48 milyon dollar və ya 19,1 faiz, qara metallar və onlardan hazırlanan məmulatlar 3,8 milyon dollar və ya 11,3 faiz artıb.

Qeyd olunan dövrdə ixrac olunan aqrar məhsullar 17,2 faiz artaraq 331,2 milyon dollara, aqrar – sənaye məhsulları 5,9 faiz artaraq 115,6 milyon dollara bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 14 faiz artaraq 446,7 milyon dollara yüksəlib.

Kənd təsərrüfatı məhsullarının ixracı sahəsində yüksək göstəricilərin əldə edilməsi təsadüfi deyil. Belə ki, son illər Azərbaycanın ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər, kənd təsərrüfatının inkişafına göstərilən dövlət qayğısı ölkədə yeyinti məhsullarının istehsalının artması ilə müşayiət olunur. Bu da ixrac strukturunda bu növ məhsulların payının çoxalmasına gətirib çıxarır. Təkcə onu qeyd etmək kifayətdir ki, cari ilin yanvar-aprel aylarında ölkəmizdən 300,1 milyon dollarlıq yeyinti məhsulları ixrac olunub ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 12,1 faiz çoxdur. İlin ilk 4 ayında şəkərin ixrac dəyəri isə 25,8 faiz artaraq 1,9 milyon dollar təşkil edib.

Bu ilin yanvar – aprel ayları ərzində ölkənin aqrar və aqrar – sənaye məhsullarının ixracında da əhəmiyyətli artım qeydə alınıb. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin məlumatına görə, ilin ilk 4 ayında aqrar məhsulların ixrac dəyəri 14 faiz artaraq 232,7 milyon dollara, aqrar-sənaye məhsullarının ixrac dəyəri isə 7,9 faiz artaraq 90,8 milyon dollara çatıb. Bütövlükdə, hesabat dövründə qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar – sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,2 faiz çoxalaraq 323,6 milyon dollar təşkil edib.

Yeri gəlmişkən, son illər Azərbaycanın kənd təsərrüfatı sektorunda yaradılmış məhsul bolluğu daxili bazarın tələbatını ödəməklə yanaşı, ölkənin ixrac potensialının artmasına da mühüm töhfələr verir. Bu baxımdan əsas bitkiçilik məhsullarından sayılan pambıq mahlıcı və pomidoru xüsusi qeyd etmək olar. Elə cari ilin yanvar – aprel aylarında ölkəmizdən ixrac edilən qeyri – neft sektoruna aid malların siyahısında adıçəkilən məhsulların üstünlük təşkil etməsi də bunu təsdiqləyir. Belə ki, hesabat dövründə Azərbaycandan 26,8 milyon dollarlıq meyvə – tərəvəz ixrac olunub ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 14,8 faiz çoxdur.

Cari ilin ilk 4 ayında ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (95,4 milyon dollar) birinci olub. Bu siyahıda pomidor (tomat) (74,7 milyon dollar) ikinci, karbamid (63,5 milyon dollar) isə üçüncü yerdə qeydə alınıb.

2025-ci ilin aprel ayı ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (30,2 milyon dollar) birinci olub. Bu siyahıda pomidor (tomat) (30,16 milyon dollar) ikinci, pambıq (22,1 milyon dollar) isə üçüncü yerdə qərarlaşıb.

Bu ilin ilk 4 ayında Rusiya Federasiyasına 321,4 milyon dollar, Türkiyəyə 187,7 milyon dollar, Gürcüstana 105,8 milyon dollar, İsveçrəyə 100,5 milyon dollar, Ukraynaya isə 63 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub. Bu ilin aprel ayında Rusiya Federasiyasına 88,5 milyon dollar, Türkiyəyə 53,3 milyon dollar, İsveçrə 30,9 milyon dollar, Gürcüstan 25,1 milyon dollar, Qazaxıstan isə 14,2 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.

Yanvar – aprel ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited" şirkətinin ölkəmizdəki nümayəndəliyi, UNİTED ALLİANCE GROUP LTD şirkətinin Azərbaycandakı filialı, "Baku Steel Company" QSC, "MKT İstehsalat Kommersiya", "Avrora", P-AQRO, "Export Stream" məhdud məsuliyyətli cəmiyyətləri, "Binə Aqro" QSC, "Sahdag Sy" MMC və "Lepın LM" şirkəti yer alıb.

Qeyri – neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına Dövlət Neft Şirkətinin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Daha sonra bu siyahıda "SOCAR Polymer" MMC, "Azer-Gold" QSC, "Azəralüminium" MMC, Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "AzərEnerji" ATSC, Naxçıvan MR Dövlət Energetika Xidməti, və "Qaradağ Şüşə Zavodu" ASC təmsil olunub.

2025-ci ilin yanvar-aprel aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") tərəfindən dünyanın 40 ölkəsinə 5,6 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 65 faizini təşkil edib. 2025-ci ilin aprel ayında isə "Azərkosmos" dünyanın 38 ölkəsinə 1,6 milyon dollar dəyərində xidmət ixrac edib.

2025-ci ilin yanvar – aprel ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 1,5 milyon dollar ilə Birləşmiş Krallıq, 1,2 milyon dollar ilə Lüksemburq, 255 min dollar ilə Nigeriya, 238,6 min dollar ilə Misir və 238,5 min dollar ilə Türkiyə qərarlaşıb.

# Kürdəmirin bərəkət günləri



**İqtisadiyyatın mühüm sahələrindən olan aqrar sektor Kürdəmir rayonunda da dirçəliş dövrünü yaşayır. Xüsusilə illərdir ki, əkinçilik sahəsində uğurlara imza atılır. Torpaq adamlarına, fermerlərə ölkə rəhbəri tərəfindən göstərilən qayğının nəticəsidir ki, aqrar sahədə dövlət dəstəyindən istifadə etməklə məhsul bolluğu yaradılır.**

Kürdəmir rayonunda 2025-ci ilin məhsulu üçün 36 min 842 hektarda taxıl əkini aparılıb. Bundan 3 min 278 hektarı buğda, 33 min 564 hektarı arpa sahəsidir. İndiyədək 2 min 649 hektar arpa sahəsində biçin işləri aparılaraq 30,2 sentner olmaqla 7 min 998 ton məhsul istehsal edilib. Taxıl sahələrində biçin davam edir.

Rayonun qabaqcıl fermerlərindən biri də Qarasaqqal kəndində yaşayan Cümşüd Babayevdir. Fermerə məxsus təsərrüfat 2007-ci ildən taxıl toxumçuluğu üzrə ixtisaslaşıb. Müasir tələblərə cavab verən maddi-texniki baza yaradılıb. Təsərrüfatın 400 tonluq anbarı, taxıl kombaynı, traktorları və digər istehsal avadanlıqları var. Təsərrüfatda cari ilin məhsulu üçün 15 hektar arpa, 75 hektar buğda olaraq cəmi 90 hektar sahədə toxumluq taxıl əkini aparılıb. Səpin zamanı "Qarabağ 22" super elit və elit arpa sortundan, "Murov-2", "Qobustan" buğda sortlarından istifadə edilib.

Arpa sahəsində biçin işləri yekunlaşmış hər hektardan 35 – 40 sentner məhsul əldə olunmuşdur. Buğda sahəsində biçin cari ayın 20 sinə planlaşdırılır. Sahədə 50 – 55 sentner məhsuldarlıq gözlənilir.

Yeni Şıxımlı kəndində yaşayan fermer Babək Məmmədov söhbət zamanı bildirdi ki, bu ilin məhsulu üçün 10 hektar sahədə taxıl əkini aparılıb, mineral gübrələrdən vaxtında istifadə edilib, suvarılıb, xəstəlik və ziyanvericilərə qarşı mübarizə tədbirləri görülüb, bir neçə gündən sonra biçinə start veriləcəyi də qərara alınıb. Eyni zamanda, hər hektardan 30-35 sentner məhsul əldə ediləcəyi proqnozlaşdırılıb.

Karrar kəndində yaşayan fermer Nəriman Orucov isə aqrotexniki tədbirlərin vaxtında və keyfiyyətlə aparılmasından həvəslə danışdı. Ona yaradılmış şəraitə görə ölkə rəhbərliyinə minnətdarlığını bildirdi. 6 hektar sahədə taxıl əkini aparıldığını diqqətə çatdırdı. Üstəlik, əlavə etdi ki, bu il məhsul boldur. Hər hektardan 35 sentner məhsuldarlıq gözlənilir.

Rayonun qabaqcıl fermerlərindən biri də Qarasaqqal kəndində yaşayan Cümşüd Babayevdir. Fermerə məxsus təsərrüfat 2007-ci ildən toxumçuluq üzrə ixtisaslaşıb. Bu sahədə maddi-texniki baza yaradılıb. Təsərrüfatın 400 tonluq anbarı, taxıl kombaynı, traktorları və digər istehsal avadanlıqları var. Təsərrüfatda cari ilin məhsulu üçün 15 hektar arpa, 75 hektar buğda olaraq cəmi 90 hektar sahədə toxumluq taxıl əkini aparılıb. Fermer səpin vaxtı "Qarabağ-22" "Super elit" və "Elit" sortundan, eyni zamanda, "Murov-2", "Qobustan" buğda sortlarından istifadə edib.

Arpa sahəsində biçin yekunlaşıb, hər hektardan 40 sentner məhsul əldə olunub. Buğda sahəsində isə biçin ayın 20-nə planlaşdırılıb. Sahələrdən 50-55 sentner məhsuldarlıq gözlənilir.

Ümumiyyətlə, Kürdəmirdə 36 min 842 hektar sahədə taxıl əkilib. Bundan 3 min 278 hektarı buğda, 33 min 564 hektarı isə arpa sahəsidir. İndiyədək 2 min 949 hektar arpa sahəsində biçin işləri aparılaraq 7 min 998 ton məhsul toplanılıb. Taxıl sahələrində biçin davam edir.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Qarabağın sənaye parklarına yeni müəssisələr qoşulur

**Bu il Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında dekorativ daşların, tütün məmulatlarının, müxtəlif yapışqan lentlərin və s. istehsalı müəssisələrinin fəaliyyətə başlaması planlaşdırılır. Bu barədə İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyindən məlumat verilib.**

Bildirilib ki, bu iki sənaye parkında, ümumilikdə, 45 sahibkarlıq subyekti rezident, 7 sahibkar isə qeyri-rezident kimi qeydiyyatdan keçib, görülən işlərə 150 milyon manatdan çox investisiya yatırılıb, 740 nəfərdən artıq daimi iş yeri yaradılıb.

Hazırda sözügedən sənaye zonalarında 11 müəssisə fəaliyyət göstərir. 2024-cü ilin sentyabrın sonlarından 2025-ci ilin I rübünün sonuna qədər bu müəssisələrdə 87 milyon manatlıq məhsul istehsal edilib. Hazırda Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında, ümumilikdə, 10-dan çox müəssisənin tikintisi davam etdirilir, 20-dən çox müəssisədə isə layihələndirmə işləri görülür.




Məlumatda daha sonra İqtisadi Zonaların İnkişafı Agentliyinin tabeliyindəki "Desen MM" MMC-yə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidentliyi statusu verildiyi qeyd edilib. Yeni qeydiyyata alınan rezidentin sənaye parkının ərazisində investisiya dəyəri 1,9 milyon manat olacaq boya fırçası və boya rulosu istehsal sahəsinin yaradılacağı da nəzərdə tutulub. Türkiyə və Çinin qabaqcıl texnologiyalarının tətbiq olunacağı müəssisədə buraxılan məhsulların daxili bazara satışı ilə yanaşı, ixracı da planlaşdırılıb.

Qeyd edək ki, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında hazırda 17 sahibkarlıq subyektinə rezidentlik, 3 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Sənaye parkında görülmüş işlərə sahibkarlar tərəfindən 35 milyon manatdan çox investisiya yatırılıb, 100-ə yaxın daimi iş yeri yaradılıb.

Xatırladaq ki, 190 hektar ərazini əhatə edən müasir sənaye kompleksi olan Ağdam Sənaye Parkı ölkə Prezidentinin 28 may 2021-ci il tarixli fərmanı ilə yaradılıb. Parkın ərazisində elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat və digər zəruri infrastruktur obyektləri mövcuddur. Ağdam Sənaye Parkı rezidentlərin sayına görə Azərbaycanda ikinci ən böyük sənaye parkıdır.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı isə dövlət başçısının 4 oktyabr 2021-ci il tarixli fərmanı ilə yaradılıb. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl rayonunda yerləşən bu park 200 hektar ərazini əhatə edir. Parkın əsas məqsədi işğaldan azad edilmiş ərazilərin iqtisadi dirçəlişini təmin etmək, sahibkarlığı dəstəkləmək və regionun sənaye potensialını inkişaf etdirməkdir.

# "Yaşıl" nəqliyyata keçid təmiz gələcəyə aparır

**Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) bildirilib ki, ekoloji tarazlığa təsir edən amillərdən biri də, şübhəsiz ki, avtomobil nəqliyyatıdır. Hazırda yer üzündə, təxminən, 1,5 milyard avtomobil istifadə edilir. Avtomobil nəqliyyatı havanın çirklənməsinin əsas mənbələrindən biri olmaqla ekologiyaya əhəmiyyətli dərəcədə təsir göstərir.**




Ölkəmizdə avtomobil nəqliyyatı ilə bağlı qayda və tələblərə nəzarəti həyata keçirən AYNA-nın missiyası həm də dayanıqlı, ekoloji təmiz, səmərəli yerüstü nəqliyyat sisteminin qurulmasını gerçəkləşdirməkdir. Nəqliyyatda karbon emissiyalarının azaldılması iqlim dəyişikliyi ilə mübarizənin əsasını təşkil edir və buna yalnız kompleks tədbirlərlə nail olmaq mümkündür. Söhbət "yaşıl" nəqliyyat növlərinə keçiddən, piyadalar və mikromobillik vasitələri üçün yol infrastrukturunun yaradılmasından, eləcə də ictimai nəqliyyata marağın artırılmasından gedir.

Bakıda tam olaraq "yaşıl" ictimai nəqliyyata keçid qarşıda duran əsas vəzifələrdəndir. Paytaxtın avtobus şəbəkəsində 166 elektriklə işləyən və 55 ekoloji cəhətdən təmiz CNG texnologiyasına malik avtobuslar fəaliyyət göstərir.

Bu il Çinin BYD şirkəti ilə birlikdə elektrobusların yerli istehsalına başlanılması planlaşdırılır. Müəssisədə ildə 500 avtobusun istehsalı nəzərdə tutulur. Bu il özəl daşıyıcılar tərəfindən 400-ə yaxın əlavə ekoloji təmiz avtobus alınaraq Bakı şəhərində istismara verilməsi nəzərdə tutulur.

Paytaxtda mikromobillik vasitələrindən istifadənin artması atmosferə atılan tullantıların azalmasına gətirib çıxarıb. Avtobus və velosiped zolaqları hərəkətin fasiləsizliyinə və ekoloji yükün səviyyəsinin enməsinə müsbət təsir göstərib. AYNA tərəfindən mikromobillik şəbəkəsinin genişləndirilməsi əsas fəaliyyət istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Hazırda paytaxtda 39 kilometrdən çox mikromobillik zolaqları təşkil edilib. Bu şəbəkənin ümumi uzunluğunun 100 kilometrə çatdırılması hədəflənib.

Taksi xidməti sahəsində aparılan islahatlar çərçivəsində müvafiq parkın yenilənməsi və taksi səfərlərinin azalması da ətraf mühitin mühafizəsi baxımından böyük əhəmiyyətə malikdir. İslahatlara qədər taksi parkının, təxminən, 62 faizinin yaşı 15-dən yuxarı idisə, indi onların orta yaşı 7 ildir.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# BVF ölkəmizdə davamlı inkişaf və əsaslı islahatları fəal dəstəkləyir

**Maliyyə Nazirliyinin məlumatına əsasən, Azərbaycan və Beynəlxalq Valyuta Fondu (BVF) arasında əməkdaşlıq prioritetləri və islahatlar gündəliyi müzakirə edilib. Maliyyə naziri Sahil Babayev ilə BVF-də ölkəmizin daxil olduğu seçki qrupu üzrə icraçı direktoru Patrik Loşevski arasında virtual formatda görüş keçirilib.**




Söhbət zamanı respublikamızla bu beynəlxalq maliyyə qurumu arasında mövcud olan əməkdaşlıqdan məmnunluq ifadə olunub, Azərbaycan hökumətinin bu münasibətlərin daha da genişləndirilməsində maraqlı olduğu vurğulanıb. Fond tərəfindən təqdim olunan texniki yardım proqramlarının və məsləhət xidmətlərinin ölkəmizdə makroiqtisadi sabitliyin və fiskal idarəetmənin gücləndirilməsinə mühüm töhfə verdiyi vurğulanıb.

Qeyd edək ki, müasir dövrdə dünyada baş verən siyasi və iqtisadi proseslər, enerji bazarındakı yeniliklər, iqlim dəyişikliyi və texnoloji tərəqqi ölkələrin inkişaf strategiyalarına yenidən baxmasını zəruri edir. Azərbaycan da bu qlobal çağırışlara çevik cavab verməklə dayanıqlı iqtisadi inkişaf modelini formalaşdırmağa çalışır. Bu baxımdan iqtisadiyyatın şaxələndirilməsi, dövlət idarəetməsinin təkmilləşdirilməsi və özəl sektorun gücləndirilməsi ölkənin başlıca prioritetlərindəndir. Bu məqsədlərə çatmaq üçün beynəlxalq təşkilatlarla, xüsusən də BVF ilə sıx əməkdaşlıq mühüm önəm daşıyır.

Azərbaycanda son illərdə neft amilindən asılılığı azaltmaq üçün geniş iqtisadi islahatlar paketi həyata keçirilib. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində qeyri-neft sektorunun inkişafı, rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılması və innovasiyalara əsaslanan iqtisadiyyatın qurulması əsas hədəf kimi müəyyənləşdirilib. Bu istiqamətdə aparılan islahatlar nəticəsində kənd təsərrüfatı, sənaye, turizm və informasiya texnologiyaları sahələrində nəzərəçarpacaq irəliləyiş əldə olunub.

Səmərəli və şəffaf dövlət idarəçiliyi iqtisadi inkişafın mühüm dayaqlarından biridir. Son illərdə respublikamızda rəqəmsal hökumət xidmətlərinin genişləndirilməsi, büdcə idarəetməsində şəffaflığın artırılması və dövlət müəssisələrinin idarə olunmasında səmərəliliyin yüksəldilməsi istiqamətində əhəmiyyətli addımlar atılıb. Bu islahatlar dövlət vəsaitlərinin daha rasional istifadəsinə, investisiya mühitinin yaxşılaşdırılmasına və vətəndaş məmnunluğunun artmasına xidmət edir.

Ölkədə sahibkarlığın inkişafı və özəl sektorun iqtisadiyyatda rolunun artırılması da dövlət siyasətinin əsas istiqamətlərindəndir. Xüsusilə kiçik və orta sahibkarlığın dəstəklənməsi, vergi yükünün azaldılması və investisiya təşviqləri sayəsində bu sahədə canlanma müşahidə olunur. Maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, alternativ maliyyə vasitələrinin tətbiqi və bank-maliyyə sistemində aparılan islahatlar da bu prosesi sürətləndirir.

Azərbaycanın BVF ilə əməkdaşlığı 1992-ci ildən etibarən inkişaf etməkdədir. Bu çərçivədə adıçəkilən fond ölkəmizə müxtəlif dövrlərdə texniki yardım göstərib, makroiqtisadi sabitliyin qorunması, struktur islahatlarının dərinləşdirilməsi və fiskal siyasətin təkmilləşdirilməsi istiqamətində tövsiyələr verib. Bundan başqa BVF nümayəndə heyətləri ilə keçirilən illik məsləhətləşmələr çərçivəsində Azərbaycan iqtisadiyyatının cari vəziyyəti və perspektivləri müzakirə olunub, gələcək islahatlara dair dialoq aparılıb.

BVF-in Azərbaycanla əməkdaşlığında şəffaflıq, hesabatlılıq və fiskal dayanıqlılıq prinsipləri ön planda saxlanılır. Fond ölkəmizin maliyyə sisteminin möhkəmləndirilməsi, dövlət müəssisələrinin səmərəliliyinin artırılması və dövlət-özəl sektor tərəfdaşlığının inkişaf etdirilməsi sahəsində tövsiyələr təqdim edir. Bu tövsiyələr, eyni zamanda, investorlar üçün daha sabit və proqnozlaşdırıla bilən iqtisadi mühitin formalaşmasına şərait yaradır.

Azərbaycan iqtisadiyyatının mövcud transformasiya mərhələsi kompleks və çoxşaxəli islahatlarla müşayiət olunur. BVF ilə əməkdaşlıq bu prosesdə beynəlxalq təcrübənin tətbiqini gerçəkləşdirir. İqtisadiyyatın şaxələndirilməsi, "yaşıl" inkişaf, dövlət idarəçiliyinin təkmilləşdirilməsi və özəl sektorun maliyyə resurslarına çıxışının genişləndirilməsi ölkənin orta və uzunmüddətli inkişafının təminatçısı kimi çıxış edir. Bu yanaşmalar Azərbaycana dayanıqlı və inklüziv iqtisadi model qurmaq imkanı verir.

Azərbaycanın BVF ilə əməkdaşlığı ölkənin iqtisadi siyasətində beynəlxalq standartlara uyğunlaşma, fiskal intizam və dayanıqlı inkişafın təmin olunması baxımından mühüm rol oynayır. Davamlı islahatlar, innovasiya əsaslı inkişaf modeli və səmərəli idarəetmə yanaşmaları ölkəmizin iqtisadi dayanıqlığını artırmaqla yanaşı, regional və qlobal iqtisadi sistemdə mövqeyini daha da möhkəmləndirir. Bu prosesdə beynəlxalq tərəfdaşlarla, xüsusilə də BVF ilə əməkdaşlıq, Azərbaycanın strateji hədəflərinə çatmasında etibarlı dəstək olaraq qalır.

***M.YAQUBZADƏ***
***XQ***

# KOB-ların "yaşıl" keçidinə "yaşıl işıq!"

**İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən regionlarda həyata keçirilən və icrası davam edən 18 layihəyə indiyə qədər 300 min manatdan çox qrant ayrılıb. Bununla yanaşı, bölgələrdə fəaliyyət göstərən 40 sahibkarlıq subyektinə "Startap" şəhadətnaməsi verilib.**



Regionlarda mövcud biznes potensialının reallaşdırılması, yeni kiçik və orta biznes subyektlərinin yaradılması və sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, eləcə də iş adamlarının investisiya təşəbbüslərinin dəstəklənməsi məqsədilə KOBİA-nın geniş infrastruktur şəbəkəsi var. Sahibkarlıq fəaliyyətinə başlamaq və biznesini inkişaf etdirmək istəyən iş adamlarına dəstək və xidmət göstərmək üçün KOBİA-nın KOB evlərinin, 50-dən çox şəhər və rayonu əhatə edən KOB dostu şəbəkəsinin və KOB inkişaf mərkəzlərinin səmərəli fəaliyyəti məhz bunun bariz ifadəsidir.

Məhsul və xidmətlərinin satışına və tanıdılmasına dəstək üçün bölgələrdə indiyədək 930-a yaxın biznes subyektinin iştirakı ilə 16 sərgi və yarmarka təşkil edilib. Ticarət şəbəkələrinə çıxışa dəstək mexanizmindən faydalanmış sahibkarların 15-ə yaxını regionlardandır. Bölgələrdə yeni məhsul və xidmət istehsalı üzrə sahibkarların müraciətləri və KOBİA-nın təşəbbüsü ilə 3 daxili bazar araşdırması aparılıb.

Agentlik bugünə qədər regionlarda fəaliyyət göstərən sahibkarlar və biznesə başlamaq istəyən şəxslər üçün ödənişsiz olaraq 3 mindən çox təlim, 80 min saata qədər məsləhət xidməti təşkil edib. KOBİA-nın dəstəyi ilə hazırlanmış biznes planların 700-ə yaxını da region sahibkarlarının və ya bölgələrdə icra olunacaq layihələrin payına düşür.

Bölgələrdəki sahibkarların biznes sahəsindəki yeniliklər və müasir çağırışlar, mövcud dövlət dəstəyi yolları barədə məlumatlandırılması, qarşılaşdıqları məsələlərin, ehtiyac və təkliflərin öyrənilərək müvafiq qurumlarla birgə həlli məqsədilə indiyədək KOBİA tərəfindən 20 mindən çox sahibkarın iştirakı ilə 580-ə yaxın sahəvi görüş və maarifləndirmə tədbiri təşkil olunub.

Yeri gəlmişkən, bu yerdə bir məqamı da xatırlatmaq istərdim. Belə ki, bu il iyunun 3-də Bakı Enerji Həftəsi çərçivəsində 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisində KOBİA-nın stendi KOB-ların "yaşıl" iqtisadiyyata keçidinin və "KOB-ların yaşıl keçidi üçün Bakı İqlim Koalisiyası üzrə Birgə Bəyannamə"nin təşviqinə həsr olunub.

Ümumiyyətlə, KOBİA-nın stendi Bakı Enerji Həftəsində "yaşıl" keçidə maraq göstərən və bu istiqaməti dəstəkləyən sahibkarlar üçün görüş və əməkdaşlıq platformasına çevrilib.

Xatırladaq ki, KOBİA-nın builki sərgidəki stendi kiçik və orta biznesin (KOB) "yaşıl" iqtisadiyyata keçidinin və COP29 çərçivəsində adıçəkilən agentliyin irəli sürdüyü "KOB-ların "yaşıl" keçidi üçün Bakı İqlim Koalisiyası üzrə Birgə Bəyannamə"-nin təşviqinə həsr olunub. Bu məqsədlə stenddə Bakı İqlim Bəyannaməsi ilə bağlı yazılı və video materiallara yer ayrılıb.

Qeyd edək ki, 20-yə yaxın yerli və beynəlxalq təşkilatın qoşulduğu bəyannamə KOB-ların "yaşıl" keçidinə dair ilk qlobal təşəbbüsdür. Bu sənəd qlobal səviyyədə kiçik və orta sahibkarların "yaşıl" iqtisadiyyata keçidi üzrə birgə səylərin birləşdirilməsini nəzərdə tutan tədbirləri özündə ehtiva edir.

Sərgi müddətində sahibkarlıqla bağlı yerli və xarici təşkilatlar bəyannamə barədə məlumatlandırılıb və onların bu təşəbbüsə qoşulması istiqamətində təbliğat işləri aparılıb.

KOBİA-nın stendində tekstil, enerji, İKT, sənaye avadanlıqlarının istehsalı, xidmət və logistika sahələrində fəaliyyət göstərən 10-a yaxın KOB subyektinin məhsul və xidmətləri nümayiş olunub. Bu dəstək KOB-ların məhsul və xidmətlərinin tanıdılması, satış imkanlarının genişləndirilməsi və yeni əməkdaşlıqlar qurması məqsədi daşıyıb.

***VB AYRAMOV***
***XQ***

# Xəzər qazı 5 ildir Avropada yanır

**TAP-ın icraçı direktoru Luka Şippati mediaya müsahibəsində bildirib ki, Cənub Qaz Dəhlizi Xəzər dənizində hasil edilən qazı Avropa bazarlarına uğurla çatdırır. Bununla da artıq 5 ildir ki, Avropanın enerji təchizatının təhlükəsizliyinə böyük töhfə verilir.**

O vurğulayıb ki, Avropaya bu müddətdə 47 milyard kubmetrdən çox qaz ixrac olunub ki, bunun da 39 milyard kubmetri İtaliyaya nəql edilib.

İraçı direktorun sözlərinə əsasən, TAP nominal ötürücülük qabiliyyətini keçib: "Boru kəməri etibarlı, davamlı mənbəyə – Azərbaycana arxalanıb. Azərbaycan Avropaya sübut edib ki, o davamlı və etibarlı təchizatçıdır. Biz istənilən riskləri real vaxt ərzində süni intellekt və dron kimi texnologiyalarla idarə edə bilirik. Bütün bu texnologiyalar gündəlik boru kəmərinin etibarlılığını təmin edir".

**Dünən Azərbaycanın bütün məktəblərində "Son zəng" səsləndi. Ölkə üzrə ümumi təhsil müəssisələrinin XI siniflərini 113 minə yaxın şagird başa vurdu. "Bu gün təkcə bir mərhələnin sonu deyil, həm də yeni həyatınızın başlanğıcıdır". Bu cümlə elm və təhsil naziri Emin Əmrullayevin Hacıqabulda 10 nömrəli Texniki-təbiət fənlər təmayüllü məktəb-liseyində çıxışı zamanı səsləndi. Amma əslində, bu sözlər təkcə bir məktəbə deyil, o gün ölkənin hər yerində "Son zəng"lə vidalaşan 113 mindən çox şagirdin həyatına ünvanlanmışdı. O şagirdlərin ki, hər biri 11 illik bir məktəb yolunu geridə qoyur, arxasında uşaqlıq, qarşısında həyat olan bir yol ayrıcında dayanırdı.**



# Xankəndidə 37 ildən sonra ilk "Son zəng"



Nazirin çıxışı sadəcə rəsmi təbrik deyildi – bu, bir müəllimin, bir dövlət təmsilçisinin, bir insanın səmimi və istiqamətverici mesajı idi. O, valideynləri təbrik etdi, çünki hər bir uşağın uğurunun ilk təməli ailədə qoyulur. O, müəllimləri təbrik etdi – çünki onlar 11 illik əziyyətin, səbir və fədakarlığın arxasındakı görünməyən qəhrəmanlardır. Və nəhayət, o, şagirdləri təbrik etdi – çünki bu gün onların həyatındakı yeni dövrün ilk səhifəsi yazılır.

Emin Əmrullayevin sözlərində bir çağırış da vardı – harada olursan ol, kim olursan ol – cəmiyyətə, vətənə, ailəyə fayda ver, yaxşılıq et. Yaxşılıq təkcə ali təhsillə, diplomla ölçülmür. Bəzən bir müəllim kimi uşağa bilik öyrətmək, bəzən bir həkim kimi insan həyatını xilas etmək, bəzən isə sadəcə cəmiyyət üçün xeyirli bir vətəndaş olmaq – bunların hamısı çox önəmlidir.

Nazir çıxışında Azərbaycanın tarixi Zəfərindən – Vətən müharibəsindəki qələbədən də danışdı. Bildirdi ki, bu il həmin qələbənin 5 illiyi qeyd olunur. Həmin Zəfərin nəticəsi olaraq bu gün Qarabağda məktəblər açılır, universitet fəaliyyətə başlayır, insanlar doğma torpaqlarına qayıdır. Bu torpaqlarda səslənən "Son zəng" – təkcə bir təhsil mərhələsinin deyil, həm də bir xalqın mübarizə və qayıdış tarixinin davamıdır.

Bəlkə də sabah bu günün məzunları Qarabağda, Zəngəzurda, Laçında, Şuşada, Cəbrayılda bir mühəndis, bir müəllim, bir həkim kimi xidmət edəcəklər. Bəlkə də bu gün səslənən "Son zəng", sabah Böyük Qayıdışın mütəxəssislərini oyadacaq.

Dünən respublikamızın hər yerində olduğu kimi Qarabağ bölgəsindəki ümumi təhsil müəssisələrində də "Son zəng" tədbirləri keçirilib. 2024–2025-ci tədris ilində Qarabağ Regional Təhsil İdarəsi üzrə 7 min 13, işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən ümumi təhsil müəssisələrindən isə 58 şagird məzun olub.

Bu tədris ilində 7 min 838 şagird birinci sinfi bitirib, ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarında 6 min173 uşaq təhsil alıb. Bölgədə "Son zəng" böyük ruh yüksəkliyi ilə keçirilib. Lakin Xankəndidə çalınan "Son zəng"in mənası başqaydı – o, təkcə məzuniyyət deyildi, həm də 37 illik fasilədən sonra azadlıqla, təhsil hüququ ilə, doğma məktəblə görüşün ilk səsləri idi. Həm də tarixə düşən bir oyanış idi – həm fərdi talelərin, həm də milli yaddaşın yeni səhifəsi.

İllərlə səssiz qalan məktəb həyətlərində bu dəfə uşaqların gülüşü, sevinc qarışıq kədəri və qürurlu zəng sədası eşidildi. Bu zəng artıq təkcə dərs bitişinin yox, bir xalqın işğaldan azad etdiyi torpaqlarda həyatın yenidən başladığının simvoluna çevrildi.

Bu il Xankəndi şəhər Nizami Gəncəvi adına 4 nömrəli məktəbi 14 şagird bitirdi. Az görünə bilər. Amma bu 14 məzun – 14 alovlu ümid, gələcəyə atılan 14 inamlı addım idi. Hər biri Qarabağın bərpasında, Azərbaycanın gələcəyində söz sahibi olacaq bir nəslin nümayəndəsidir.

Tədbir zamanı o yerlərin insanları – zamanında öz "Son zəng"ini eşidə bilməyən 1988-ci il məzunları da ilk dəfə olaraq məsum xatirələrinə qovuşdular. Onların gecikmiş "Son zəng"i bu dəfə həm göz yaşlarıyla, həm də sevinclə səsləndi. Bu, yarımçıq qalan uşaqlığın, bölünmüş xatirələrin tamamlanması idi.

Məktəbin həyətindəki çıxışlar, oxunan şeirlər, səslənən musiqilər, göyə buraxılan şarlar və yazılmış arzular – hamısı yalnız bir günü deyil, bütöv bir dövrü ifadə edirdi. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanovun sözləri də bu ruha uyğun səsləndi: Azərbaycan dövləti təhsilə, gəncliyə, gələcəyə inanır və bu inamın meyvəsi bu gün Qarabağda boy verir.

"Son zəng" – məktəb illərinin bitişini xəbər verən bir səs kimi eşidilsə də, əslində o, ömür boyu susmayan bir yaddaşdır. O, insanın içindəki uşaqlığın son çağırışı, ilk arzuların yenidən canlandığı ani musiqidir. Və Xankəndidə çalınan bu zəng – həm bir şəhərin, həm bir xalqın uzun yuxudan oyanışının səsi idi.

İndi bu zəng səsi – 37 il öncə qırılmış arzuların, bölünmüş xatirələrin, susmuş məktəb zənglərinin əvəzidir. O, həm də gələcək nəsillərin artıq öz torpaqlarında, öz məktəblərində böyüyəcəyinə olan zəmanətdir. Çünki "Son zəng" – nə son, nə də sadəcə zəngdir. O, həm vidanın, həm qayıdışın, həm də başlanğıcın səsidir

## Şuşa və Cəbrayılda "Son zəng" şənlikləri

"Son Zəng" həm də Şuşa şəhər 1 nömrəli tam orta məktəbinin məzunu olan 8 şagirdinin, həm də Cəbrayıldaı Mehdi Mehdizadə adına tam orta məktəbin 5 məzunu həyatlarında dönüş nöqtəsi oldu. Bu "Son zəng" Şuşada 34 ildən sonra səsləndi. Şuşa şəhər 1 nömrəli tam orta məktəbinin 8 məzunu üçün bu zəng təkcə uşaqlıqla vida deyil, həm də tarixlə barış, zəfərlə qurulan sabahın səsi idi. Tədbirdə Şuşa şəhəri üzrə xüsusi nümayəndə Aydın Kərimov, elm və təhsil nazirinin müşaviri Elnur Əliyev, Qarabağ Regional Təhsil idarəsinin rəhbəri Sənan Mənsimli və digər rəsmi şəxslər iştirak edərək məzunlara uğurlar arzulayıblar.

Cəbrayılda isə 32 il sonra ilk "Son zəng" çalındı. Mehdi Mehdizadə adına tam orta məktəbin 5 məzunu həyatlarının yeni mərhələsinə qədəm qoydu. Bu, sadəcə bir tədbir deyil, zamanın və məğrurluğun təntənəsi idi. Onlar üçün "Son zəng" məktəb həyatının rəsmi sonu, lakin emosional baxımdan yeni başlanğıcın ilk notları olub, həm ayrılıq, həm qayıdış, həm də gələcəyə atılan cəsur addım idi.

Sonunda onu da xatırladaq ki, dünən, həmçinin 158 min 539 nəfər IX sinfi, 134 min 600 nəfər isə birinci sinfi bitirib. 2024–2025-ci tədris ilində ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarında 90 min 732 uşaq təhsil alıb. Tədris ilində ümumi təhsil müəssisələrində təhsilalanların sayı 1 milyon 704 min 065 nəfər təşkil edib.

***PÜNHAN***
***XQ***

Mərkəzi Dövlət Arxivi – 105

# Mötəbər tarixi həqiqətlər məbədi

*Əsgər RƏSULOV,*
*Milli Arxiv İdarəsinin rəisi,*
*Həsən HƏSƏNOV, rəis müavini*

**(əvvəli ötən saylarımızda)**

Azərbaycanın arxiv quruculuğu tarixində baş verən önəmli hadisələrdən biri də ASSR Nazirlər Sovetinin 5 aprel 1968-ci il tarixli 154 nömrəli qərarı ilə Azərbaycan SSR Mərkəzi Dövlət Səs Yazıları Arxivinin yaradılmasıdır. Qərar ölkəmizin ictimai-siyasi həyatını, tarixini, elmini və mədəniyyətini özündə əks etdirən bədii və sənədli audio-video sənədlərin mühafizəsi işinin təşkilində müstəsna əhəmiyyəti olan normativ hüquqi aktdır.

Dövlət Səs Yazıları Arxivinin yaradılmasında məqsəd ölkəmizin tarixi və elmi üçün əhəmiyyətli olan audieovizual sənədlərin, dövlət, elm və incəsənət xadimlərinin çıxışlarının, müxtəlif səs və video daşıyıcıda olan yazılarının, müharibə və əmək veteranlarının, ölkəmizə qonaq gələn xarici ölkələrin dövlət və ictimai xadimlərinin çıxışlarının, söhbətlərinin və müsahibələrinin əks olunduğu səs və video yazılarını toplamaq və dövlət mühafizəsini təmin etmək idi.

DSYA qarşısına qoyulmuş vəzifələri uğurla icra edərək, ötən 60 ilə yaxın fəaliyyəti dövründə ölkəmizin sosial-mədəni həyatını özündə əks etdirən qiymətli audiovizual sənədlərin zəngin bazasını yarada bildi. Hazırda bu qiymətli səs xəzinəsində Azərbaycanın mədəniyyət tarixi üçün qiymətli mənbə olan minlərlə dövlət, elm, mədəniyyət, incəsənət, xadiminin, sadə zəhmətkeş insanların səs yazıları mühafizə olunur, bu audiovizual sənədlər əsasında Azərbaycan cəmiyyətinin, xalqının mədəni-tarixi həyatı öyrənilir, təbliğ olunur, onların gələcək nəsillərə çatdırılması və hərtərəfli istifadəsi məqsədilə müasir texnoloji nailiyyətlərdən istifadə edilməklə rəqəmsallaşdırılması həyata keçirilir.

Arxiv İdarəsi dövlət arxiv xidməti təşkilatlarının strukturunun və şəbəkisinin yenidən təşkili ilə əlaqədar bu sahədəki qurumların işinin yaxşılaşdırılması, xüsusi ilə sənədləri dəyişən tərkibli rayon (şəhər) dövlət arxivlərinin fəaliyyətinin təşkili qaydalarının təkmilləşdirilməsi məqsədilə təkliflər layihəsini hazırlayaraq baxılmaq üçün Nazirlər Sovetinə təqdim edilir. AzSSR Nazirlər Soveti Arxiv İdarəsinin təkliflərini nəzərə alaraq 1969-cu il sentyabrın 3-də "Sənəd materialları dəyişən tərkibli rayon (şəhər) dövlət arxivləri haqqında Nümunəvi əsasnamə"ni təsdiq edir.

Nümunəvi əsasnamədə sənədləri dəyişən tərkibli rayon (şəhər) dövlət arxivlərinin təşkilatı və maliyyə fəaliyyətinin təşkili mexanizmi, arxivin sənəd materiallarının tərkibi, rayon dövlət arxivlərinin vəzifələri və digər məsələlər əks olunur, rayon (şəhər) dövlət arxivləri şəbəkəsinin fəaliyyət istiqamətlərini, onların hüquq və vəzifələrini müəyyən edir. Qeyd etdiyimiz kimi, Azərbaycan hökuməti respublika ərazisində fəaliyyət göstərən respublika və sahə əhəmiyyətli elmi-tədqiqat, layihə, konstruktor təşkilatlarının, ali təhsil müəssisələrinin kafedra və labarotoriyalarının hazırladıqları elmi-tədqiqat materiallarının, hesabatların, habelə tibbi müəssisələrinin elmi əhəmiyyətli sənədlərinin komplektləşdirilməsi işinin təşkili, müvafiq sahələrdə arxiv işinin təşkilinə elmi-metodiki köməklik və nəzarəti həyata keçirmək məqsədilə spesifik dövlət arxivinin yaradılmasını məqsədə uyğun hesab edir.

Azərbaycan SSR Nazirlər Soveti Arxiv İdarəsinin təkliflərini nəzərə alaraq və qeyd olunan sahədə arxiv işinin səmərəli təşkil etməklə respublika və sahə əhəmiyyətli elmi-tədqiqat, layihə, konstruktor təşkilatlarının, ali təhsil müəssisələrinin kafedra və labarotoriyalarının fəaliyyəti nəticəsində yaranan və bu sahədəki inkişafı özündə əks etdirən qiymətli arxiv materiallarının, elm, texnika və tibb sənədlərinin etibarlı mühafizəsini və hərtərəfli istifadəsini təmin etmək məqsədilə 24 iyul 1969-cu ildə 338 nömrəli qərarla AzSSR Dövlət Elm, Texnika və Tibb Sənədləri Arxivini (DETSA) yaradır.

DETSA qısa müddətdə təşkil olunaraq fəaliyyətə başlayır. Arxiv respublika iqtisadiyyatının mühüm sahələri olan neft hasilatı, emalı, neftkimya, energetika, nəqliyyat, su təsərrüfatı, tikinti və şəhərsalma, ərzaq məsələləri, habelə elmi-tədqiqat, mühəndis konstrukor bürolarının, laboratoriyaların, ali təhsil müəssisələrinin elmi-tədqiqat bölmələrin arxiv fondu sənədlərini (işlərin) dövlət mühafizəsinə qəbulunu və həmin sənədlərdən elmi məqsədlər üçün istifadəsi işini həyata keçirir.

Bu arxivdə qeyd olunan sahələrə aid yüz minlərlə idarəçilik və elmi-texniki sənəd (layihə, eskiz, kalka, hesabat smeta və s.), habelə müvafiq sahələrdə çalışmış görkəmli elm xadimlərinin, memarların, həkimlərin elmi yaradıcılıq fəaliyyətlərinə dair şəxsi xarakterli sənədləri mühafizə edilir. Elm və iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf tarixini özündə əks etdirən bu qiymətli arxiv materiallarından iqtisadiyyatın müxtəlif sahələrinin yenidən qurulması və bərpasında, elmi-tədqiqat işlərində, mədəni-maarifçilik və digər elmi-texniki sahələrlə bağlı zəruri məlumatların əldə edilməsində geniş istifadə olunur.

1960-cı illərdə ixtisaslaşmış dövlət arxivlərinin yaradılması, yerlərdə Mərkəzi Dövlət Arxivinin filiallarının təşkili arxivlərin fəaliyyət dairəsinin genişlənməsinə, nəticə etibarilə dövlət mühafizəsinə qəbul edilən sənədlərin keyfiyyət və kəmiyyət göstəricilərinin yaxşılaşmasına, sosial fəaliyyətin bütün sahələrində yaranan məzmunca elmi-tarixi və praktiki əhəmiyyətə malik sənədlərin dövlət arxivlərində komplektləşdirilməsinə geniş imkanlar yaratdı.

Həmin illərdə arxivlərin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar nəticəsində Mərkəzi Dövlət arxivləri üçün yeni inzibati bina tikildi, mühafizəxanaların həcmi genişləndirildi, maddi-texniki təchizatı yaxşılaşdırıldı. Yeni yaradılmış Dövlət Arxivi filiallarının uyğunlaşdırılmış binalarla təmin edilməsi, arxiv işində çalışanların təhsil səviyyəsinin artırılması, İttifaq miqyaslı və yerli ali təhsil müəssisələrində arxivçi ixtisası üzrə kadrların hazırlanması istiqamətində addımlar atıldı.

XX əsrin 60-cı illərin sonlarından Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkənin siyası rəhbərliyinə gəlişi ilə Azərbaycanın sosial-siyasi və mədəni həyatında yeni dövrün əsası qoyulur. Heydər Əliyev tarixin ona bəxş etdiyi imkanlardan böyük siyasi uzaqgörənliklə istifadə edərək müasir Azərbaycan cəmiyyətinin, onun dövlətçiliyinin formalaşdırılması missiyasını həyata keçirməyə başlayır.

Azərbaycan həmin illərdən etibarən malik olduğu bütün intellektual və insan potensialı, təbii resursları, milli-mənəvi dəyərləri ilə tərəqqi və inkişaf mərhələsinə qədəm qoyur. Vətən tarixinin hər bir səhifəsini, xalqımızın adət-ənənələrini, onun mədəni irsini müqəddəs hesab edən ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə ölkədə arxiv işinin inkişafına və dövrün tələblərinə uyğun təkmilləşdirilməsinə öz layiqli töhfələrini verdi. Ümummilli lider hakimiyyətə gəldiyi ilk gündən dövlət arxivlərinin vəziyyəti ilə maraqlandı və rəhbərlik etdiyi Mərkəzi Komitənin ilk iclasında respublikamızda arxivlərin məsələsini müzakirəyə çıxararaq arxiv işinin yaxşılaşdırılması haqqında təxirəsalınmaz tədbirlərin görülməsi barədə aidiyyəti dövlət qurumlarına xüsusi tapşırıqlar verdi.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi Heydər Əliyevin tapşırıqlarından irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə Azərbaycan SSR-nin Nazirlər Soveti 8 aprel 1970-ci ildə "Azərbaycan SSR-də arxiv işinin vəziyyəti və yaxşılaşdırılması tədbirləri haqqında" və 23 aprel 1973-cü ildə "Azərbaycan SSR-də arxiv işinin gələcək inkişafına dair tədbirlər haqqında" qərarlar qəbul edir. Adıçəkilən qərarlar ölkədə arxiv işinin inkişafında yeni mərhələnin başlanğıcını qoyur və onun inkişaf istiqamətləri üzrə prespektivlərini müəyyən edir.

Bu qərarla dövlət orqanlarında, nazirliklərdə və idarələrdə, rayon (şəhər) icraiyyə komitələrində arxiv işinin yaxşılaşdırılması üçün tədbirlərin görülməsi, həmin qurumlarda arxiv işi sahəsində elmi, təşkilati-metodiki rəhbərliyin yüksəldilməsi, daimi saxlanılma müddətli sənədlərin dövlət mühafizəsinə təhvil verilməsi işinin təşkilindəki qüsurların aradan qaldırılması tapşırılır.

Eyni zamanda, Sənaye Tikinti Nazirliyinə Bakıda Mərkəzi dövlət arxivləri üçün yeni binanın tikintisi işinin başa çatdırılması, Naxçıvan şəhərində, o cümlədən mövcud layihə-smeta sənədləri əsasında Xankəndi, Gəncə və Şəki şəhərlərində arxiv binalarının tikintisi məsələsinə aidiyyəti üzrə baxılması, Dövlət Plan Komitəsinə dövlət arxivlərinin müasir avadanlıqlarla təchiz edilməsi, Dövlət Mətbuat Komitəsinə arxivlər tərəfindən hazırlanmış elmi nəşrlərin, sənəd məcmuələrinin maneəsiz çap edilməsi, yerlərdə sənədlərin saxlanılması xərclərinin azaldılması məqsədilə birləşmiş arxivlərin yaradılması, habelə nazirlik, idarə və müəssisələrdə arxiv müdiri, arxivarus, dəftərxana müdiri ştatlarının yaradılması və həmin vəzifələrə tarix-arxivçi ixtisası üzrə təhsil almış kadrların cəlb edilməsi kimi mühüm tapşırıqlar verilir.

Həmin qərarda Elm və Təhsil Nazirliyinə Azərbaycan Dövlət Universitetində arxivşünaslıq və yardımçı tarix fənni üzrə kafedranın yaradılması məsələsinə baxılması tapşırılır. Eyni zamanda ölkədə arxiv şəbəkəsinin genişlənməsi və arxiv işinin elmi və ideoloji əhəmiyyətinin artması nəzərə alınaraq Nazirlər Soveti yanında Arxiv İdarəsinin Baş Arxiv İdarəsi kimi yenidən təşkili qərara alınır. İdarənin strukturunda xüsusi nəzarət müfəttişliyinin yaradılması nəzərdə tutulur. Həmçinin xarici ölkələrin arxivlərində saxlanılan Azərbaycanla bağlı sənədlərin aşkar edilməsi sahəsində işin səmərəli təşkili üçün Xarici İşlər Nazirliyinə və Elmlər Akademiyasına məsələnin öyrənilməsi tapşırılır. Arxiv işi ilə əlaqəli digər tapşırıqlar verilir.




Ölkənin siyası rəhbərliyinin arxiv işinə son dərəcə həssaslıqla yanaşması və dövlət orqanı olaraq onun fəaliyyətinin daimi diqqətdə saxlanılması, sahə ilə bağlı hökumət tərəfindən qəbul edilən qərarların intensivliyini artırdı. Belə ki, AzSSR Nazirlər Soveti 4 oktyabr 1978-ci ildə "Azərbaycan SSR-də arxiv işinin vəziyyətinin yaxşılaşdırılması barədə" daha bir qərar qəbul edir.

Qərarda Baş Arxiv İdarəsinə, Naxçıvan və DQMV arxiv idarələrinə, rayon İcraiyyə komitələrinə idarə və təşkilatlarda saxlanılma müddətləri bitmiş sənədlərin dövlət mühafizəsinə qəbulunun təmin edilməsi, xüsusi qiymətli və nadir sənədlərin sığorta fondunun yaradılması işinə başlanılması və bu məqsədlə dövlət arxivlərinə zəruri avadanlıqların alınması, arxiv mühafizəxanalarının avtomatlaşdırılmış yanğından mühafizə və siqnalizasiya sistemləri ilə təchiz edilməsi, mühafizəxanalarda sənədlərin uzunmüddətli saxlanılması və yerləşdirilməsi üçün tələb olunan şəraitin yaradılması və digər məsələlər əks olunurdu.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi və tapşırığı ilə qəbul edilən qərarlar və görülən tədbirlər əsasında 1969–1970-ci dərs ilindən Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsində tarixçi-arxivçi qrupları təşkil edilir, Bakı maliyyə-kredit texnikumunda təhsilli arxivçilərin hazırlanılmasına başlanılır. Ulu öndərin təşəbbüsü ilə 1979-cu ildən Moskva Tarix-Arxiv İnstitutunda ixtisas artırmaya, əlavə təhsilə arxivçi kadrların cəlb edilməsinə start verilir, həmçinin SSRİ Dövlət Texniki-Peşə Komitəsi ilə razılaşdırmaqla arxiv sənədlərinin bərpası və mikroflimləşdirilməsi üzrə yerli kadrların hazırlanması məsələsinə baxılır.

Dövlət hakimiyyəti orqanları tərəfindən arxiv işi ilə bağlı ardıcıl olaraq qəbul edilən qərarlarda respublikamızda arxiv işi sahəsində olan problemlər açıq olaraq göstərilir, onların aradan qaldırılması və gələcək inkişafı yolları müəyyən olunurdu. Arxiv sahəsində dövlət idarəçiliyinin və dövlət arxiv fondunun komplektləşdirilməsi, mühafizəsi və istifadəsi işinin daha da təkmilləşdirilməsi məqsədilə AzSSR-nin Nazirlər Soveti 5 iyun 1980-cı ildə "SSRİ arxiv fondunun əsasnaməsinin və SSRİ Nazirlər Soveti yanında Baş Arxiv İdarəsinin əsasnaməsinin təsdiq edilməsi haqqında 4 aprel 1980-cı il tarixli 274 nömrəli qərarın icrası barədə" qərar qəbul edir.

15 avqust 1980-ci il tarixli 352 nömrəli "Azərbaycan SSR Nazirlər Soveti yanında Baş Arxiv İdarəsinin məsələləri haqqında" qərarla Respublika Baş Arxiv İdarəsinin fəaliyyət istiqamətləri və səlahiyyətlərini müəyyən edir. Mərkəzi hökumət tərəfindən təsdiq olunan "SSRİ dövlət arxiv fondu haqqında" yeni Əsasnaməyə əsasən SSRİ Dövlət arxiv fondu üzərində sərəncam vermək hüququ SSRİ Nazirlər Soveti yanında Baş Arxiv İdarəsinə verilir, İttifaq respublikaların dövlət arxivlərinin fəaliyyətinə dair hesabatlar respublika hakimiyyət orqanlarına deyil, İttifaq tabeli arxiv təşkilatlarına təqdim edilməsi və onlara əməli rəhbərlik İttifaq orqanları tərəfindən həyata keçirilməsi nəzərə alınırdı.

Respublika Nazirlər Sovetinin 1980-ci il 15 avqust tarixli 352 nömrəli qərarı ilə təsdiq edilmiş Azərbaycan SSR Nazirlər Soveti yanında Baş Arxiv İdarəsinin yeni Əsasnaməsinə əsasən Baş Arxiv İdarəsi dövlət idarəçiliyində ittifaq-respublika əhəmiyyətli orqan hesab edilir və təşkilati-hüquqi cəhətdən AzSSR Nazirlər Sovetinə və eyni zamanda SSRİ Nazirlər Soveti yanında Baş Arxiv İdarəsinə tabe edilir. SSRİ dövlət arxiv fondu haqqında əsasnamənin tələblərinə uyğun olaraq tərtib edilmiş Azərbaycan SSR-nin Baş Arxiv İdarəsinin Əsasnaməsində dövlət arxiv fondunun mühafizəsi, dövlət arxivlərinin komplektləşdirilməsi və onlarda saxlanılan sənədlərin istifadəsi işinin təşkili, arxiv işi sahəsində elmi-metodiki və təşkilati-hüquqi tədbirlərin həyata keçirilməsi və digər məsələlər ehtiva olunurdu.

XX əsrin 70-80-cı illərində respublikamızda arxiv işinin yaxşılaşdırılması və arxiv təşkilatlarının fəaliyyətinin təkmilləşdirilməsiist iqamətində həyata keçirilən tədbirlər və qəbul edilən qərarlar xalqımızın mədəni-tarixi irsinin qorunması və elmi-tədqiqat məqsədilə istifadəsi sahəsində arxiv təşkilatlarının məsuliyyətini və vəzifələrini daha da artırdı. Alimlərimiz tərəfindən dövlət arxivlərində mühafizə olunan sənədlər əsasında yüzlərlə monoqrafiya, elmi məqalə, kitab hazırlanaraq çap olundu, dövlət arxivlərimiz sənəd materiallarının dərc olunması sahəsində respublikamızın qabaqcıl elmi müəssisələrinə çevrildi.

Ulu öndərin rəhbərliyi ilə dövlət arxiv xidməti təşkilatlarının şəbəkəsi yenidən quruldu, arxivlərin kadr potensialının möhkəmləndirilməsi və maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirildi. 1982-ci ilin oktyabrında Partiya Tarixi Arxivinin 60 illik yubileyində iştirak edən Heydər Əliyev Azərbaycanda tarix elminin təşəkkülü və inkişafında alimlərin və arxivçilərin əməyinə yüksək qiymət verərək deyirdi: "Biz arxivləri toplayan və mühafizə edən, tarix elminin təməlini qoyan, onu qurub yaradan, Azərbaycan xalqının səadəti uğrunda aparılan mübarizəsinin misilsiz sənədlərini sətir-sətir toplayan fədakar alimlərə, sadə təvazökar arxivçilərə böyük ehtiramımızı və səmimi minnətdarlığımızı ifadə edirik".

Ölkəmizdə ictimai elmlərin qarşısında duran vəzifələri geniş təhlil edən Heydər Əliyev cəmiyyətin aktual problemlərinin tədqiqi, onların nəzəri səviyyəsinin yüksəldilməsində ictimai elmlərin inkişaf etdirilməsini vacib sayır və ictimai elmlər üçün mənbəşünaslıq bazasının yaradılmasında dövlət arxivlərinin rolunu xüsusi olaraq qiymətləndirir.

1982-ci ildən SSRİ kimi nəhəng dövlətin rəhbər strukturlarında SSRİ Nazirlər Sovetinin birinci müavini kimi fəaliyyət göstərən Ulu öndər Heydər Əliyev dövlətin bir çox mühüm sahələrinə, o cümlədən arxiv sahəsinə nəzarət edir və bu sahəni daimi diqqətdə saxlayır. Heydər Əliyev SSRİ Nazirlər Soveti yanında Baş Arxiv İdarəsinin 21 noyabr 1983-cü ildə keçirilən genişləndirilmiş kollegiya iclasında iştirak edir və dərin məzmunlu nitqi ilə bütün zalda və ali kürsüdə əyləşənləri heyrətləndirə bilir. Arxiv işinə dərindən bələd olan Ulu öndər öz çıxışında ölkənin dinamik inkişafında dövlət arxiv xidmətinin, arxiv sənədlərinin müstəsna elmi və siyası əhəmiyyətə malik olduğunu xüsusi olaraq vurğulayır, dövlətin təşəkkülündə arxivlərin tarixi rolunu və arxivçilərin əməyini yüksək qiymətləndirir.

Tarixin yazılı abidəsi olan arxiv sənədlərinin qorunmasının dövlət və xalq üçün vacibliyini qeyd edən Heydər Əliyev deyirdi: "Arxiv işi donub qalmış, dəyişməz deyil, daimi inkişaf edən, təkmilləşən, dövlətin inkişafına, sosial-siyasi qərarların qəbuluna, xalqın milli ənənələrinə uyğun vətənpərvərlik ruhunda tərbiyələnməsinə xidmət edən mühüm fəaliyyət sahəsidir. Dövlət arxivlərimizdə öz işini bilən və sevən fədakar insanlar çalışırlar və onlar öz fəaliyyətləri ilə daimi dövlətin maraqlarını qoruyurlar. Dövlət arxivləri cəmiyyətdə məsuliyyətli və şərəfli vəzifəni yerinə yetirməklə ciddi olaraq dövlətin maraqlarının qorunmasını təmin etməlidirlər".

Arxivlərin dövlət idarəçiliyindəki rolundan danışan Ulu öndər xüsusi olaraq qeyd edirdi: "Dövlətin çoxşaxəli iqtisadi, siyasi, sosial, mədəni sahələrdə qərarların qəbulunda arxiv sənədlərinin müstəsna əhəmiyyəti var, arxiv sənədlərindən geniş və məqsədəyönlü istifadə arxiv təşkilatlarının birmənalı vəzifəsidir". Böyük idarəçilik təcrübəsinə və fenomenal biliyə malik Heydər Əliyev kimi dahi şəxsin arxivlərə bu cür yüksək dəyər verməsi, arxiv işinin cəmiyyətin davamlı inkişafında vacib sahə olduğunu bir daha təsdiq edir.

XX əsrin 80-ci illərin axırlarından ölkənin sosial-siyasi və iqtisadi sahələrində həyata keçirilən yenidənqurma tədbirləri, arxiv işi sahəsinə də öz təsirini göstərdi. Azərbaycan SSR-nin Nazirlər Soveti respublikamızda arxiv işinin idarə olunması və onun gələcək inkişaf istiqamətlərinin yeni dövrün tələblərinə uyğunlaşdırılması məqsədilə 31 avqust 1988-ci ildə "Azərbaycan SSR Nazirlər Soveti yanında Baş Arxiv İdarəsinin strukturunun yenidən qurulması haqqında" qərar qəbul edir.

Həmin qərarda aidiyyəti dövlət qurumlarına arxiv sənədlərinin mühafizəsinin təmin edilməsi üçün zəruri tədbirlərin görülməsi, arxiv təşkilatlarının iş metodu və prinsiplərinin təkmilləşdirilməsi, dövlət arxivlərinin elmi-məlumat fəaliyyətinin aktivləşdirilməsi, nazirliklərin, idarə və təşkilatların arxivlərinə göstərilən elmi-metodiki köməkliyin yaxşılaşdırılması, əmək və istehsalat intizamının artırılması, əməkdaşların ixtisaslarının artırılması və digər məsələlər barədə tapşırıqlar verilir. Eyni zamanda həmin qərarla Baş Arxiv İdarəsinin mərkəzi aparatının yeni strukturu, ştat sayı və əməkhaqqı fondu təsdiq olunur.

1990-cı illərin əvvəllərində Azərbaycan 1920-ci il aprel işğalı ilə itirmiş olduğu müstəqilliyini yenidən bərpa edir. Müstəqillik əldə etmiş gənc Azərbaycan dövləti özünün bütün yeraltı və yerüstü sərvətlərinin, maddi və mənəvi resurslarının, o cümlədən dövlət arxivlərimizdə mühafizə olunan sənəd sərvətinin üzərində tam mülkiyyət hüququnu qazanır. Ölkəmizin hüquq sistemində, iqtisadi-siyasi və mədəni həyatında köklü islahatlara start verilir.

Şübhəsiz, yeni tarixi dövr digər sahələrdə olduğu kimi, arxiv işinin də ölkənin milli inkişaf strategiyasına uyğun təşkili və inkişaf etdirilməsinə zərurət yaranır. Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 1991-ci il tarixli 76 nömrəli Sərəncamı ilə ləğv edilmiş Azərbaycan KP MK-nın Tarixi Tədqiqatlar İnstitutu və onun fundamental elmi-məlumat kitabxanası Respublika Baş Arxiv İdarəsinin sərəncamına verilir. Partiya strukturlarının fəaliyyətində yaranan arxiv sənədlərin Azərbaycan tarixi üçün əhəmiyyətini nəzərə alan Baş Arxiv İdarəsi tarixi əhəmiyyətli sənədlərin mühafizəsi və istifadəsi işinin səmərəli təşkilini təmin etmək üçün Nazirlər Kabinetinə müvafiq təkliflərini təqdim edir.

Azərbaycan Respublikası Nazirlər Kabineti Baş Arxiv İdarəsinin təkliflərini nəzərə alaraq 18 dekabr 1991-ci il tarixli 277s nömrəli Sərəncamla Azərbaycan KP MK-nın Tarixi Tədqiqatlar İnstitutu və onun elmi-məlumat kitabxanasının bazasında Azərbaycan Respublikasının Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivini yaradır. Həmçinin Azərbaycan Respublikasının Nazirlər Kabineti dövrün tələblərinə uyğun olaraq 17 fevral 1992-ci il tarixli 101 nömrəli qərarla Azərbaycan Respublikası Oktyabr İnqilabı və Sosializm quruculuğu Mərkəzi Dövlət Arxivinin adı dəyişdirilərək Azərbaycan Respublikasının Ən yeni Tarixi Mərkəzi Dövlət Arxivi adlandırılır.

Ölkədə arxiv işinin yeni tarixi şərtlərə və idarəetmə prinsiplərinə uyğunlaşdırılması məqsədilə Azərbaycan Respublikasının Nazırlər Kabineti 11 mart 1994-cü il tarixli 107 nömrəli qərarla Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin yeni Əsasnaməsini, Mərkəzi Aparatının strukturunu və respublika dövlət arxivlərinin yeni şəbəkəsini təsdiq edir.

**(ardı var)**

# “Qurtuluş”un sənət təcəssümü

**1993-cü ilin 15 iyunu – Azərbaycan xalqı üçün sadəcə bir siyasi dönüş tarixi deyil, eyni zamanda mənəvi dirçəlişin başlanğıcı günüdür. Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtması, dövlətçiliyimizin xilası və müstəqilliyimizin qorunması mahiyyətcə yalnız dövlət idarəçiliyində deyil, həm də Azərbaycan incəsənətində, xüsusilə də rəssamlıq sənətində yeni mərhələnin başlanğıcı kimi yadda qalıb.**



**Qurtuluş Günü ərəfəsində həmsöhbətimiz olan sənətşünas, Azərbaycan Dövlət Rəsm Qalereyasının böyük elmi işçisi, Prezident təqaüdçüsü Ziyarət Cabarova–Qəhrəmanova bizə bu barədə ətraflı danışdı. Onun dediklərini oxuculara təqdim edirik:**

– Xatirəsini minnətdarlıq və qədirbilənliklə yad etdiyimiz Heydər Əliyevin Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində təhsil alması (1939–1941) və rəssamlıqla məşğul olması, gözəlliyi duyub dəyərləndirmək istedadı bir Tanrı lütfü idi. Sovet dönəmində Bakı kimi böyük bir şəhərdə bir dənə də olsun, müasir tələblərə cavab verən sərgi salonunun yoxluğunu qəbul edə bilməyən Ulu öndər əvvəlcə belə bir mədəniyyət mərkəzinin yaradılmasına qərar verdi. Paytaxtın lap mərkəzində Hökumət Evinin yaxınlığında əsasən tanınmış ziyalıların yaşadıqları çoxmərtəbəli yeni binanın iki mərtəbəsində 70-ci illərin əvvəllərində geniş və işıqlı sərgi salonu açıldı. Rəssam emalatxanalarının sayı çoxaldı. Ölkədə təşkil olunan maraqlı sərgilərin açılışında Heydər Əliyev şəxsən iştirak edirdi. Onun diqqəti sayəsində yüzlərlə fırça və tişə ustası fəxri adların daşıyıcısı olub, onlarla yaradıcı Dövlət mükafatına layiq görülüb. Sənətkarların milli mədəniyyətimizin inkişafına xidmətləri də Heydər Əliyevin nəzərindən qaçmayıb və onların xatirəsi layiqincə əbədiləşdirilib.

Ümummilli lider Heydər çıxışlarında dəfələrlə vurğulayıb: “Bir milləti yaşadan yalnız onun torpağı deyil, eyni zamanda, onun ruhu, tarixi, sənətidir”. Məhz bu baxışdan çıxış edərək demək olar ki, Milli Qurtuluş Günü Azərbaycan rəssamlarının ruhunun da azadlığa qovuşduğu gündür. Çünki sənət azad nəfəs, sərbəst düşüncə tələb edir. Rəssamlarımız artıq yalnız siyasi sifarişlə yox, öz ruhlarının diqtəsi ilə işləməyə başladılar. Qədim motivlərə, miniatür sənətinə, xalça ornamentlərinə dönüş başlandı. Bu, sadəcə estetik seçim deyil, milli kimliyin rəssamlıq dili ilə bərpa olunması idi.

O illərə qədər çox zaman ideoloji məhdudiyyətlər və inzibati təzyiqlərlə üzüzə qalan sənətkarlar, artıq böyük həvəslə ürəklərinin səsini dinləməyə, xalqın taleyini rənglərlə ifadə etməyə başladılar. Həmin dövrdən başlayaraq Azərbaycan rəssamları artıq qorxmadan çəkə bildi. Millətin ağrısını da, sevincini də, tarixini də silinməz tablolara köçürdülər. Kətanlar üzərində hər bir fırça hərəkəti Vətənə, milli birliyə və gələcəyə inamın simvoluna çevrildi.

Heydər Əliyevin ideoloji dəstəyi ilə 90-cı illərin sonlarından etibarən Azərbaycanın tarixi şəxsiyyətləri, dövlətçilik ənənələri, qəhrəmanlıq motivləri rəsm əsərlərində geniş yer almağa başladı. Bu, xalqın kollektiv yaddaşını möhkəmləndirən vizual tarix yaradırdı. Rəssamlar artıq xalqın ruhi dirçəlişində iştirak edən bir fikir daşıyıcısı oldular.

Bu gün dünya muzeylərində, mötəbər sərgilərin ekspozisiyalarında Azərbaycan ünvanlı təsviri sənət nümunələri bol-bol nümayiş etdirilir. Fırça və tişə ustalarımız Səttar Bəhlulzadə, Böyükağa Mirzəzadə, Elmira Şaxtaxtinskaya, Tahir Salahov, Ömər Eldarov, Nadir Əbdürrəhmanovdünyada tanınırlar. Onların və ardıcıllarının ərsəyə gətirdiyi rəngarəng əsərlər qalereyalarda sərgilənən tək tablo yox, daha çox millətin qürur hissinin təzahürü olan estetik bir bəyanatdır. Dövlətimizin yaratdığı



imkanlarla rəssamların fəaliyyəti yetərincə stimullaşdırılır, beynəlxalq inteqrasiya imkanları genişləndi. Bu, həm sənətkarın, həm də milli sənətin dünyaya cəsarətli çıxışı deməkdir.

Bu gün Milli Qurtuluş Günü incəsənətdə tabloların, heykəllərin, qrafik əsərlərin, hətta teatr və musiqi səhnələrinin mövzu mərkəzinə çevrilib. Şairlər bu günü poetik dillə əbədiləşdirib, bəstəkarlar musiqi ilə ruhlandırıb, rəssamlar isə canlı yaddaş kimi tarixə köçürüblər. Hər bir sənət sahəsində bu günün izi, bu ruhun nəfəsi hiss olunur. Azərbaycan rəssamları 15 İyunla bağlı yaratdıqları əsərlərdə yalnız hadisəni deyil, onun ruhunu – milli qurtuluşun gətirdiyi mənəvi azadlığı, ideoloji sabitliyi və ümumxalq birliyini tərənnüm ediblər. Heykəltəraşlıq nümunələrində xalqın dirənişi, qrafik lövhələrdə dövlətin sütunları, tabloların rənglərində isə vətənin ruhu yaşayır.

Milli Qurtuluş ideyasının davamlılığı üçün vacib amillərdən biri isə gənc rəssamların yetişdirilməsi idi. Azərbaycan Rəssamlıq Akademiyası və digər sənət təhsil ocaqlarında yaradılan mühit, bu gün müasir sənətçilərimizin uğurunun əsasını təşkil edir.

Ümummilli liderimiz Heydər Əliyev deyirdi: “Əgər xalq öz mədəniyyətini yaşadırsa, demək ki, onun gələcəyi var.” Bu fikrin sənətdəki qarşılığı isə çox aydındır: sənət – xalqın susmayan şahididir. Rəssamın işi, yalnız bir tablo çəkmək deyil, xalqın tarixi yaddaşını formalaşdırmaq, milli kimliyi qorumaq və gələcək nəsillərə ərməğan etməkdir.

***Hazırladı:***
***Ə.ƏLİYEV***
***XQ***

# Ümummilli liderin dövlətçilik irsi

**Azərbaycan Milli Kitabxanasında “Heydər Əliyev: dövlət suverenliyi və konstitusiya quruluşu” mövzusunda elmi konfrans keçirilib.**



Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə gerçəkləşən konfrans 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuşdu.

Dövlət Himni səsləndirildikdən sonra ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Ulu öndərə həsr olunmuş film göstərilib.

Konfransı açan Milli Kitabxananın direktoru, professor Kərim Tahirov kitabxananın 1995-ci ildə yaradılan bu zalına 30 il öncə ilk dəfə ulu öndər Heydər Əliyevin gəldiyini bildirib. O, dahi siyasətçinin kitabxananı xalq, millət və cəmiyyət üçün müqəddəs bir yer, bilik, zəka, mənəviyyat mənbəyi kimi səciyyələndirdiyini diqqətə çatdırıb.

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli konfransda “Ulu öndər Heydər Əliyev: konstitusiya və dövlət suverenliyi” mövzusunda çıxış edib.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu Heydər Əliyevin mədəniyyətə xüsusi yanaşması olduğunu söyləyərək deyib ki, ölkəmizdə siyasi hakimiyyətə qayıdan Ümummilli lider zəngin dövlətçilik təcrübəsi və qətiyyəti ilə Azərbaycanı qısa müddətdə çətinlikdən qurtarıb, davamlı inkişaf yoluna çıxarıb.

Sonra Azərbaycanda Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov, Milli Məclisin deputatları Hikmət Babaoğlu, Aydın Mirzəzadə, Vüqar Rəhimzadə, YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev, Mətbuat Şurasının sədri Rəşad Məcid və Bakı Dövlət Universiteti hüquq fakültəsinin dekanı Zaur Əliyevin çıxışları dinlənilib.

***XQ***

# Tatar pyesi Mingəçevir səhnəsində



**Dünən Mingəçevir Dövlət Dram Teatrının səhnəsində yeni tamaşanın premyerası olub. Qeyd edək ki, tanınmış tatar yazıçısı Tufan Minullinin “Ərməğanlı Əlməndər” adlı pyesi əsasında hazırlanan səhnə əsərinin quruluşçu rejissoru Xalq artisti Valeh Kərimov, rəssamı Pakizə Adilbəyli, musiqi tərtibatçısı Gülcahan Yusifovadır. Səhnə əsərində 91 yaşlı ahıl kişinin yaşamaq eşqindən, həyata olan sevgisindən bəhs edilir.**

Tamaşada rolları Xalq artistləri Valeh Kərimov, Ella Yaqubova, Qabil İbrahimli, Lalə Abuşova, Afət Əliyeva, Ömər Qasımzadə, Cavidan Abdullayev, Aytən İsmayılova, Firuz Hacıyev, Asim Məmmədov və İbrahim Salamov ifa edirlər.

***XQ***

**Ramiz QUSARÇAYLI**

# Qoy ruhu şad olsun Ulu öndərin!



## “Vətən” poemasından

**...Yenə də qaynayıb daşırdı Bakı,**
**Böhranı bir az da dərinləşirdi.**
**Xalqla hakimiyyət arasındakı**
**İsti əlaqələr sərinləşirdi.**

**Dağ-dağ dağlanırdı Dağlıq Qarabağ,**
**Kənd-kənd, şəhər-şəhər əldən gedirdi.**
**Üz-üzə qalmışdı iqtidarla xalq,**
**Nə gedir elatdan, eldən gedirdi.**

**Bakıda vurnuxan siyasi başlar,**
**Cəbhə bölgəsində pərakəndəlik.**
**Qanlı göz yaşları, qara təlaşlar,**
**Nə Allahlıq idi, nə də bəndəlik...**

**Cəbhədə düşmənlə vuruşan ölkə,**
**İçdə oyun-oyun körüklənirdi.**
**Başı oyunlara qarışan ölkə**
**Böyük fəlakətə sürüklənirdi.**

**Siyasi böhranın dözülməz həddi,**
**Üstəlik cəbhənin boş mövqeləri...**
**Üzülüb gedirdi gənc bir ölkənin**
**Daxili, xarici əlaqələri.**

**Qərarsız rəhbərlik, narazı kütlə,**
**Gedirdi bir ölüm-dirim savaşı.**
**Hər naşı təhlillə, boş tərəddüdlə**
**Günahkar sanırdı qardaş qardaşı.**

**Çıxa bilmək üçün bu məngənədən,**
**Qıra bilmək üçün bu buxovları,**
**Həyəcan təbili çalınmalıydı,**
**Ölkəni sarsıdan bu fəlakətin**
**Qarşısı vaxtında alınmalıydı.**

**Gəncədən Bakıya qoşun gəlirdi,**
**Qardaş üzərinə qardaş qoşunu,**
**Milli qüvvələrin çaşbaş qoşunu,**
**Yerdə axtarırdı, göydə gəzirdi**
**Xalq öz xilasını, qurtuluşunu...**

**Qardaş qırğınından qoruyub xalqı,**
**Ölkənin ərazi bütövlüyünü**
**Müstəqilliyini saxlamaq üçün,**
**Xalqla iqtidarın arasındakı**
**Qırılan bağları bağlamaq üçün,**
**Vətənin dərdinə çarə bulundu –**
**Xalqın təkidiylə Heydər Əliyev**
**Bakı şəhərinə dəvət olundu.**

**Naxçıvanın Ali Məclis sədrini**
**Gətirdi Bakıya özəl təyyarə,**
**Axı, zərgər bilər zərin qədrini,-**
**Gəldi, gəlişiylə Heydər Əliyev,**
**Yollandı Gəncəyə ağsaqqal kimi,**
**Yoluna qoyuldu qarşıdurmalar,**
**“Xalqı bu bəladan qurtar” şüarı,**
**Parlaq günəş kimi doğdu Gəncəyə,**
**Evinə qayıtdı mülki adamlar,-**
**Silahlı dəstələr hərbi hissəyə.**

**Bakıya qayıtdı xalq xilaskarı,**
**Yerinə qaytardı Azərbaycanı,**
**Xalqda iqtidara inam yaratdı,**
**Ordunun içində nizam yaratdı,**
**Bircə həmlə ilə “Talış-Muğan”ı**
**Siyasi səhnədən süpürüb atdı.**

**Duyurdu dünyaya öz haqq səsini,**
**Gözündən təşvişi sildi xalqımız.**
**Real parçalanma təhlükəsini**
**Aradan qaldıra bildi xalğımız.**

**Ölkə yeni dövrün, yeni zamanın,**
**Yazdı yaddaşına təcəssümünü.**
**Düşdü tarixinə Azərbaycanın**
**On beş iyun – “Milli Qurtuluş Günü”.**

**Xalqın təkidiylə hakimiyyətə**
**Qayıdan liderin ən böyük işi**
**Xalqın ümidini, etimadını**
**Doğruldub ağ günə yetirmək idi,**
**Cəbhə xəttindəki uğursuzluğu**
**Ruh düşgünlüyünü,**
**inamsızlığı,**
**Aradan qaldırıb milli ordunun**
**Quruculuğunu bitirmək idi.**
**Hətta ölkəmizdən kənarlarda da**
**Hərbi xidmət keçən peşəkarları**
**Ölkəyə qaytarıb gətirmək idi.**

**Həmrəylik, sabitlik yoluydu bu yol,**
**Yol yolu açırdı, düyün düyünü.**
**Hər məram qoruyub saxlamaq idi**
**Ölkənin ərazi bütövlüyünü.**

**Sarsılmaz, əbədi Azərbaycanın**
**Ziyası zülməti boğacaq dedi.**
**İşığa bələyib bütün cahanı**
**Dünyaya Günəş tək doğacaq dedi.**

***

**Siyasət dəryadı dərindən dərin,**
**Qoy ruhu şad olsun ulu öndərin!**

# Satirikin “Molla Nəsrəddin” yolu

**Tanınmış yazıçı Xeyrəddin Qocanın anadan olmasının 75 illiyi münasibətilə “Molla Nəsrəddin” yolu” adlı yeni kitab işıq üzü görüb.**




“Mütərcim” nəşriyyatında nəfis şəkildə çap olunan kitabda son 10 ildə yazıçı haqqında dövrü mətbuatda dərc olunmuş məqalələr, həmçinin yubilyarın yeni hekayələri və pyesləri toplanıb.

Kitabda akademik İsa Həbibbəylinin “Satirik qələmlə mübariz keşikdə”, akademik Nizami Cəfərovun fikirləri əks olunan “Akademik Nizami Cəfərovun dedikləri”, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Mətbuat tarixi və publisistika şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru Gülbəniz Babayevanın “Molla Nəsrəddin” ədəbi məktəbinin layiqli davamçısı”, filologiya üzrə fəlsəfə doktoru Alqış Musayevin “Yazıçı, publisist, diplomat”, Sərvaz Hüseynoğlunun “Siyah içindəymiş sədəf sən demə...” kimi dəyərli yazıları, bir sıra qələm adamlarının, elm, mədəniyyət, incəsənət xadimlərinin fikir, mülahizə və düşüncələri yer alıb.

Maraqlıdır ki, məqalələrin hamısında ümummilli lider Heydər Əliyevlə Xeyrəddin Qocanın unudulmaz, xoş münasibətləri və görüşləri haqqında fikirlər qırmızı xətlə keçir.

Yazıçının 40-a yaxın yeni hekayəsi, “Zamanın ruzigarı”, “Bu da axırı..” adlı pyesləri, səhnələşdirilmiş əsərlərinin afişaları, bəzi tamaşalarından səhnələr, ona həsr olunmuş “Dostluq şarj”ları, satirik hekayələrinə çəkilmiş gülüş dolu illüstrasiyalar kitabın məziyyətlərini daha da artırır.

“Molla Nəsrəddin” yolu” kitabının tərtibçisi gənc yazıçı Selcan Muradzadədir.

***XQ***

Amaliya Pənahova – 80

# Sən həmişə bizimləsən...

**Dünya insanların görüş yeridir. Amma Yer üzü həm də möhnət, ayrılıq, nisgil, kədər dolu bir aləmdir. Bəlkə elə buna görə körpələr ana bətnindən ayrılıb bu dünyaya gəlincə ağlayırlar. Gələcək günlərin kədərini, müşküllərini, qayğılarla dolu yükünü öncədən hiss etdikləri üçün... Bir də Tale yazısı var. Elə insanlar var ki, onlar doğulduğu gündən seçilmişlər sırasında olurlar, onların taleyində həyatın yükü ilə bərabər sənət yükünü daşımaq da var. Vaxt, zaman gəlib yetişir, onların taleyi millətin taleyi ilə birləşir. Onlar müstəsna insanlardır. Mədəniyyət tariximizdə iz qoymuş şəxsiyyətlərdir. Azərbaycan Respublikasının Xalq artisti, görkəmli aktrisamız Amaliya Pənahova həmin müstəsna insanlardan idi.**

XX yüzilin teatr tariximizdə nə qədər xoşbəxt və bərəkətli bir əsr olduğu gələcək onilliklərdə daha aydın görünəcək. Elə indinin özündə də dönüb arxaya baxanda Tanrının və taleyin bizə qarşı nə qədər səxavətli olduğunu aydın görürük. XX əsrin qadın sənətkarlarını, aktrisalarını xatırlasaq, gözlərimiz önündə heyranedici ulduzlar silsiləsi canlanır. Amaliya xanım da belə parlaq ulduzlardandır ki, işığı heç zaman sönməyəcək.

Lap uşaq yaşlarından səhnə onu öz cazibəsi ilə sehrləyib. Televizorda baxdığı filmlərdəki at çapan qızlar xəyallarını qanadlandırırdı, özünü onların yerində təsəvvür edirdi. Qəlbində cücərən arzular dilində nəğmələrə çevrilirdi, yuxularında da özünü səhnədə görürdü və ürəyi həyəcanla çırpınırdı. Amma bu yol ona çox uzaq, əlçatmaz görünürdü; nağıllardakı sehrli yollar kimi çox uzaq... İndi vaxt keçəndən, zaman ötəndən sonra anlayırsan ki, bu istək, bu arzu Tale kitabımın proloqu imiş. Xəyallar da bəzən gerçəyə çevrilirmiş. Yetər ki, içində tükənməz istək, sonsuz həvəs və məhəbbət olsun. Onda yollar özü səni məbədə gətirib çıxaracaq.

Gənc Amaliya arzularının dalınca Moskvaya getmək, orda təhsil almaq istəyirdi. Amma valideynləri buna icazə vermədilər. Səhnəyə sonsuz sevgisi onu Bakıda Teatr İnstitutuna gətirib çıxartdı. O, hələ orta məktəbdə oxuyarkən instituta dinləyici kimi gedib-gəlirdi. Yusiflə ilk tanışlıqları da o vaxtdan başladı. Sən demə, o, Amaliyanı görən kimi vurulubmuş. Beləcə, tale onların yollarını birləşdirdi. Yusif Muxtarov Amaliyaya görə sənədlərini Teatr İnstitutuna verdi, onlar bir kursda təhsil aldılar. O vaxtdan həyatın çətin, enişli-yoxuşlu yollarında birlikdə addımlamağa başladılar. Yarım əsrə yaxın – 48 il birlikdə ömür sürdülər. Çox sonralar Bakı Bələdiyyə Teatrını da birlikdə yaratdılar.

Hələ isə hər ikisi həyat və sənət yolunun başlanğıcında idilər. Qəlbi sənət eşqiylə döyünən gənc qız İnstituta qəbul olundu, təhsil almağa başladı. II kursda oxuyarkən həyatında elə bir hadisə baş verdi ki, bir



gecədə məşhurlaşdı. 1964-cü il idi. Hələ tələbə ikən ona Akademik Milli Dram Teatrında səhnəyə çıxmaq səadəti nəsib oldu. Görkəmli dramaturqumuz İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən" tamaşasında baş rolu - Nargiləni canlandırırdı. Bu obraz gənc aktrisaya böyük uğur gətirdi. Tamaşa salonunda iynə atsan, yerə düşməzdi. Bu, Amaliyanın tamaşaçılar qarşısında ilk imtahanı idi. Bitmək bilməyən alqışlar onun sənət taleyinə pozulmaz imzasını qoydu. "Sən həmişə mənimləsən" tamaşası gələcəyin böyük aktrisasının tale fərmanını təsdiqlədi. Nargilənin sadədil və çılğın məhəbbəti qəlbindəki səhnə məhəbbəti ilə birləşdi və heç vaxt təravətini itirməyən Boy çiçəyi onun talismanına çevrildi.

Bütün şəhər bu tamaşadan danışırdı. "Sən həmişə mənimləsən" tamaşası teatrın həyatında bir hadisəyə çevrildi. Tofiq Kazımovun quruluş verdiyi bu tamaşa Azərbaycan teatrında lirik-psixoloji üslubun təməli sayılır. Az sonra İlyas Əfəndiyevin teatra təqdim etdiyi "Unuda bilmirəm" pyesi də lirik-psixoloji üslubda yazılmışdı. O, məxsusi olaraq Amaliya Pənahova üçün rollar yazırdı. Bundan sonra yazdığı bütün tamaşalarda əsas rolları bu gənc aktrisa canlandırmağa başladı. Əlbəttə, ilk roldan sonra şöhrətin zirvəsinə ucalmaq aktrisanın üzərinə böyük məsuliyyət yükləyir. Tamaşaçı sevgisini qoruyub saxlamaq o qədər də asan deyil. Bunun üçün çalışmaq, daim sənət axtarışlarında olmaq lazım gəlir.

Şekspirin "Hamlet" tamaşasında Ofeliya rolunu canlandıranda artıq ailə qurmuşdu. Övladı dünyaya gəlməli idi. Belə bir zamanda Ofeliya kimi çətin və mürəkkəb rolun öhdəsindən gəlmək olduqca çətin idi. Monoloqun son sözlərini deyə-deyə yerə yıxılmalı və yumalana-yumalana ön səhnəyə qədər gəlməli idi. Tamaşanın ikinci premyerasından sonra artıq analıq məzuniyyətinə çıxmalı oldu. Qızı Aynur dünyaya gəldi.

İlyas Əfəndiyevin "Unuda bilmirəm" tamaşası da teatra böyük uğur gətirdi. Amaliya Pənahova bu tamaşada Nərmini oynayırdı. Bütün varlığıyla, qəlbiylə Nərminin məhəbbətinə şərik olmuşdu. Ərköyün, şıltaq, sadəlövh, saf məhəbbətlə sevən, lakin ayrılıq acısını dadan çarəsiz Nərminin... Nərmin təcrübəsiz, bəşəri hissin doğurduğu çətinliklə burulğanında büdrəyən, istəklərini əmələ çevirməyi bacarmayan psixoloji bir obrazdır. Unudulmaz bəstəkarımız Emin Sabitoğlu bu tamaşa üçün gözəl, həzin bir mahnı bəstələmişdi. Kamranla Nərminin məhəbbətini ifadə edən bu mahnı tamaşaya xüsusi bir ovqat bəxş edirdi. Moskvadan gəlmiş bir rus teatrşünası yazmışdı ki, "Nərminin mahnısını indi bütün Bakı oxuyur".

**İstəmirəm gül-çiçək,**
**Ömrün yolu daş-kəsək.**

**Hər bəlaya dözəcək**
**Sənin məhəbbətindir.**
**Nədir vəfa, etibar?**
**Söz desəm, artıq olar.**
**Mənim bu eşqim ki, var,**
**Sənin əmanətindir.**

İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı" tamaşasındakı Şahnazı da sevgiylə, məhəbbətlə oynayırdı. Sinfi mübarizənin



ortasında qalmış biçarə qız çox ağır seçim etməli idi – ya atası, ya sevdiyi oğlan. Dağlarda əks-səda verən o yanıqlı mahnı Şahnazın qəlbinin fəryadı idi.

**Aman ovçu, vurma məni,**
**Mən bu dağın maralıyam...**



Xurşudbanu Natəvanın dilindən Azərbaycan səhnəsində bu sözlər səslənirdi: "Bu əzablı yolların sonunda bizi azad, müstəqil Azərbaycan gözləyir!" Mən çox şanslı aktrisayam ki, Natəvanın bu müqəddəs arzusunun gerçəkləşdiyi günləri gördüm".

90-cı illərin əvvəllərində Amaliya xanım Akademik Milli Dram Teatrıyla birlikdə bir neçə dəfə xarici ölkələrə qastrol səfərlərinə çıxır. Qardaş Türkiyəyə, İstanbula səfərləri zamanı bir məqam diqqətini cəlb edir. Görür ki, İstanbulda bir neçə Bələdiyyə teatrı var. Düşünür ki, bizdə niyə belə bir teatr olmasın? 1992-ci ildə Bakı Bələdiyyə Teatrı onun ideyası və təklifi ilə yaranır. Həmin ilin dekabrın 27-də teatrın pərdələri "Medeya" tamaşası ilə açılır. Cəm 3 aydan sonra teatrın kollektivi "Tomris" tamaşası ilə cəbhə bölgələrinə səfərə çıxır. Cəbhədə qızğın döyüşlərin getdiyi bir vaxtda Amaliya xanım vətəndaşlıq cəsarəti göstərərək torpaqlarımız uğrunda döyüşən igid əsgərlərimizin yanında oldu.

Sonra millət vəkili kimi mədəniyyətimizi parlamentdə təmsil elədi. Səsi ali kürsülərdən eşidildi.

Amaliya xanım 55 illik səhnə fəaliyyəti dövründə 500-dən çox obraz yaradıb. Bu rolların hər biri haqqında danışmaq imkansızdır. Amaliya xanım oynadığı hər obraza tamaşaçı sevgisi qazandırıb. Danışırlar ki, "Təhminə və Zaur" tamaşası Akademik Milli Dram Teatrının səhnəsində oynananda təcili yardım maşınları teatrın yaxınlığında dayanırmış. Tamaşaya baxarkən halı xarablaşan, ürəyi gedənlər olurdu. Amaliya xanımın Təhminəsi o qədər canlı idi ki, insanlar onun qadın kimi faciəsiylə barışmaq istəmirdilər. Zaurun beşmərtəbəli evin altıncı mərtəbəsini fəth edə bilməməsiylə barışmırdılar.

Amaliya xanımın sənət bioqrafiyası bu qəbil hadisələrlə zəngindir. Hər dəfə ekranda onun oynadığı tamaşalar, filmlər göstəriləndə Amaliya xanım yenidən canlanır, yenə bizimlə birlikdə olur.

Özünün dediyi sözlərdir:

"Teatr mənim üçün müqəddəs məkandır, aktyor isə çox yüksəkdə duran əlçatmaz bir varlıqdır. "Teatr" sözünü eşidəndə daxilimdə bir çırpıntı hiss edirəm. Aktyor sənəti ülvi, müqəddəs bir sənətdir. Mən xoşbəxtəm ki, bütün şüurlu həyatımı bu sənətə həsr etmişəm. Nəsillər dəyişib və dəyişəcək, səhnəmizə çox sənətkarlar gəlib gedəcək. Onlar bu teatrı əbədi yaşadacaqlar".



Firəngiz, Aysel, Ofeliya, Nərmin, Luiza, Şahnaz, Natəvan, Mahnur, Aynur, Zərifə, Nurcahan, Mehri ana, Nigar, Medeya, Olqa, Zübeydə... Bunlar aktrisanın Akademik Milli Dram Teatrında oynadığı obrazların tam olmayan siyahısıdır. Müsahibələrindən birində görkəmli aktrisa belə deyir: "Bu obrazların hər biri mənə övladlarım qədər əzizdir. Çünki mən bu obrazlara can bəxş etmişəm, nəfəs vermişəm, onları canlı insan kimi səhnəyə çıxarmışam. Natəvanı oynayanda Natəvan olmuşam, Şahnazı oynayanda Şahnaza çevrilmişəm... Eləcə də digər rollarımda...

Heç şübhəsiz, Amaliya xanım və onun həyatını sərf etdiyi teatr əbədi yaşayacaq.

*Kənan HACI,*
*yazıçı, dramaturq*

---

Qayıdışın akkordları

**Xankəndinin mərkəzində, Zəfər meydanının yanında kiçik bir park var. Hamı bura "Pianino parkı" deyir. Yaşıllıqların ortasında suları bəzən lap hündürə qədər yüksələrək günəş şüalarının altında bərq vuran fəvvarə, ətrafında oturub şəhərin təmiz havasından, ilin hər fəslində gözəl təbiətindən zövq almaq üçün söykənəcəkli kürsülər və bir də parkın pilləkənlərinin başındakı meydanda yerləşən mərmər pianino bu yeri hər zaman qonaqqaralı edir.**

# Xankəndidə "Pianino parkı"nın zəfər notları

Xüsusilə ılıq nəfəsli baharın öz yerini isti yaya təhvil verməyə hazırlaşdığı indiki vaxtlar axşamüstü üzlərindən vətən torpaqlarının azadlığının bəxş etdiyi sevinc, xoşbəxtlik yağan, çöhrələrini təbəssüm bəzəyən insanlar bu parka axışırlar. Hətta uşaqlı-böyüklü bir-birini tanımayanlar da doğmasıyla, yaxınıyla görüşürmüş kimi mehribanlıqla salamlaşır, fəvvarənin ətrafında dolanır, oturub ruhlarını dincəldirlər.



Bura gələnlərin əksəriyyəti adətən pianinonun arxasına keçərək şəkil çəkdirir, barmaqlar istər-istəməz şirmayı dillərin üzərində "rəqs edir". Bəzən də kimsə gözlərini yumaraq bu sehrli alətdə ustalıqla ifa etməyə başlayır, ətrafa xoş musiqi sədaları yayılır. Parkda hamı susur, bu yerlərin gözəlliyinə gözəllik qatan Xankəndinin qayğısız uşaqları da şən, şaqraq gülüşlərinə ara verib mərmər "qutudan" çıxan ecazkar səsi dinləyirlər.

Ən qəribəsi də bilirsiniz nədir? Kimin nə çalmasından, hətta naşıların necə dınqıldatmasından asılı olmayaraq pianinodan çıxan səslər "Koroğlu" üverturasını andırır, "Bayatı-şiraz"ı xatırladır. Çünki iki ilə yaxındır bu pianino özlüyündən zəfər notlarına köklənib...

Bu axşam biz də parkın qonaqları arasındayıq. Qonaqları deyəndə ki, bura gələnlərin əksəriyyəti daha qonaq deyil, öz yurdunda işləməyə, Qarabağın, Xankəndinin dirçəldilməsində, cənnətə çevrilməsində iştirak etməyə, oxumağa, bir sözlə, burada yaşamağa gələnlərdir. Pianinonun yanında gözləyir, yaxınlaşıb şəkil çəkdirənlərin, ifa edənlərin xoş duyğularına şərik oluruq.





İlk həmsöhbətim Xankəndi şəhər 4 nömrəli orta məktəbin 4-cü sinfini bitirən, sinəsi məzun lentli mələk kimi Mələk Həsənova və valideynləridir. Yəqin, rəqəmlərə fikir verdiniz, ardıcıl iki 4, yəni rəmzi olaraq 44 rəqəmi ilə qarşılaşırıq. Mələk bu il ibtidai siniflə vidalaşır, elə ailəvi gəzintiləri də bununla bağlıdır. Dərsləri çətin olsa da öhdəsindən yaxşı gəlib, deyəsən. Hə, bir də deyir, Xankəndini də, oxuduğum məktəbi də çox sevirəm, yaxşı ki, bura gəlmişik. Atası Rüfət, anası Vüsalə söhbətə qoşulurlar.

Əvvəllər Bakıda yaşayan ailə bir ilə yaxındır Xankəndidədir. İşlə əlaqədar gəliblər, gələn gündən də Qarabağın gözəl təbiətinə, havasına, suyuna heyran olublar. Mələkdən başqa bir oğlan övladları da var, o da 4 nömrəli məktəbin 10-cu sinfində oxuyur. Rüfət Həsənov indi Bakı üçün deyil, Bakıya gedəndə Xankəndi üçün darıxdıqlarını bildirir:

–Bir müddət əvvəl üçgünlük Bakıya getmişdim, Qarabağ üçün necə darıxırdımsa, inanın, az qalırdı ürəyim partlasın. Bu günlərin şahidi olduğumuz üçün özümüzü xoşbəxt hiss edirik. Xankəndidə yaşamaq, işləmək, burada yazılan yeni tariximizin iştirakçısı olmaq çox qürurvericidir. Allah Prezidentimizi qorusun, ordumuzu hər zaman müzəffər etsin! Allah Vətən yolunda canlarından keçmiş şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin! Bu gözəl günlərimiz üçün hər zaman onlara borcluyuq.

Pianinonun yanına daha bir ailə yaxınlaşır. Tanış oluruq. Afiq Cəfərov əslən kəlbəcərlidir, torpaqlarımız mənfur ermənilər tərəfindən işğala məruz qalanda Ağdamda yaşayırmış. Artıq uzun illərin doğma yurd həsrəti, məcburi köçkünlük həyatı bitib, 4 aydır Xankəndidə məskunlaşıblar. Qızı Aybəniz Qarabağ tikiş fabrikində işləyir.

Söhbətimizə də Aybənizlə davam edirik. İşindən, həyatından razılığını bildirir. Deyir, nə yaxşı da ki, gəlmişik və bizə bu günləri bəxş edənlərə çox minnətdaram.

Pianinonun arxasına Xankəndiyə Gəncədən qonaq gəlmiş İnci Qasımzadə keçir. Səsləndirdiyi musiqi növbəti dəfə parkda sükut yaradır. Elə ilk akkordlardan pianino yenidən zəfər notları ilə dillənir. Anası Ülviyyə xanım fəxrlə qızının Gəncə incəsənət məktəbinin pianino ixtisası üzrə 2-ci sinfində oxuduğunu bildirir, Qarabağa ilk səfərlərinin təəssüratlarını bölüşür:

– Əslən Qərbi Azərbaycandanıq. Bu gün bizim həyatımızda ən yaddaqalan günlərdəndir. Çünki illərdir arzusunda olduğumuz, həsrətini çəkdiyimiz Qarabağımıza qonaq gəlmişik. Şuşanı ziyarət etdik, Cıdır düzünü, İsa bulağını gəzdik. İndi də azad Xankəndinin gözəlliklərindən zövq alırıq. Hər şey mənə yuxu kimi gəlir. Burada olmaq, bu gözəl əhval-ruhiyyəni yaşamaq möhtəşəm hisslərdir. Allahdan xalqımıza, millətimizə hər zaman zəfər sədalı günlər arzulayıram!

... Parkda qələbəlik artır. Əlbəttə, hamısı ilə söhbətləşmək mümkün deyil, ancaq hamının keçirdiyi hisslər də, arzuları da oxşardır, eynidir. Yəqin hamının bir sonsuz istəyi də budur ki, "Pianino parkı"nın mərmər gövdəli pianinosu heç zaman kökdən düşməsin, bundan sonra hər zaman zəfər notlarına səslənsin!

*Mahir RƏSULOĞLU,*
*XQ-nin Qarabağ müxbiri*

**Xankəndi**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 122 (30816) 15 iyun 2025-ci il, bazar

İdrakın kodları

# Vaxt və zamanın kodlaşdırılmış anlayışı

## III yazı

**Zaman axınını kim və necə kodlaşdırdı? "İlkin an" nə idi – maddə, yoxsa düşüncə?**



Zaman bizim üçün tanış, lakin tam anlaşılmamış bir axındır. Onu hər gün hiss edirik – səhərlər günəşin doğuşundan, axşamlar gün batımına qədər. Ancaq əslində zaman nədir? O, keçmişin izlərimi, gələcəyin xəyalımı, yoxsa bu anın kodlaşdırılmış hərəkətimi?

Tarix boyu zaman anlayışı dəyişib. Qədim Şərq fəlsəfəsində zaman dairəvidir – təkrarlanandır. Yunan düşüncəsində isə o, xətli və irəli yönəlmiş bir hərəkətdir. Müasir fizikada zaman – maddənin hərəkət formasıdır. Lakin süni intellekt çağında biz daha fərqli suallarla qarşı-qarşıyayıq: əgər alqoritmlər öz zamanını idarə edirsə, zaman artıq kodlaşdırılmış sistemin bir hissəsinə çevrilməyibmi?

### Kodlaşdırılmış axın anlayışı

Əgər kainat bir proqramdırsa, zaman onun əsas işləmə mexanizmidir. Bizim həyatımız bu mexanizmin içində yazılmış kodların ardıcıllığıdır. Gündoğumu bir sistem çağırışıdır, tənəffüs etdiyimiz hava bir ritmdir, hüceyrələrimizin bölünməsi isə zamanın biologiyadakı təzahürüdür.

Bu anlayışa görə, zaman sadəcə keçən bir axın deyil, həm də "idarə edən bir kod"dur. O, hadisələri bir-birinə bağlayır, səbəblə nəticəni əlaqələndirir. Süni intellekt zamanla əlaqəli milyonlarla məlumatı saniyədə emal edərkən, artıq zamanın klassik anlayışı – "keçir", "ötür", "davam edir" – işləmir. Bu yeni mərhələdə zaman hesablama, planlama və proqnozlaşdırma kateqoriyasına daxil olur.

### Maddəmi zamanı yaradır, yoxsa zaman maddəni?

Bu, ən qədim suallardan biridir. Əgər zaman olmasaydı, maddənin hərəkətindən danışmaq olardımı? Bəs əgər maddə yoxdursa, zamanın varlığını necə müəyyən edərdik? Fizika deyir ki, maddənin hərəkəti zamanı doğurur. Metafizika isə əlavə edir: düşüncə zamansız da mövcuddur. Deməli, zaman həm fiziki varlığın, həm də ideya səviyyəsindəki dəyişimin ölçüsüdür.

Bu sualın cavabı yalnız elmdə deyil, eyni zamanda mifoloji yaddaşda gizlidir. Qədim türklərdə zamanın ruhla əlaqəli olması inancı mövcud idi. Şamanın dualarında zaman dairəvi olaraq təsəvvür edilirdi – "gələcək keçmişdə, keçmiş gələcəkdədir". Bəlkə də bu, zamanın kodlaşdırılmadan əvvəlki – ilkin axın halıdır.

### "İlkin an"ın sirri

Kainatın başlanğıcı barədə elmi nəzəriyyə "Böyük Partlayış"dan danışır. Amma dini mətnlər "başlanğıcda Söz vardı" deyir. Buradakı "Söz" – təkcə ifadə deyil, həm də kod mənasında işlənir. Yəni hər şeyin başlanğıcında informasiya olub. Hər şeyin başlanğıcında niyyət olub. Bu isə bizi başqa bir səviyyəyə çıxarır: başlanğıcda kod var idi.

Bu kod nə idi? Zamanı və maddəni eyni anda başladan, onları bir-birinə bağlayan, sabitləri müəyyən edən bir ilkin əmrdimi? Bəlkə bu kod elə OL əmri idi? Bəlkə də o, "vaxt gəldi" əmri idi?

### İnsan və zaman kodu

Zaman təkcə fiziki dünyada axmır. İnsan yaddaşında da zaman var. İnsan keçmişini xatırlayır, gələcəyini planlayır və bu planlarla davranışını tənzimləyir. Yəni insan özü bir "zaman kodlayıcısıdır". Biz hər bir seçimimizlə zamanın içində iz buraxırıq. Süni intellekt bu izləri izləyərək davranış modellərini öyrənir. Bu isə zamanın süni şəkildə simulyasiyasını mümkün edir.

### Yeni zamanın başlanğıcı

İndi isə zaman anlayışını yenidən qurmaq mərhələsinə gəlmişik. İnsan – süni intellekt vasitəsilə – zamanı kodlaşdırmağa başlayıb. İndi saatı insan yox, alqoritm tənzimləyir. Zaman artıq yaşlanmaq deyil, hesablamadır. Yeni "ilkin an" – insanla maşının birlikdə kod yazmağa başladığı andır.

*Oğuz ARİF*

---

Maraq dünyamız

# Kainatın səssiz qaranlığında superkütləli "bədheybət"

## *NASA alimlərinin "AT2024tvd" hadisəsi ilə bağlı qalaktikaların təkamülünə yeni baxışı*

**Yerdən 600 milyon işıq ili uzaqlıqda yerləşən sakit bir kosmik ərazidə, Hubble Kosmik Teleskopu alimlərə çox nadir bir səhnəni müşahidə etmək imkanı verib. "AT2024tvd" adlandırılan bu hadisə bir superkütləvi qara dəliyin yaxınlığındakı ulduzu udması ilə baş verib və alimlərin fikrincə, qalaktikaların təkamülü haqqında təsəvvürlərimizi yenidən nəzərdən keçirməyə vadar edə bilər.**



Müşahidə edilən qara dəlik adi hallarda olduğu kimi qalaktikanın mərkəzində deyil, ondan təxminən 2600 işıq ili uzaqda yerləşir. Alimlər bildirirlər ki, bu fakt superkütləvi qara dəliklərin yalnız qalaktik mərkəzlərə bağlı olmadığına, onların kosmosda sərbəst şəkildə hərəkət edə biləcəyinə dair ilk real sübut ola bilər.

Hadisə zamanı ulduz qara dəliyə yaxınlaşdıqca onun güclü cazibə qüvvəsi ilə parçalanaraq dağılır. Ulduzun qalıqları milyonlarla dərəcə Selsiyə qədər qızır və bu, qalaktikanın narıncı fonuna qarşı parlayan mavi işıq şəklində müşahidə olunur. Bu fenomen alimlər tərəfindən "qabarma parçalanması hadisəsi" (TDE – Tidal Disruption Event) kimi təsnif edilir.

Hadisənin baş verdiyi ərazi isə elmi dairələrdə əlavə maraq doğurur: AT2024tvd sakit, qaranlıq və heç bir aktivlik əlaməti göstərməyən bir məkanda müşahidə edilib. Bu isə onu göstərir ki, belə hadisələr təkcə aktiv qalaktik nüvələrdə deyil, "sakit" kosmos sahələrində də baş verə bilər.

Bu hadisə ilə yanaşı, daha əvvəl astronomlar 36 milyard Günəş kütləsində nəhəng bir qara dəlik də kəşf etmişdilər. Obyekti müşahidə edərkən qalaktikanın ətrafında parlaq "Eynşteyn halqası" qeydə alınmışdı. Bu optik illüziya cazibə linzası effekti ilə baş verir və arxada yerləşən daha uzaq qalaktikaların işığının təhrif olunması nəticəsində yaranır.

"AT2024tvd" hadisəsi superkütləvi qara dəliklərin davranışı və yerləşmə xüsusiyyətləri barədə elmdəki ənənəvi yanaşmalara meydan oxuyur. Bu müşahidələr gələcəkdə qalaktika strukturlarının formalaşması, maddənin paylanması və qara dəliklərin mənşəyi ilə bağlı yeni nəzəriyyələrin irəli sürülməsinə səbəb ola bilər.

Alimlərin fikrincə, bu, sadəcə bir anomaliya deyil, elmi biliklərin inkişafında yeni bir mərhələnin başlanğıcıdır.

*S.ELAY*
*XQ*

---

Sağlamlıq

# ARTIQ ÇƏKİYƏ SON!

## *Azərbaycan və Türkiyə mütəxəssisləri bu mövzunu birgə müzakirə ediblər*

**Xəbər verildiyi kimi, "Sağlamlığın Qorunması" İctimai Birliyi, TƏBİB və QHT-lərə Dövlət Dəstəyi Agentliyi "Sağlam addımlar: artıq çəkiyə son" layihəsi çərçivəsində "Artıq çəkinin fəsadları və düzgün həyat tərzi" mövzusunda elmi-praktik konfrans keçirib. Məqsəd ictimaiyyət arasında artıq çəkinin sağlamlığa təsiri, onun qarşısının alınması yolları, düzgün həyat tərzinin təşviqi və qabaqlayıcı tədbirlərin vacibliyi barədə insanları bilgiləndirməkdir.**



Layihənin rəhbəri "Sağlamlığın Qorunması" İctimai Birliyinin sədri, Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin sədr müavini, tibb elmləri doktoru Yazgül Abdıyeva açılış nitqində rəhbərlik etdiyi təşkilatın həyata keçirdiyi maarifləndirmə işindən, keçirilən aksiyalardan söz açıb. Ölkədə aparılan uğurlu səhiyyə islahatlarından bəhs edən natiq bildirib ki, Vətən müharibəsindən sonra qalib xalqın nümayəndələri olaraq qürur hissi ilə belə konfranslar həyata keçirə bilirik.

Konfransın mövzusuna uyğun olaraq, o, artıq çəkidən əziyyət çəkən insanların sayının artmasının qlobal miqyasda narahatedici göstərici olmasını və bu istiqamətdə maarifləndirmə tədbirlərinin aparılmasının zəruriliyini qeyd edib.

Milli Məclisin deputatı, Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyasının sədri, tibb elmləri doktoru Rəşad Mahmudov konfransın əhəmiyyətini qeyd edərək bildirib ki, artıq çəki, sadəcə, zahiri görünüşlə bağlı deyil, ciddi sağlamlıq riskləri yaradan problemdir və bu sahədə vahid yanaşmaların formalaşdırılması böyük əhəmiyyət daşıyır. Alim "Ateroskleroz və kliniki protokollar: necə etməliyik və nə üçün?" mövzusunda məruzə edərək müasir yanaşmalar və tətbiq olunmalı praktik addımlar barədə fikirlərini bölüşüb.

Daha sonra TƏBİB-in icraçı direktorunun müavini Araz Nəsirov qeyd edib ki, artıq çəkinin idarə olunması təkcə fərdi deyil, eyni zamanda ictimai səhiyyə baxımından da prioritet məsələlərdəndir.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Tibbi Planlama Departamentinin rəhbəri, professor Hikmət İbrahimli isə piylənmənin profilaktikası istiqamətində aparılan elmi və praktiki işlərin tibbi sığorta sistemində də prioritet istiqamətlərdən olmasını və bu mövzuda beynəlxalq təcrübələrin öyrənilməsinin vacibliyinə diqqət çəkib.

Yeni Klinikanın direktoru Barat Yusubov müzakirənin önəmini vurğulayaraq, sağlam həyat tərzinin təbliğinin tibb mütəxəssislərinin gündəlik fəaliyyətinə inteqrasiya olunmasının vacibliyini diqqətə çatdırıb.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin elmi işlər üzrə direktor müavini, tibb elmləri doktoru Hicran Namazova, C. Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutunun direktoru, professor Gülnaz Dadaşova sağlam həyat tərzinin tibbi-elmi meyarlarını xatırladıblar.

Konfrans iştirakçılarına "Artıq Çəki və Düzgün Həyat Tərzi: Sağlam Gələcək" adlı maarifləndirici videoçarx təqdim olunub.



Açılış mərasimi respublikanın Əməkdar artisti Nuriyyə Hüseynova və bəstəkar ifaçı Çilənay Hüseynovanın ifasında rəqs ansamblının müşayiəti ilə bədii proqramla bitib.

Konfrans professor Kamran Musayev, Dr. Kəmalə Paşayeva, Dr. Xəyyam Eyvazov, Qədər Bəkməzci Dəmiralp, tibb elmləri doktoru Aynur Səfiyeva, Məhtap Şəfək və Dr. Xalidə Babayevanın moderatorluğu ilə davam edib.

Türkiyəli sağlam qidalanma və ailə mütəxəssisləri Əndər Saraç, ailə məsləhətçisi Məhtap Şəfəq, Qədər Bəkməzci Dəmiralp, Nəşə Kutlutaş, tibb elmləri doktoru Yaqut Hacıyeva, tibb üzrə fəlsəfə doktorları Gülnarə Ağayeva, Rafiq Yusifli, Mirana Mirişova, Təranə Təğızadə, həkimlər Afət Məhəmmədli, Arzu Hüseynova, Xəyyam Eyvazov və Nərmin Novruzova müxtəlif mövzularda təqdimatlar ediblər.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

---

# Artıq içiləndə su da...



**İnsanlara kifayət qədər su içməməyin təhlükələri, orqanizmə gətirdiyi nasazlıqlar barədə xəbərdarlıqlar edilir, lakin onun həddindən artıq qəbul edilməsinin hansı təhlükələr yaratmasından danışılmır.**

Dahi mütəfəkkir Nizami Gəncəvi hələ 12-ci əsrdə:

– Bir inci saflığı varsa da suda,
Artıq içiləndə dərd verir o da

– desə də, o dərdin nə olduğunu rusiyalı terapevt Yuliya Mironova açıqlayıb. Həkim həddindən artıq su içməyin əzələ spazmı, qıcolmalar və daha ciddi narahatlıqlara səbəb ola biləcəyini vurğulayıb.

Bildirib ki, bədənə daxil olan həddindən artıq miqdarda su tərkibindəki vacib mineralların konsentrasiyasını təhlükəli şəkildə azaldır və bu da öz növbəsində orqanizmi tükəndirir.

Həddindən artıq su istehlakı qanda natrium səviyyəsinin təhlükəli minimuma düşdüyü hiponatremiyanın inkişafına səbəb ola bilər. Bu, hüceyrənin şişməsinə gətirib çıxarır və qıcolmalar, koma da daxil olmaqla ciddi fəsadlara səbəb ola bilər.

Yuliya Mironova diqqəti ABŞ Milli Elmlər, Mühəndislik və Tibb Akademiyasının aşağıdakı parametrlərə diqqət yetirməyi tövsiyə etdiyinə diqqət çəkib. Vurğulayıb ki, kişilər üçün gündə 3 litr, qadınlar üçün isə 2,5 litrdən çox maye içmək zərərlidir.

Bu rəqəmə bəzi həkimlərin tövsiyə etdikləri kimi yalnız su yox, tamamilə bütün maye daxildir – həm təmiz içməli su şəklində, həm də qida məhsullarında olan mayelər şəklində.

Ekspert qeyd edib ki, insanlar gündəlik qəbul etdikləri mayenin təxminən 20 faizini qida, çay, qəhvə və ya şirələrdən alırlar.

*Z.HÜSEYNLİ*
*XQ*

---

Hava

# Hava küləkli olacaq...

**Milli Hidrometeorologiya Xidmətindən verilən xəbərə görə, iyunun 15-16-da Bakıda və Abşeron yarımadasında, eyni zamanda bəzi bölgələrdə gözlənilən küləkli hava şəraiti ilə bağlı sarı və narıncı xəbərdarlıq verib.**



Gəncə, Samux, Gədəbəy, Qazax, Ağstafa, Tovuz, Şəmkir, Göygöl, Salyan, Neftçala, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, İsmayıllı, Qəbələ, Lənkəran, Masallı, Astara, Lerik, Yardımlı, Biləsuvar, Cəlilabad, Zəngilan, Qubadlı, Şuşa, Xocavənd, Xankəndi, Ağdam, Ağdərə, Füzuli, İmişli, Beyləqan, Laçın, Cəbrayıl, Tərtər, Bərdə, Ağdam, Yevlax, Ağcabədi, Saatlı, Sabirabad, Şirvan, Quba, Qusar, Şabran, Xaçmaz, Xızı, Siyəzəndə qərb küləyi əsəcək, küləyin sürəti 13.9-20.7 m/san təşkil edəcək.

Bakıda və Abşeron yarımadasında, Naxçıvan MR, Mingəçevir, Daşkəsən, Naftalan, Goranboy, Qobustan, Hacıqabul, Kəlbəcərdə şimal-qərb küləyi əsəcək, küləyin sürəti isə 20.8-28.4 m/san-dək güclənəcək.

*Q.QASIMOV*
*XQ*

---

**ALLAH RƏHMƏT ELƏSİN**

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Cəlilova anası

**HAVVA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3687
SİFARİŞ 1205
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00